MƏHƏRRƏM ZÜLFÜQARLI

# AZƏRBAYCAN TARİXİNƏ YENİ BAXIŞ

BAKI – 2007

**"Biz... İranla dostluq münasibətləri saxlayırıq. Ümumiyyətlə, biz əməkdaşlığa və dostluğa üstünlük veririk... İranla – mən bunu təkrar edirəm - qədim tarixmiz var."**

*Azərbaycan Respublikasının*
*Prezidenti İlham Əliyev*

Müəllif : tarix elmlər namizədi Məhərrəm Zülfüqarlı
Redaktor: prof. Ədalət Əliyev

## MÜNDƏRİCAT


**Müəllifdən**

**1. Səfəvilər dövləti müştərək tarixin ən parlaq dövrü kimi**

**2. Mərkəzləşmiş dövlətin xanlıqlara parçalanması və bəzi ziddiyyətlərin başlanğıcının qoyulması.**

**3. I və II Rus – İran müharibələri, Gülüstan və Türkmənçay müqavilələri. 12 Azərbaycan xanlığının Rusiyanın əsarəti altına düşməsi**

**4. Çar Rusiyası zülmünə qarşı üsyanlar**

**Nəticə**

# Müəllifdən

Tarixə obyektiv deyil, subyektiv, bu günün siyasi münasibətləri konteksindən yanaşılması müasir dövrdə bir sıra ciddi problemlərin yaranmasına səbəb olmuşdur. Bu problemlərin aradan qaldırılmaması "Azərbaycan tarixi"ndə çar Rusiyası və sovet dövründən qalmış ağ və qara ləkələrin təmizlənməsinə imkan vermir. Çox təəssüf ki, müasir dövrdə də "Azərbaycan tarixi"ndə olan qara və ağ ləkələrin təmizlənməsi sahəsində elə bir ciddi addımlar atılmır. Fikirimizcə bunun əsas səbəbi Azərbaycan tarixinin, xüsusilə də XVIII – XIX əsrlər dövrünün çar Rusiyası və sovet dövründə obyektiv tədqiq olunmaması və müasir dövrdə həmin səhvlərin təkrar olunmasıdır.

Azərbaycan Resublikası Milli Ellər Akademiyası Tarix Institunun direktoru, professor Y. Mahmudov bu məsələ barəsində hələ 1989 – cu ildə belə demişdir: "Tarixçilər içərisində torpağının, el - obasının təəssübünü çəkən, nurlu ideyaları olan tədqiqatçılar az olmamışdır. Lakin onlara istənilən səviyyədə sərbəst işləmək imkanı verilməyib. Sifarişlə tarix yazmağa məcbur ediliblər. Bir sıra problemlərin analizi məsələsi sadəcə olaraq qadağan edilib. Mədhiyyələr yazılmasına isə yaşıl işıq yandırılıb. Tarixçilər illərlə müxtəlif siyasi yarlıqlar kabusu altında fəaliyyət göstəriblər."(1) Çox təəssüf ki, tarixi tədqiqatlara bu cür anormal münasibət bu gün də aradan qaldırılmamışdır.

1920 – ci il 27 aprel işğalından sonra Azərbaycan xalqını öz tarixi köklərindən ayırmaq və müsəlman şərqinə qarşı qoymaq üçün kommunist ideoloqları fəaliyyətlərini genişləndirmiş və hətta Azərbaycanda kommunist hərəkatı tarixinin IX əsrdə Babəkin başçılıq etdiyi Xürrəmilər hərəkatından başladığını iddia edən əsərlər də yazmışlar. Belə əsərlərdən biri professor P.K. Juzenin 1921 - ci ildə rus dilində nəşr olunmuş "Babək və Babəkizm. IX əsr Azərbaycanda kommunist hərəkatı tarixindən" adlanan əsəridir. Əsərdə müəllif mülkiyyətə, qırmızı bayrağa və s. amillərə münasibətdə xürrəmi və kommunist dünyagörüşləri arasında əlaqələr olduğunu sübut etməyə çalışaraq, Azərbaycan əhalisində islama qarşı düşmənçilik və kommunist ideologiyasına məhəbbət hissləri aşılamağı qarşısına məqsəd qoymuşdur.(2) Bundan başqa hətta Dərbənd divarının şimaldan deyil, cənubdan gözlənilən təcavüzə qarşı tikildiyini iddia edən kommunist ideoloqu Mixayloviç (Valantyor) "Bakinski raboçi" qəzetində bu mövzuya məqalə də həsr etmişdir.(3)

Bolşeviklərin bu siyasətini ifşa edərək M.Ə.Rəsulzadə yazırdı: "Azərbaycanda vətən və milli istiqlal uğrunda unudulmaz mübarizəsi ilə tanınmış Dağıstanın böyük imamı Şamil ilə Gəncənin igid müdafiəçisi Cavaddan bəhs etmirlər. Bunun yerinə isə Azərbaycan tarixinin dərinlikləri aranaraq, oradan Babək kimi şəxsiyyətlər çıxarılıb ideallaşdırılır... Babək Azərbaycanı şimala deyil cənuba qarşı qoyurdu.

Bu halda o, Sovetlər Birliyinin ehtimal olunan düşməninə qarşı savaşın rəmzi ola bilər... "Babəki" sözü hələ XIX əsrdə Azərbaycanda söyüş kimi işlədilirdi... qırmızılar islamiyyət əleyhdarları olan bu simanı idealizə etməklə Azərbaycandakı vətənpərvərlik duyğularını şimala doğru çevirmək istədilər."(4)

Tarixə bu cür münasibət sonrakı illərdə də partiya rəhbərlərinin istiqamətverici çıxışlarında və tarixçilərin əsərlərində davam etmişdir. Azərbaycan tarixinin bu cür saxtalaşdırılması və müasir dövrdə bu problemin həll olunmaması bir çox sahələrdə olduğu kimi Azərbaycan – Iran münasibətlərinin inkişafına da mənfi təsir göstərir.

XIX əsrin əvvəllərindən baş vermiş I və II Rus - Iran müharibələrindən 1991 – ci ilin 18 oktyabrına kimi şimali Azərbaycan Çar Rusiyasının və Sovet Ittifaqının tərkibində olduğu üçün tarixi proseslərə münasibətdə tarixçilər həmin dövlətlərin irəli sürdüyü konsepsiyalardan kənara çıxa bilməmişlər. Həm çar Rusiyası, həm də SSRI dövründə Irana qarşı düşmən siyasət yeridildiyinə görə tarixin saxtalaşdırılması prosesi baş vermişdi ki, bu təbliğatın da acı nəticələri bu gün də hiss olunmaqdadır.

Iran Islam Respublikasının sabiq prezidenti Seyid Məhəmməd Xatəmi 2004 – cü ilin avqustunda Azərbaycan Respublikasına səfəri zamanı Milli Məclisindəki çıxışında demişdir: "Iran və Azərbaycana gələn hər kəs həmişə ən yüksək zirvədə dayanan ədəb və əxlaqımıza pərəstiş və təəccüblə baxır. Azərbaycan şairi, ustad Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsəri əxlaq kitabıdır və insanlığa, ədalətə həsr olunmuşdur."(5)

Iran prezdenti əksəriyyət tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanmasına baxmayaraq onun Gəncədə olarkən Nizami Gəncəvi haqqında dediyi sözlərdən bəzi qüvvələrin sui – stifadə edərək ictimai rəyi çaşdırmaq cəhdləri fikrimizcə münasibətlərin yaxşılaşmasına qısqanclıqla yanaşılmasından başqa bir şey deyil. Bü kimi hallar müştərək tarix və ədəbiyyat haqqında xalq arasında geniş izahat işlərinin aparılmasına ehtiyac olduğunu sübut edir.

Sovet hakimiyyətinin ilk illərində dinə qarşı, xüsusilə də islam dininə qarşı düşmən siyasətin yeridilməsi, "allahsızlar cəmiyyəti"nin din xadimlərinə qarşı ləyaqətsiz hərəkətləri, 1929 – cu ildə ərəb əlifbasının latın əlifbası ilə əvəz edildikdən sonra əski əlifba ilə yazılmış kitabların, o cümlədən dini kitabların məhv edilməsi, evində ərəb əlifbası ilə yazılmış kitab saxlayan şəxslərin panislamist damğası vuraraq həbsxanalara salınması insanlarda böyük sarsınılara səbəb olmuşdur. Bu dövrdə aparılan siyasətin mahiyəti belə rəy formalaşdırmaqdan ibarət olmuşdur ki, guya sovet hakimiyyəti qurulana qədər Azərbaycan savadsızlar ölkəsi olmuş, "mədəni inqilab" nəticəsində bu çatışmazlıq aradan qaldırılmışdır. Akademik Ziya Bünyadov bu fikirə münasibət bildirərək

yazmışdı:"Sovet hakimiyyəti qurulana qədər təkcə Bakıda ərəb əlifbası ilə 160 – dan artıq qəzet və jurnal nəşr edilir, elmin, mədəniyyətin, incəsənətin, texnikanın və s. bütün sahələri üzrə kitablar çap olunurdu... Beləliklə də, Azərbaycan xalqının ictimai və intelektual şüuruna öldürücü zərbə vuruldu. O, çox kobud şəkildə özünün milli tarixindən, mədəniyyətindən və tarixi keçmişindən uzaqlaşdırıldı. Indi bütün tarixi konsepsiyaların yenidən nəzərdən keçirildiyi bir vaxtda respublikanın tarixçi və içtimaiyyətçiləri ərəb şrifti ilə yazılmış çoxsaylı sənəd və materialları oxumaq problemi ilə qarşılaşmışlar. Çünki Akademiya insititutları və ali məktəblərin müasir elmi işçilərinin 95 faizi ərəb əlifbasını oxuya bilmir." (6)

Sovet hakimiyyəti illərində Iranda qohumları olan və Iranla sərhəddə yaşayan Azərbaycan vətəndaşlarının sovet cəmiyyəti üçün təhlükəli hesab edilərək elliklə Orta Asiyaya və Qazaxstana sürgün olunması əhali arasında qorxu, xof yaratmışdır ki, hələ indiyə qədər də bir çox insanlar bu xofun təsirindən xilas ola bilməmişlər. Çünki sürgün olunanların bir hissəsi bu dəhşətlərə dözməyərək dünyasını dəyişmiş, gənc nəsil isə bu faciənin əsil səbəblərini bilmədiyindən Irana münasibətdə ehtiyatlı olmağa, bəzən isə ümümiyyətlə bu dövlət barədə müsbət fikir söyləməməyə üstünlük vermişlər. Çox təəssüf ki, bu psixoloji durumun qalıqları müasir dövrdə də qalmaqdadır.

Şeyxislam Hacı Allahşükür Paqşazadə bu barədə yazır: "Dövlətin Əsas Qanunun ziddinə olaraq kilsə və məscidlər bağlanır, din xadimləri və ayrı – ayrı dindarlar heç bir səbəb olmadan sosializmə düşmənçilikdə günahlandırılıb amansız cəza tədbirlərinə məruz qalırdı.

Islam və müsəlman xalqları daha ağır mərhumiyyətlərə düçar edilirdilər. "Dinsizlərin mübariz ittifaqı" şüarları altında məscidlər sökülüb dağıdılır, yerlə yeksan olurdu. Dinsizlik pərdəsi altında nə qədər tarixi mədəniyyət abidələri, məbədlər, məscidlər "sinfi düşmən yuvası" elan edilərək bağlanmış, anbara, muzeyə çevrilmişdi! Təkcə onu qeyd etmək kifayətdir ki, XX əsrin əvvəllərində, inqilab ərəfəsində Qafqazda 2000 – ə yaxın məscid və ziyarətgah olduğu halda, 80 – ci illərdə burada təqribən 25 məscid və bir neçə müqəddəs ocaq fəaliyyət göstərirdi. Ən ağır itkilərdən biri isə 1936 – cı ildə yol salınmasını bəhanəsilə IX əsrin möhtəşəm tarixi abidəsi – Bibiheybət məscidinin dağıdılması olmuşdur." (7)

Bakının "Şıx" (Şeyx sözünün dəyişilmiş şəklidir) kəndində yerləşən Bibiheybət məqbərəsi səkkizinci imam Əli bin Musa əl – Rzanın bacısı Hökümə xanımın və onun xidmətçisi Heybətin burada dəfn olunması ilə bağlı yaranmışdır. I Şah Təhmasib 1547 – ci ilin fevral ayında verdiyi fərmanla Zığ kəndi Bibiheybət məqbərəsinə vəqf olunmuşdur. Fərmanda deyilir: "Mübarək fərman verildi o haqda ki, Badkuyə ətrafında yerləşən Zığ kəndi bütün sərvət və əmlakı ilə birlikdə

haqq imam övladı Bibiheybətin – onun babalarına və özünə salavat və salam olsun- müqəddəs asitanəsilə vəqf edildiyinə və bu haqda heç bir dəyişiklik olmadığına görə Badkuyənin amillərindən, divan işlərinə baxanlardan, kələntərləri və kəndxudalarından heç biri, heç adla qeyd olunan kəndin ətrafına dolanmayaraq hər hansı bir tələb etməsinlər"(8)

Azərbaycan Respublikası dölət müstəqilliyini bərpa etdikdən sonra məqbərə yenidən tikilmiş və ziyarətgaha çevrilmişdir. Azərbaycan prezidentinin göstərişi ilə hazırda həmin müqəddəs ərazidə bərpa işləri davam etdirilir.

Azərbaycan tarixinin obyektiv tədqiqnə universitetlərdə fars dilinin öyrənilməsinə olan qeyri - obyektiv münasibət də öz mənfi təsirini göstərir. Hazırda bütün universitetlərdə rus və ingilis dilləri öyrədildiyi halda, Azərbaycanın qədim və orta əsrlər tarixi mənbələrinin əksəriyyəti fars dilində olmasına baxmayaraq nəinki başqa fakultələrdə, hətta tarix fakultələrində bu dilin öyrənilməsinə fikir verilməməsi təəccüb doğurur. Nizami Gəncəvi, Xaqani, Fələki və digər görkəmli şair və mətfəəkirlərin fars dilində böyük əsərlər yazmalarına baxmayaraq bu dilə hələ də ögey münasibət bəslənməsi başa düşülən deyil.

"Azərbaycan tarixi"nin orta əsrlər dövrü üzrə mütəxəssis professor Oqtay Əfəndiyev yazır: "Məlumdur ki, Azərbaycanın orta əsrlər tarixinə aid yazılı mənbələr içərisində fars dilli mənbələr həm sayına, həm də məzmununa görə qabaqcıl yer tutur. XII – XVIII əsrlər dövrü üçün fars dilli tarixi ədəbiyyat birinci dərəcəli əhəmiyyətə malikdir." Orta əsrlər üzrə digər görkəmli alim I. P. Petruşevski XVI – XVIII əsrlər dövrünü Iran tarixşünaslığının qızıl əsri adlandırmışdır.(9)

Azərbaycan tarixşünaslığının banısi Abbasqulu Ağa Bakıxanov özünün şah əsəri olan "Gülüstani – Irəm" əsərini 1841 – ci ildə fars dilində yazması, bundan başqa onun fars dilində "Mirat – əl – camal" ("Gözəlliyin aynası"), ərəb dilində hədislərə həsr olunmuş və 1862–ci ildə Tehranda fars dilinə tərcümə olunmuş "Hədis–i Qüdsi" kitabları və digər əsərləri fars dilinin tarixi tədqiqatlarda necə böyük əhəmiyyətə malik olduğunu sübut edir.

Prof. S. Əliyarlının redaktorluğu ilə 1996 – cı ildə nəşr olunmuş "Azərbaycan tarixi" kitabında fars dilinin əhmiyyəti barədə belə yazılmışdır:"Fars dilinə gəldikdə nəzərə alınmalıdır ki, bu dil gerçəkdən Həsən bəy Zərdabinin "Əkinçi"də yazdığı kimi, "bizim vilayətlərdə çox işlənirdi". Ona görə yox ki, bu vilayətdə yalnız tatlar yaşayırdı. Məsələnin tarixi açımı başqadır. Azərbaycanda olan məktəb və mədrəsələr "şair kitabları oxudan müəllimlərin"(Həsən bəy Zərdabi), "vaxtilə Firdovsinin romantikası, Sədinin dərin hikməti, Hafizin qəzəlləri qarşısında bayılan mirzənin" (M.Ə. Rəsulzadə) əlində idi.

Bir zamanlar fars dilində təhsili alan Azərbaycan və Türkiyə hökümdarları şah Təhmasib (Xətainin oğlu), Süleyman Qanuni, yenə

Məmməd Əmin bəyin sözlərilə deyilərsə, "Sədi lisanı qarşısında əriyib özlüyündən keçmiş,... Sultan Səlim isə az qala onu "rəsmi lisan elan etmişdir". XVIII yüzilin dövlət adamları Qarabağ hakimi Ibrahim xan və Şəki hakimi Səlim xan da Rusiya imperatorluğu ilə farsca yazışırdılar"(10)

Bir çox xalqların, o cümlədən Azərbaycan xalqının tarixinin, mədəniyyətlərinin, poeziyasının inkişafında mühüm rol oynamış fars dilinə hazırda bu cür laqeydlik, fikrimizcə uzun illər müstəmləkəçi rus və sovet rejimlərinin yerli əhalinin tarixi əleyhinə apardığı siyasətin nəticəsidir. Məhz bu cür münasibətin nəticəsidir ki, hələ də Azərbaycan tarixini ağ və qara ləkələrdən təmizləmək mümkün olmamış və bu da tarixin yenidən saxtalaşdırılmasına münbit şərait yaratmışdır.

Seyid Məhəmməd Xatəmi demişdir: "Dil eyni zamanda iki funksiyanı yerinə yetirir: həm aşkarlayandır, həm yaxınlaşdıran, həm örtükdür, həm də uzaqlaşdıran"(11)

Fikrimizcə müasir dövrdə Azərbaycanda rus, ingilis dilləri kimi fars dilinin də öyrənilməsinə qayğı ilə yanaşılması obyektiv tarixi tədqiqatların işıq üzü görməsinə imkan verməklə yanaşı iki dövlət arasında münasibətlərin inkişafına, onların daha da yaxınlaşmasına kömək göstərə bilər.

Sovet dövründə Azərbaycan tarixindən elmi tədqiqat işləri üçün mövzu seçərkən tədqiqatçıların əksəriyyəti özlərini çətinə salmamaq üçün əsasən kommunist partiyasının siyasətinin təbliğinə həsr olunmuş mövzulara üstünlük vermiş və dissertasiyalar müdafiə edərək alimlik dərəcələri almışlar.(12)

Azərbaycanın qədim və orta əsr tarixi ilə müştərək tarixə malik olan Iran tarixinə aid tədqiqatlarla məşğul olmağa yerli tarixçilrə qeyri rəsmi qadağalar qoyulmuş, erməni və rus tarixçilərinə isə bu sahədə yaşıl işıq yandırılmışdır. Bunu Iran tarixinə aid yazılmış əsərlərin siyahısı da təsdiq edir (13) Elmi tədqiqat işlərinə bu cür qeyri - ciddi münasibət sovet rejiminin müstəmləkələrdə yerli xalqlara, xüsusilə də müsəlman xalqlara qarşı yeritdiyi siyasətin əsas istiqamətlərini təşkil edirdi.

Yerli tədqiqatçıların çox az hissəsinə, əsasən Iranda baş vermiş siyasi proseslərdən sonra SSRI - yə gəlmiş siyasi mühacirlərə bu mövzuda tədqiqatlar aparmağa imkan verilmişdir.(14) Lakin onların tədqiqatlarında fars dilli tarixi mənbələr əsasən kommunist partiyasının mövqeyindən araşdırılmış və buna görə də bu cür tədqiqatlarda subyektiv amillər üstünlük təşkil etmişdir.

Iranda 1978 – 1979 – cu illər inqilabı dövründə SSRI bu inqilabdan öz məqsədləri üçün istifadə etməyə və Əfqanıstana qarşı yeritdiyi siyasəti Irana da yönəltməyə çalışmışdır. Bu dövrdə yazılmış kitab və məqalələr (15) deyilənləri sübut edir. Lakin Iran inqilabı liderinin "bizim bir

düşmənimiz Amerika, digəri Sovet Ittifaqıdır" deməsi həmin siyasəti alt – üst etmişdir.

Sovet hakimiyyəti illərində, xüsusilə də XX əsrin 60 – 80 – ci illərində Azərbaycan Dövlət Universitetinin (hazırda BDU) şərqşünaslıq fakultəsi çox böyük nüfuza malik olmuşdur. Lakin bunun əsil səbəbinə diqqət yetirdikdə burada da sovet siyasətinin özünəməxsus xüsusiyyətləri açıq - aydın özünü büruzə verir. Bu fakultəyə tələbələrin xüsusi önəm verməsi və fars, ərəb və tük dillərini öyrənməsi heç də şərq xalqlarının, o cümlədən öz xalqının tarixini, ədəbiyyatını obyektiv tədqiqinə yaranan həvəsdən əmələ gəlmirdi. Bu əsasən o zaman çoxları üçün əl çatmaz olan xarici ölkələrdə işləmək, yüksək məvacib almaq və geri qayıdarkən başqalarından fərqli olaraq firavan yaşamaq istəyindən yaranırdı. Sovet rəhbərliyi şərqşünaslıq fakultəsinin məzunlarına bu güzəştləri edərək onlardan təkcə dinc əməkdaşlıq məqsədləri üçün deyil, həm də şərq ölkələrini öz nüfuz dairəsinə salmaq, hətta təcavüzkar siyasətin həyata keçirilməsində də istifadə edirdi. Universiteti bitirən hər bir gəncə zabit rütbəsi verərək onları müxtəlif vaxtlarda müharibə gedən Ərəb ölkələrinə, Əfşanıstana və digər ölkələrə göndərməklə onlar vasitəsilə öz siyasi məqsədlərini həyata keçirirdi. Bundan başqa ölkə daxilində bu şəxslərdən SSRI ilə münasibətləri yaxşı olmayan müsəlman ölkələri əleyhinə təbliğatda da istifadə olunur, dövlətin məxfi orqanları müxtəlif işlərdə onları əməkdaşlığa cəlb edirdi.

XX əsrin axırlarında Azərbaycanda komunist rejiminə qarşı başlamış milli – azadlıq hərəkatının da bəzi qaranlıq məqamlarının üzərinə işıq salınması müştərək tarixin obyektiv tədqiqinə kömək göstərə bilər. Bu gün Azərbaycan Respublikasında baş verənləri yaxından dərk etmək, movcud problemlərin aradan qaldırılması üçün çağdaş tarixin, xüsusilə də yaxın keçmişin obyektiv öyrənilməsinə böyük ehtiyac var. Belə dövrlərdən birini də 1988 – 1993 – cü illər dövrü təşkil edir ki, bu dövrün obyektiv tədqiqi aktual olaraq qalır. Bu dövrdə baş verən və hələlik tədqiqatçıların diqqətini cəlb etməyən məsələlərdən biri də 1990 – cı ilin yayında AXC daxilində birdən – birə bir qrup şəxsin təcili olaraq partiya yaratmağa başlamasıdır.

Bu sahədə ilk addımlardan biri 1990 – cı ilin yayında atıldı və Şimali Azərbaycan Demokrat Partiyası (ŞADP) təsis komitəsinin yaradılması barədə xəbərlər mətbuatda dərc olundu. Təsis komitəsinin üzvləri "FV – ÇP" qəzetinin iyun № 6, 1990 – cı il sayında və "Azadlıq" qəzetinin 13 iyul 1990 – cı il sayında dərc olunmuş "Zamanın tələbiylə. Şimali Azərbaycan Demokrat Partiyası" adlı müsahibəsində partiyanın yaranmasını zəruri edən amilləri qeyd etmişlər. Onlar bildirmişdir ki, "indi Azərbaycan xalqı dövlət müstəqilliyi uğrunda şüurlu mübarizə dövrünə qədəm qoyur və öz baxışlarımızı təbliğ etmək, gələcəkdə onların

bərqərar olması uğrunda mübarizə aparmaq üçün partiya formasından istifadə etməyi məqsədəuyğun sayırıq."

Buradan belə çıxır ki, 1990 – cı ilin iyununa qədər sovet imperiyasına qarşı aparılan mübarizə şüurlu deyil kortəbii olmuş, AXC – nin təsis konfransında qəbul olunmuş proqram və nizamnamə də bu kortəbilliyi özündə əks etdirmişdir. Fikrimizcə ŞADP təsisçiləri atdıqları addımlara haqq qazandırmaq üçün bu cür ifadələr işlətmiş və sonradan bunun onların özlərinə qarşı çevriləcəyini nəzərə almamışlar.

Sual oluna bilər ki, sovet imperiyasına qarşı mübarizə başa çatmamış və dövlət müstəqilliyi əldə edilməmiş AXC- nin Moskva tərəfindən "liberal" adlandırılan qanadının bəzi üzvləri nəyə görə tələsik partiyalaşmaya meylləndilər və nəya görə yaratmaq istədikləri partiyanın adını ŞADP qoydular? Yəni bu zaman başlamış prosesi yarımçıq qoyaraq xalqın diqqətini şimaldan cənuba, yəni Irana yönəltmək nə dərəcə düzgün idi?

ŞADP – çilərin məntiqindən belə çıxırdı ki, 1990 – cı ilin yayına qədər baş vermiş proseselər Sovet Ittifaqına qarşı çevrilmiş kortəbii hərəkat olmuş, bundan sonra hərəkatın şüurlu dövrü SSRI – yə qarşı deyil, Irana qarşı yönəlməlidir. Bəziləri bu fikrə etiraz edərək deyə bilər ki, ŞADP – çilər sovet imperiyasına qarşı mübarizəni davam etdirməyin tərəfdarı idilər. Onda ortaya belə bir sual çıxır ki, nəyə görə partiyanı ADP yox ŞADP adlandırırdılar. Fikrimizcə şimal sözünün bura salınması əsas hədəfdən yayınmaq məqsədi daşımışdır ki, bu da 1990 – cı ilin iyununda Azərbaycan xalqına deyil Moskvaya hava – su kimi lazım idi.

Bəs nəyə görə ŞADP-nin yaranması prosesini başa çatdırmaq mümkün olmadı və ŞADP – çilər 1992 – ci ilin payızından təcili olaraq "Müsavat"ı bərpa etməyə üstünlük verdilər? Fikrimizcə bunun əsas səbəbi ŞADP – çilərin əksinə olaraq xalqın sovet imperiyasına qarşı mübarizə əzminin güclü olması idi. Lefortovoda saxlanılan siyasi məhbusların azadlığa çıxması üçün Azərbaycanın müxtəlif yerlərində, hətta Moskvada aclıq aksiyalarının keçirilməsi, 1,5 milyon imzanın toplanması deyilənləri sübut edir. ŞADP – çilər xalqın dəstəyini qazanmadıqlarına görə AXC daxilində gözləməyi qərara aldılar və hətta bir neçə gün aclıq aksiyalarına da qoşuldular. (16)

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra tarixi tədqiqatlar sahəsində əvvəlki problemlər qalmasına baxmayaraq müştərək tarixi obyektiv əks etdirən bir sıra kitablar və məqalələr nəşr olunması müsbət qiymətləndirilməlidir.(17) Bundan başqa müştərək tarixin öyrənilməsində son illər fars dilindən tərcümə olunmuş kitab və məqalələrin də (18) böyük əhəmiyyəti vardır.

Sizə təqdim olunan kitabın yazılmasında müəllifin müxtəlif qəzetlərdə dərc olunmuş məqalələrindən də istifadə edilmişdir (19)

Azərbaycan tarixinin, Azərbaycan və Iranın müştərək tarixinin obyektiv tədqiqinə qərb ölkələrinin kənar müdaxilələri də öz mənfi təsirini göstərir. Azərbaycan Respublikası prezidenti Ilham Əliyevin bu məsələ barədə belə demişdir: "Hazırda Azərbaycanla Iran arasında çox konstruktiv münasibətlər mövcuddur... Biz Iranla yaxşı münasibətlərin olmasını istəyirik və mən belə düşünürəm ki, bu gün buna nail olmuşuq... Biz imkan verə bilmərik ki, Azərbaycan müxtəlif ölkələr arasında qarşıdurma zonasına çevrilsin. Əgər hansısa ölkələr bir – biri ilə qarşıdurmaya girmək istəyirlərsə, onlar bunun üçün başqa yer tapa bilərlər. Biz Azərbaycanda əməkdaşlıq zonası yaratmağa çalışırıq və zənnimcə buna nail oluruq."(20)

Fikrimizcə prezidentin bu sözləri iki dövlət arasında münasitbətlərə hər hansı kənar təsirlərin yaxın gələcəkdə aradan qaldırılacağına ümidləri artırır.

I. Əliyevin Iran Islam Respublikasına 2005 – ci ilin 24 – 27 yanvar tarixli səfəri və imzalanmış 9 sənəd, Iranın Azərbaycana bir milyon ABŞ dolları həcmində qrant ayırması və digər məsələlər iki ölkə arasında münasibətlərin daha da inkişafına xidmət edir. Azərbaycanda bu səfərə fərqli münasibətlər olmasına baxmayaraq bunların təsiri ilə iki ölkə arasında münasibətlərin inkişafını görməmək mümkün deyil. Hətta səfərdən dərhal sonra bir neçə qəzetlərdəki yazılarda (21) iki ölkə arasında münasibətlərin inkişafına fərqli yanaşmaq meylləri də özünü büruzə vermişdi. Azərbaycan Respublikasının Iran Islam Respublikasındakı sabiq səfiri N. Nəsibzadə səfərlə bağlı demişdir: "Qərb həmişə yeni müstəqil dövlətlərə qüdrətli qonşularla dil tapmağı məsləhət görür... Heç ağıla da sığmır ki, Azərbaycan hökuməti Rusiya, yaxud Iranla əlaqələri tamam kəssin, onlarla iqtisadi münasibətlərə son qoysun... I. Əliyev üstündən xeyli vaxt keçsə də, Vaşinqtona verdiyi vədləri yerinə yetirməyib…Ola bilsin ki, ölkə başçısı bununla Amerikaya göstərmək istyəir ki, çox sıxmayın, hələ imkanlar qalır, balans siyasətinin riçaqlarından istifadə edib oriyentasiyanı tamamilə dəyişdirə bilər... Mövcud iqtidar deyək ki, 60 – ın 40 – a nisbətində qərbpərəst xətt yeridirsə, son bir ildəki fəaliyyəti ilə göstərir ki, hakimiyyətini qorumaq naminə Rusiya və Iranla münasibətləri müttəfiqlik səviyyəsinə qaldırmaq imkanlarını saxlayır." (22)

Fikrimizcə müştərək tarixin obyektiv tədqiqndəki problemlərin həlli üçün birinci növbədə aşağıdakı tarixi dövrlərin yenidən tədqiqinə ehtiyac var:

1. **XVI – XVIII əsrlər dövrü**
2. **XVIII əsrin ortaları – Türkmənçay müqaviləsinə qədərki dövr.**
3. **1828 – ci ildən XX əsrin əvvəllərinə qədər olan dövr.**
4. **1918 – 1920 – ci illər Azərbaycan Xalq Cümhuriyyəti dövrü ( I Respublika dövrü)**

5. **1920 – 1991 – ci illər sovet dövrü ( II Respublika dövrü)**
6. **1991 – 2007 – ci illər müstəqil Azərbaycan Respublikası dövrü ( III Respublika dövrü)**

Sizə təqdim etdiymiz kitabda bu günümüz üçün daha zəruri olan XVI – XIX əsrlər tarixinə yeni baxış öz əksini tapmışdır. Bu kitabın elmi əhəmiyyəti ondan ibarətdir ki, bu günə qədər əksər tarixçilərin müdafiə etdikləri sovet dövründən qalmış konsepsmiyalardan imtina edilmiş, tarixi hadisələrə bu günki siyasi proseslərin təsiri ilə subyektiv deyil, həqiqəti əks etdirən obyektiv münasibət bəslənilməsinə cəhd edilmişdir. Tarixi ədalətin bərpa olunmasına edilmiş bu cəhtin gələcəkdə daha da inkişaf etdirilməsinə ehtiyac var.

Fikrimizcə XVIII əsrin ortalarına qədər eyni dövlətin vətəndaşları olaraq eyni tale yaşamış insanların varisləri olan Iran və Azərbaycanın hazırki əhalisi mövcud müştərək tarixə "mənim" və ya "sənin" konteksindən deyil "bizim" konteksindən yanaşmasının vaxtı çoxdan çatmışdır. Məhz tarixi keçmişə bu cür yanaşma müasir dövrdə mövcud problemlərin həllinə yaxından kömək göstərə bilər.

## 1. Səfəvi dövləti müştərək tarixin ən parlaq dövrü kimi

Azərbaycan və Iran arasında münasibətlərin inkişafında Səfəvi dövləti (1501 – 1736) tarixinin obyektiv öyrənilməsinin mühüm əhəmiyyəti vardır. Ərazisi Azərbaycan, Şərqi Ermənistan, Şərqi Gürcüstan, Iran, Cənubi Türkmənistan, Əfqanıstan (Bəlx vilayəti istisna olmaqla), bəzi dövrlərdə Iraqi – Ərəb və başqa torpaqları əhatə edən Səfəvi dövləti müasir dövrdə hər iki dövlətin əhalisinin qürur duya biləcəyi güclü və qüdrətli bir dövlət olmuşdur. Bu dövlətin tarixinə aid Azərbaycanda bir çox əsərlər(23) yazılmasına, Bakının mərkəzində Şah Ismayıl Xətainin möhtəşəm abidəsi ucaldılmasına, adına metro stansiyası verilməsinə baxmayaraq hələ də bu görkəmli şəxsiyyətə və Səfəvi dövlətinə yad münasibət bəsləyənlərə, hətta düşməncəsinə yanaşanlara rast gəlmək olur.

2001 – ci ildə Səfəvil dövlətinin yaranmasının 500 illik yubleyinin təntənə ilə keçirlməsinə ilə bağlı təkliflər səslənməsinə baxmayaraq bu yubleyin keçirilməsinə qarşı kampaniya aparılması deyilənləri sübut edir. Mətbuatda keçirilən debatlarda bir çox ziyalıların, o cümlədən o zaman Azərbaycan Jurnalistlər Ittifaqının sədrinin Səfəvi dövlətinin əleyhinə fikirlər söyləməsi, Şah Ismayılı Şirvan ərazilərini işğal etmiş, yerli əhalini qılıncdan keçirmiş təcavüzkar adlandırması müştərək tarixə düşmən münasibətin nəticəsidir. Hələ də keçmiş kommunist rejiminin ideoloji təsirindən azad ola bilməyən bu cür insanlar tarixin düzgün dərk olunmasına əvvəlki illərdə olduğu kimi bu gün də maneçilik törədirlər.

Məhz bu cür ziddiyyətli fikirlərin mövcudluğu, öz tarixinə ögey münasibət müasir dövrdə Azərbaycan – Iran münasibətlərin inkişafına mənfi təsir göstərir ki, bu ziddiyyətlərdən də regionda maraqlı olan qüvvələr bəhrələnirlər.

Tarixən dünyanın müxtəlif ərazilərində hökümdarlar mərkəzləşmiş dövlət yaradılmasına ayrı – ayrı əylətləri öz hakimiyyəti altına salmaqla başlamışlar. Bu prosesə görə məsələn, Rusiyada I Pyoturu, Almaniyada Bismarkı heç kim işğalçı adlandırmır. Əksinə həmin şəxsləri mərkəzləşmiş dövlətin başçısı kimi qəhrəman səviyyəsinə yüksəldirlər.

Akademik M. Ismayılov yazırdı: " Bir tarixçi 1969 – cu ildə "ehtiyatsızlıq" edərək cəmisi 15 – 20 nəfərin iştirak etdiyi elmi şuranın iclasında rəsmi ədəbiyyatda I Pyotrun Azərbaycana yürüşünü, onun Azərbaycan xalqına "azadlıq göstərməsi" kimi qiymətləndirmənin tarixi həqiqətdən uzaq olduğunu, bu yürüşün əsl mahiyyəti barəsində öz mülahizələrini söyləmişdi. Həmin məclisdə iştirak etmiş iki nəfər də – indi artıq akademik olmuş Z. M. Bünyadov və professor olmuş S. S. Əliyarov da Azərbaycanın Rusiyaya birləşdirilməsini qiymətləndirərəkən bəzi nöqsanlara yol verilməsi barəsində öz fikirlərini dinləyicilərə çatdırmışlar. Buna görə onların başına nə oyun açmadılar? Iş o yerə çatdı ki, Azərbaycan KP MK- nın plenumunda edilən rəsmi məruzədə də onlar tənqid hədəfinə çevrildilər."(24)

Azərbaycan KP MK - nın "Sov.IKP XXV qurultayının qərarları ilə əlaqədar olaraq ideoloji işin daha da gücləndirilməsi sahəsində respublika partiya təşkilatlarının vəzifələri haqqında " plenumunda (oktyabr 1971 - ci il ) Respublikada ictimai elmlər sahəsində az əsər yazılmadığı qeyd olunsa da, lakin bu əsərlərin bir çoxunun lazımi səviyyədə olmaması, həmin əsərlərdə metodoloji səhvlərin olması, elmi təhlilin dayazlığı, fakt materiallarının nəzəri cəhətdən lazımınca ümumiləşdirilməmsi, bəzi müəlliflərin tarixi keçmişdən bəhs edərkən partiyalılıq prinsiplərindən kənara çıxması, istismarçı siniflərin ayrı - ayrı nümayəndələrinin müəyyən dərəcədə ideallaşdırması, burjua filantropiyasının ictimai təbiətinin düzgün izah edilməməsi tənqid olunaraq alimələrə aşağıdakı göstərişlər verilmişdir: "Ictimai elmlərlə məşğul olan alimlərimiz tarixi keçmişi və müasir dövrü qiymətləndirərkən həmişə aydın partiya mövqeyində durmalı, ideya büdrəmələrinə, burjua təsirinin hətta ən kiçik təzahürlərinə qarşı barışmaz olmalı, antikommunizmə qarşı, burjua alimlərinə qarşı ideoloji mübarizənin ön cərgəsində getməlidirlər."

Bundan başqa plenumda qeyd olunmuşdur ki, Azərbaycan EA müxbir üzvü Z. Bünyadov, prof. M. Ismayılov və universitetin dosenti S. Əliyarov bir sıra tarixi faktları qiymətləndirərkən kobud səhvlərə yol verilmişlər.(25)

Məhz sovet dövründə tarixi keçmişə bu cür münasibət bəzi tarixi şəxsiyyətlərə, o cümlədən Şah Ismayıla qarşı bəzi şəxslərdə düşmən

münasibətin formalaşmasına səbəb olmuşdur. Bu cür səhv münasibət Səfəvilərdən sonra gəlmiş Nadir şaha, Qacarlara, o cümlədən məhşur sərkərdə Abbas Mirzəyə da şamil edilməsi müasir dövrdə tarixi gerçəkliyin dərk edilməsinə mane olur. Bü cür səhv fikirlərin aradan qaldırılması üçün bəşər tarixində şərəfli yer tutmuş Səfəvi dövləti tarixinin obyektiv öyrənilməsinə böyük ehtiyac var.

Səfəvi dövlətinin əsasını Səfəvi şeyxlərinin Ərdəbil hakimliyi qoymuşdur. Şah Ismayılın babası Şeyx Cüneyd və atası Şeyx Heydərin XV əsrin II yarısından mərkəzləşmiş dövlət yaratmaq cəhdləri uğursuzluqla nəticələndikdən sonra bu missiyanı 1499 – cu ildən gənc Ismayıl həyata keçirməyə başladı. Onun rəhbərliyi altında başlanan şiə – qızılbaş hərəkatı Səfəvilərin əvvəlki çıxışlarından əhəmiyyətli dərəcədə fərqlənirdi. I. P. Petruşevski yazırdı: "Əgər Şeyx Heydər yalnız Azərbaycanı birləşdirməyi öz qarşısına məqsəd qoymuşdusa, Ismayılın müridləri və tərəfdarları məhz qonşu ölkələrdə fəal çıxışları onun qarşısında daha geniş vəzifələr qoydu. O, Azərbaycanı birləşdirdi (1502 – ci il üçün) və öz hüdudlarını bir sıra ölkələri də daxil edə biləcək böyük şiə dövləti yaratmağa səy göstərən məsləkdaşlarının arzularını da yerinə yetirməyə məcbur oldu" (26)

Şah I Ismayıl qızılbaş tayfalarını öz ətrafında birləşdirmək üçün Ərdəbildən Ərzincana gəldi. 1500 – ci ilin yayında o, şimala doğru irəlləyərək Şirvana daxil oldu, Fərrux Yasarın qoşunlarını məğlub edərək Bakını tutdu. Daha sonra cənuba qayıdaraq 1501 – ci ildə Ağqoyunlu Əlvənd Mirzənin qoşunlarını məğlub etdi. Ismayıl bu qələbələrdən sonra Təbrizə daxil olaraq, özünü şah elan etdi və Səfəvi dövlətinin əsasını qoydu.



Şiəlik dövlət dini səviyyəsinə qaldırıldı. Şah I Ismayıl on iki imamın adına xütbə oxutdurub, sikkə kəsdirdi. Sikkənin üstündə "Allahdan başqa allah yoxdur, Məhəmməd – Allahın elçisidir, Əli – Allahın dostudu" yazdırdı. Pulların üstündə on iki imamın adları və "Müqəddəs şahın( yəni, Əlinin) qulu" ifadəsi ilə, kiçildilmiş formada şah Ismayılın adı göstərilmişdi. Şiəliyə dair rəhbərlik üçün şeyx Cəmaləddin Mütəhhər Hillinin(1250 – 1325) "Qəvaid – i islam" ("Islamın qaydaları") kitabı yeganə rəsmi ədəbiyyat kimi qəbul edildi.

Şah Ismayılın ana babası Ağqoyunlu hökymdarı Uzun Həsən, ata babası Şeyx Cüneyd olduğuna görə hər iki tərəfin vərəsəsi kimi şah tax – tacına oturmağa layiq idi. Şah Ismayıl bu məsələdə ona və qardaşlarına düşmənçilik edən doğma dayılarına, Uzun Həsənin oğlanlarına qarşı mübarizə apararaq qalib gəlmişdir.

Dövlətin adı I Şah Ismayılın ulu babası Şeyx Səfiəddinin (1254-1334) adından götürülmüşdür. Şeyx Səfiəddin dövrünün ən hörmətli və savadlı şəxsiyyətlərindən olmuşdur. O, "Qara məcmuə" əsərinin və bundan başqa türkcə və farsca bir neçə kitabın müəllifi idi. O dövrdə müəllimlər və mürşidlər tərəfindən mədrəsələrdə, zaviyələrdə müridlərə tədris etmək məqsədilə yazılan kitablara "Qara məcmuə" deyilirdi.(27) Bu faktlar onu göstərir ki, Səfəvi dövlətinin adını daşıdığı Şeyx Səfiəddin və onun babaları dövrünün məhşur və savadlı şəxsiyyətləri olmuşlar.

Şah Ismayılın nəsilinin şəcərə cədvəli: (28)

Firuzşah Zərrinqullah(XII əsrin II yarsı)
Əvəz əl-Həvəşş
Məhəmməd əl-Hafiz
Səlah əd-din Rəşid
Qütb əd-Din Əhməd
Şeyx Saleh
Əmin əd-Din Cəbrail
Məhəmməd Sədah əd- Din Ismayıl
1) Səfi əd-Din Yaqub əd-Din (1252-1334) Mühyl əd-Din
2) Sədr əd-Din Əbu Səid Əla əd-Din Şərəf əd-Din
3) Hacı Əli Səlah əd-Din Cəmal əd-Din (1427 – də ölüb)
4) Ibrahim (Şeyxşah)
(1447-də ölüb) Cəfər Əbd ər-Rəhman

Əbu Səid Əhməd Bəyazid Hacıcan-mirzə Ibrahim Haceqi
5)Cüneyd (4.III.1460-da ölüb) Hacı Məhəmməd
6)Heydər(1460-1488) Soltan Əli Ibrahim

7) I Ismayıl (17 iyul 1487- 23 may 1524)

1. Şah Ismayıl 1503 – cü ildə Həmədan yaxınlığında Sultan Muradın 70 minlik qoşununu darmadağın etdi və 1505 – 1508 – ci illərdən Iran, Iraqi – Ərəb və Kiçik Asiyanın bir sıra vilayətlərini ələ keçirdi. 1510 – cu ildə Şeybanilərin ərazisini tutdu.

Osmanlı Sultanı II Bəyazid 1504 – cü ildə Səfəvi dövlətini rəsmən tanıdı. Lakin Sultan Səlimin vaxtında Səfəvilərə münasibət dəyişdi və düşmənçilik inkişaf etməyə başladı. Sultan Səlim Anadoluda yaşayan 40 minədək şiəni qılıncdan keçirməklə ziddiyyətləri daha da kəskinləşdirdi. Təkə elindən həbs edilən qızılbaşları yeni fəth olunan Medon və Koron adalarına sürgün etdi. Bununla Səfəvilərə qarşı müharibəyə hazırlaşan I Sultan Səlim yürüş zamanı arxasında baş qaldıra biləcək təhlükəyə son qoydu. Bu zaman Osmanlılarla müharibə vəziyyətində olan Venetsiya hökuməti Səfəvilərləri osmanlılara qarşı hərbi əməliyyata cəlb etmək imkanlarını öyrənmək üçün öz elçisi Konstantino Laskarini Təbrizə göndərdi. O, gənc Ismayılla görüşmüş və Italiyaya qayıtdıqdan sonra, 1502 – ci il oktyabrın 14 – də Venetsiya hökuməti qarşısında məruzə ilə çıxış etmiş və Səfəvi ordusunu artilleriya ilə təchiz etmək vədini olduqca yaxşı qarşılamışdır. Səfəvilər Venetsiya hökuməti ilə əlaqə saxlanılmasında Aralıq dənizinin sahilində yerləşən Qaraman tayfalarından istifadə etmişdir. Konstantin Laskari qeyd edirdi ki, "Sofinin başqa layiqli cəhətlərindən danışarkən əlavə etməliyəm ki, hətta türk torpaqlarında da çox adam ona rəğbət bəsləyir və onun hakimiyyəti altında yaşamağa can atır"(29)

1514 – cü il avqustun 23 – də baş vermiş Çaldıran döyüşündə I Şah Ismayılın qoşunları Sultan Səlimin qoşunları üz – üzə gəldi. Döyüşdə I Şah Ismayıl və qızılbaş döyüşçüləri xeyli hünər və qəhrəmanlıq nümunələri göstərdilər. Döyüşün qızğın çağında Ismayıl Osmanlı pəhlavanı Əli bəy Malquq oğlu ilə qarşılaşdı və ona qalib gəldi. Lakin qüvvələr nisbəti eyni olmadığına görə I Şah Ismayılın qoşunları məğlub oldu. Səfəvilər Şərqi Anadolunu həmişəlik itirdilər. Səfəvilərin məğlubiyyətinin əsas səbəbi canlı qüvvə və silah cəhətdən Osmanlılardan geri qalması idi. Səfəvilərin artileriyası demək olar ki, yox idi. Qərb ölkələri söz versə də son anda Səfəvilərə odlu silah vermədilər. Onların əsas məqsədi düşmənləri olan Osmanlı imperiyasını zəiflətməklə yanaşı böyük nüfuz qazanmış Səfəvilərin də güclənməsinə imkan verməmək idi. Buna görə də Səfəvi – Osmanlı ziddiyyətlərini daha da qızışdırırdılar.

Aralıq dənizi vasitəsilə digər qərb ölkələrindən odlu silahlar ala bilməyən Şah Ismayıl Çaldıran döyüşü ərəfəsi Portuqaliya ilə yaxınlaşmağa cəhd göstərirdi. Məqsəd Iran körfəzi vasitəsilə bu dövlətdən odlu silahlar, artileriya mütəxəssisləri almaq idi. Buna görə də o, Portuqaliyanın Iran körfəzində möhkəmlənməsinə mane olmadı. Səfəvi

– Portuqaliya danışıqları rəsmi sazişlə nəticələndi. Lakin bu müqavilənin də Səfəvilər üçün real nəticəsi olmadı. Çünki Səfəvi dövlətinin Osmanlı imperiyası ilə toqquşdurub hər ikisini zəiflətmək siyasəti yeridən Portuqaliya Şah Ismayıl ordusunu odlu silahla təchiz etmədi.

Şah Ismayılın Çaldıran döyüşündə məğlubiyyəti qərb dövlətlərini fikirləşməyə məcbur etdi və onlar öz maraqlarına uyğun olaraq taktikalarını dəyişərək Səfəviləri odlu silahlarla təhciz etməyə başladılar. Venetsiyanın Kiprdəki canişini Zuan Paolo Qradeniqo 1515 – ci il aprelin 29 – da Nikoziyadan öz hökümətinə yazırdı: "Təsdiq edirəm ki, senyor Sofi (Şah Ismayıl) 100 min nəfərdən çox döyüşçü toplamış və çoxlu top əldə etmişdir... Həmçinin deyirlər ki, Sofi Türkiyə sərhədinə yaxınlaşacaq, türklər geri çəkiləcəklər."

1518 – ci ilə aid digər sənəddə isə göstərilirdi ki, " Sofi 70 min döyüşçüsü ilə birlikdə Təbrizdədir. Portuqaliya kralının göndərdiyi tüfənglərlə silahlanmış əsgərlər və artileriya mütəxəssisləri də onların arasındadır." (30)

Çaldıran döyüşündəki Səfəvilər məğlub olsa da Osmanlılar da böyük qüvvə itirmişdilər. Məhz buna görə onlar Səfəi dövlətinin içərilərinə doğru irəlləyə bilmədilər. Müasirlərinin yazdığına görə Çaldıran döyüşündəki məğlubiyyət I Şah Ismayıla mənfi təsir göstərmiş və bundan sonra o, iri hərbi əməliyatlar aparmamışdır.

I Şah Ismayılın müxtəlif xalqları birləşdirən geniş vahid dövlətin əsaslarını möhkəmləndirmək sahəsindəki fəaliyyəti onu görkəmli dövlət xadimi kimi səciyyələndirir. O, mülki və dini rəhbər kimi şəksiz nüfuzundan istifadə edir, qızılbaş əmirlərinin itaətsizliyinin ən xırda əlamətlərinin qarşısını məharətlə alırdı. Məhz bunun nəticəsində XVI əsrin ilk rübündə mərkəzi hökümətin nüfuzu xeyli yüksəlmişdi. I Şah Ismayıl 1524 – cü il mayın 23 – də (hicri 930 – cu il rəcbər ayının 19-u), Azərbaycanın Sərab şəhəri yaxınlığında xəstələnərək 37 yaşında vaxtsız vəfat etmişdi. Onun cənazəsi Ərdəbilə gətirilərək babası Şeyx Səfiəddinin qəbri yaxınlığında dəfn edilmişdi.

Şah Ismayılın qəfil ölümü mərkəzi hakimiyyətin bir qədər zəifləməsinə gətirib çıxartdı. Əli Əkbər Vilayəti öz kitabında Şah Ismayılı yüksək qiymətləndirərək yazır: "Şübhəsiz, Şah Ismayıl Iranın vəhdət və istiqlaliyyətini bir daha bərpa etdiyi, müstəqil Iran milləti və dövləti yaratdığı və şiə əqidəsi qanunlarını rəsmi məzhəb səviyyəsinə çatdırdığı üçün Iran tarixinin adlı – sanlı və iranlıların məhəbbət və etiramını qazanmış şəxsiyyətlərdən biri olmuşdur." Daha sonra o, Şah Ismayılın Səfəvi dövlətinin yaranması və bu dövlətin tarixi əhəmiyyəti haqqında aşağıdakıları qeyd edir:

1. Bu dövlət ən böyük xüsusiyyəti müəyyən bir coğrafi və mədəni ərazidə müəyyən və o dövrün böyük Islam imperiyasından ayrı sərhədləri olan

müstəqil bir məmləkət yaratmasıdır ki, Sasanilərin süqutundan o zamana qədər misli – bərabəri olmamışdı;

2. Şiəliyin rəsmi bir məzhəb adı ilə rəvac tapması və yayılması sahəsində meydana gəlmiş bu vəhdət xaricilərin hücumları müqabilində etiqadlı, nəzəri və siyasi cəhətdən Iranın müdafiə qüdrətini qüvvətləndirdi;

3. Bu milli vəhdət və müstəqillik məmləkətdə bir əmin – amanlıq və sabitlik dövrü yaratdı ki, əhalinin artması və iqtisadi çiçəklənmə ilə nəticələndi. Ərdəbil, Təbriz, Xoy, Isfahan və s. kimi şəhərlər inkişaf etməyə və abadlaşmağa başladı;

4. Şiəlik məzhəbinə və Osmanlı dövlətinin genişlənməsinə qarşı mübarizəyə söykənən müstəqil milli dövlətin yaranması Avropa ölkələrinin diqqətini Irana yönəltdi;

5. Tarixin hökmü ilə Şah Ismayılın Iranın daxili və xarici siyaətində böyük əhəmiyyətə malik olmasına baxmayaraq, bəzi tarixçilər onu Anadolu müridləri ilə həmfikir və həmkarlıqda laqeydlik göstərməkdə, Osmanlı dövlətinə qarşı Misir və Iranın müştərək işlər görməsində səhlənkarlığa yol verməsində və nəhayət, Çaldıran savaşında zəif fəaliyyətində tənqid edirlər;

6. Ümumiyyətlə, demək olar ki, Şah Ismayıl Iranın tarixinin elə nadir şəxsiyyətlərindən biri olmuşdur ki, yeniyetməlik çağlarından Iranın istiqlal və vəhdət bayrağını qaldırmış, 24 illik daxili və xarici mübarizə müddətində Iranın sərhədlərini Diyarbəkrdən Ceyhun çayı sahillərinə qədər, Dərbənddən Oman və Fars körfəzi sahillərinə qədər çatdırmış, 12 imama etiqad bəsləyən şiə məzhəbini rəsmiləşdirməklə bu məzhəbə təzə həyat, etibar və xüsusi əhəmiyyət bəxş etmişdir. Belə ki, bütün alimlər onu Allahın və ariflərin yanında etibarlı şəxs və kamil mürşid hesab edirdilər. O, həmçinin alimləri, şairləri, tədqiqatçıları, sənət adamlarını uca tuturdu, özü də türkcə şer deyirdi. "Şah Xətai" məqamı ( ləqəbi) ona mənsubdur.

"Tarixe Şah Ismayıl" (Cahaqoşaye – Xaqan) kitabının əlyazma nüsxəsində Şah Ismayılın şəxsiyyəti belə vəsf olunmuşdur: "O həzrət özünün həyatı və hökmranlığı müddətində, rəiyyətləri və əlinin altında olanlarla ədalət və şəfqətlə rəftar edirdi. Onun qorxusundan heç kəs zülm qapılarını heç kəsin üzünə açmırdı. Ömrü 38 il, hökümranlıq müddəti 24 il olub. O həzrət döyüş meydanında cəngavər... idi. O həzrət elm və fəzilət sahiblərini uca tuturdu, şeri gözəl deyirdi...Türkcə və farsca şerlərindən ibarət divanları vardır.(31)

Şah Ismayıldan sonra Səfəvi hökümdarları aşağıdakılar olmuşlar: I Təhmasib (1524 – 1576), II Ismayıl (1576 – 1577), Məhəmməd Xudabəndə (1578 – 1587), I Abbas (1587 – 1629), I Səfi (1629 – 1642), II Abbas (1642 – 1666), Süleyman ( 1666 – 1694), Sultan Hüseyn (1694 – 1722), II Təhmasib (1722 – 1732), III Abbas (1732 – 1736).

Bu illərdə qərbi Avropa dövlətlərinin səyi və qızışdırıcı siyasəti nəticəsində fasilərlə 101 il Səfəvi – Osmanlı müharibələri baş vermiş, bu müharibələrdə iki qüdrətli müsəlman dövləti xeyli zəfiləmişdir. Hərbi əməliyyatlar 1514 – 1555, 1578 – 1590, 1602 – 1612, 1616 – 1618, 1623 – 1639, 1723 – 1727, 1730 – 1736 – cı illərdə getmiş və Amasiya ( 29 may 1955), Istambul ( 21 mart 1590, 20 noyabr 1612), Mərənd ( 29 sentyabr 1618), Qəsri – Şirin ( 17 may 1639), Həmədan (4 oktyabr 1727), Istambul ( 10 yanvar 1732, 17 oktyabr 1736) müqavilələri ilə başa çatmışdır. Səfəvilərlə Osamanlılar arasında 1730 – 1736 – cı illərdə baş vermiş müharibə zamanı cənubi Qafqaz ərazisi 1732 – ci il Istambul sazişinə görə Osmanlıların əlinə keçmiş, lakin 1736 – cı il yenə də Istambulda bağlanmış sazişlə Irana geri qaytalımışdır.1743 – cü ildə Iranla Türkiyə arasında yenidən müharibə başlamışdır. (32)

Şah I Abbasın (1587 – 1629) hakimiyəti illərində fəal xarici siyasət yeritməklə yanaşı, mərkəzləşmiş güclü dövlətin yaradılması üçün bütün vasitələrdən istifadə edilmişdir. Lakin bu yolda başlıca maneəni Şah Abbasın özünün də vaxtilə arxalandığı qızılbaş əyanları təşkil edirdi. Səfəvilərin hakimiyyəti dövründə kifayət qədər varlanmış qızılbaş əmirləri siyasi müstəqilliyə can atır, mərkəzi hakimiyyətə tabe olmaqdan inadla boyun qaçırırdılar. Buna görə də Şah Abbasın mərkəzləşmə siyasətində başlıca yeri I. P. Petruşevskinin qeyd etdiyi kimi " hərbi köçəri qızılbaş əyanlarının müqavimətini qırmaq və feodal pərakəndəliyini aradan qaldırmaq"(33) vəzifəsi tuturdu. I Şah Abbas həmin vəzifəni "çar Qroznı və kral IX Lüdovik kimi eyni qəddarlıqla" (34) həyata keçirmiş və bu siyasətin nəticəsində qızılbaş əmirlərinin sayı xeyli azalmışdır. Əgər 1576 – cı ildə tarixi sənədlərdə adı çəkilən 114 əmirin 61 – i qızılbaş idisə, 1628 – ci ildə adı çəkilən 90 əmirdən cəmi 35 – qızılbaş əmiri idi.(35)

I Şah Abbas XVII əsrin başlanğıcında qızılbaşların gücünü azaltmaq məqsədilə qacarları üç hissəyə bölüb onların birini Xorasanda, başqasını Astrabadda (Qorqan çayı üzərində), üçüncü hissəsini isə Qarabağda, Gürcüstanla sərhəd rayonlarında yerləşdirmişdi. Iranın siyasi həyatında bu qoldan Qorqan qacarları daha fəal rol oynayırdılar. Məhəmməd Həsən xan Qacar bu qoldandır.

I. A. Petruşevski bununla əlaqədar olaraq Səfəvilər dövlətinin XVI – XVII əsr tarixini iki dövrə bölmüşdü:

1. Ilk qızılbaş dövrü ( XVI əsrin əvvəllərindən sonuna qədər)
2. Son qızılbaş dövrü (XVII əsrin əvvələrindən sonunadək).

II dövrdən etibarən dövlətdə fars feodallarının rolu gücləndi. 1598 – 1599 – cu illərdə I Şah Abbas fars əyalətlərində keçirdiyi vergi siyasəti nəticəsində Isfahan və onun ətrafı 1617 – ci ilədək vergilərdən azad edildi. Bütün bu tədbirlər bir tərəfdən ölkənin iqtisadi vəziyyətini

düzəltmək, digər tərəfdən I Şah Abbasın feodal monarxiyası üçün etibarlı ictimai dayaq yaratmaq məqsədi güdürdü.(36)

Fikrimizcə I Şah Abbasın mərkəzləşmiş dövlətin möhkəmlətmək məqsədilə atdığı addımları bu günün siyasi prizmasından qiymətləndirmək və ona mənfi münasibət bəsləmək düzgün deyil. Məhz bu siyasətin nəticəsində dövlətin ərazisində xarici işğallar üçün şərait yaradan feodal çəkişmələrinə son qoyulmuş, dövlətin ərazilərinə xarici təcavüzlərin qarşısını alınmış, işğal olunmuş ərazilər geri alınmışdır. I Şah Abbasın 1607 – ci ildə Azərbaycanı Osmanlılardan geri alması, 1622 – cü ildə Avropa ölkələri arasında olan ziddiyyətlərdən məharətlə istifadə edərək Ingiltərənin köməkliyi ilə Portuqaliya qarnizonunu məğlub edərək Fars görfəzində Keş və Hörmüzü geri alması, 1624 – cü ildə Bağdad uğrunda döyüşlərdə, 1625 – ci ildə gürcülər üzərində qələbələri və s. deyilənləri sübut edir.

I Şah Abbasın hakimiyyət illəri haqqında bir çox tarixi mənbələr mövcuddur ki, bunlardanda ən samballısı Isgəndər bəy Münşi **"Tarix-i aləm aray-i Abbasi" ("Dünya bəzəyi Abbasın tarixi)" əsəridir.**

Isgəndər bəy Münşi (1560 – 1634) peşəkar tarixçi olmaqla yanaşı həm də uzun illər sarayda katib (münşi) vəzifəsində işləmiş, 32 – 33 yaşlarında I Şah Abbas dəftərxanasının baş katibi olmuşdur. O, uzun müddət "Xülasət ət – təvarix" əsərinin müəllifi Qazi Əhməd Qumi ilə birlikdə hərbi səfərlərdə iştirak etmişdir. Şahın hököm və fərmanlarını da o yazırdı. Müəllif Azərbaycanın bir çox şəhərlərini gəzmiş və əsərində Təbriz, Ərdəbil, Naxçıvan, Əhər, Xoy, Maku, Gəncə, Ordubad, Şamaxı, Bakı haqqında maraqlı məlumatlar vermişdir. O, Bağdad, Kərbəla, Nəcəfdə də olmuşdu. Hicri tarixi ilə 1017 ( m.t. 1608-1609) – ci ildə Cəlalilər Azərbaycana gələrkən onlarla görüşmüş və baş vəzir Hatəm bəy Ordubadinin göstərişi ilə onları siyahıya almışdır.

XII fəsildən ibarət olan **"Tarix-i aləm aray-i Abbasi" ("Dünya bəzəyi Abbasın tarixi)"** əsəri Isgəndər Münşinin tarix sahəsində şah əsəridir. Həmin əsərdə Səfəvilərin şəcərəsi verilmiş, Şah Ismayıldan Sultan Məhəmməd Xudabəndəyə kimi Səfəvilərin siyasi tarixi yığcam şəkildə qələmə alınmışdır. Əsərdə Şah I Abbasın (1587 – 1629) hakimiyyətinə isə geniş yer verilmişdir.

Isgəndər bəy Münşi **"Tarix-i aləm aray-i Abbasi" ("Dünya bəzəyi Abbasın tarixi)"** əsərini bitirdikdən sonra Şah I Səfi (1629 – 1642) dövrünün tarixini yazmağa başlayır. Ancaq 1634 – cü ildə vəfat etdiyi üçün bu əsər yarımçıq qalmışdır.

Isgəndər bəy Münşi **"Tarix-i aləm aray-i Abbasi" ("Dünya bəzəyi Abbasın tarixi)"** əsəri haqqında Azərbaycanda son illərdə çıxan bəzi kitablarda bir neçə cümlədən ibarət yalnız qısa məlumat verməklə kifayətlənilir. Lakin bu əsər haqqında oxuculara verilən bu qısa məlumat əsər haqqında dolğun məlumat əldə etməyə imkan vermir. Azərbaycan

tarixinin XVI – XVII əsrlərinə aid qiymətli mənbə hesab olunan bu şah əsərin hələ də Azərbaycan dilinə tərcümə olunmaması təəssüf doğurur. Fikrimizcə bu əsərin bütövlükdə Azərbaycan dilinə tərcümə edilərək nəşr olunmasının vaxtı artıq çoxdan çatmışdır. Bu əsərin Azərbaycan dilində nəşri bir sıra qaranlıq məqamların üzərinə işıq salınmasına və orta əsrlər tarixinin saxtalaşdırılmasının qarşısını alınmasına yaxından kömək göstərə bilər. Bu cür qiymətli tarixi mənbələrin tərcümə edilərək nəşr olunması müasir dövrdə hər iki ölkə vətəndaşlarının müştərək şanlı tarixlə fəxr etmələrinə, iftixar və qürur duymalarına da yardımçı ola bilər. Bundan başqa bu əsərin tərcümə edilərək nəşr olunması müasir dövrdə Azərbaycan – Iran münasibətlərinin inkişafında, bu münasibətlərin tarixi köklərinin geniş oxucu kütləsi tərəfindən düzgün qavranılmasına da müsbət təsir göstərə bilər.

XVII əsrdə Səfəvilər dövləti inzibati cəhətdən vilayətlərə bölünmüşdü. Bu vilayətlərin başında bəylərbəylər dururdu. Bəylərbəylərin idarə etdikləri vilayətlərin sayı on üç idi: 1. Şirvan (Ustacalı tayfasından olan əmirlər idarə edirdi); 2. Qarabağ və Gəncə (Qacar tayfasından olan əmirlər idarə edirdi); 3. Azərbaycan (Araz çayından cənub ərazilər) (Təkəli və Türkman tayfasından olan əmirlər idarə edirdi); 4.Çuxursəəd (indiki Naxçıvan ərazisi, Ustaclı tayfasından olan əmirlər idarə edirdi. Etimal olunur ki, indiki Sədərək kəndinin adı Çuxursəəd adından götürülmüşdür-M.Z.); 5.Qəzvin; 6. Qələmrov – i Ali şəkər (Həmədan); 7.Kuh Giluyə (Fars) (Zülqədər tayfasından olan əmirlər idarə edirdi); 8.Kerman ( Əfşar tayfasından olan əmirlər idarə edirdi); 9.Astrabad (Qacarlar tayfasından olan əmirlər idarə edirdi); 10. Məşhəd-i Müqəddəs-i Müəlla; 11. Herat (Şamlı tayfasından olan əmirlər idarə edirdi); 12. Mərv – i Şahicahan; 13. Qəndəhar.(37)

Səfəvi dövlətinin tənəzülü və Nadirin özünü şah elan etməsilə dövlətin parçalanmasının əsasını qoyan ziddiyyətlər yaranmağa başladı. Şah II Təhmasibin qoşununda 1726 – cı ildə sərkərdə kimi fəaliyyətə başlamış Nadir xanın komandanlığı altında qoşunlar Məşhədi düşmənlərdən azad etməsi, daha sonra Heratı tutması onun nüfuzunu daha da artırmışdı.

Nadir 1732 – ci ilin avqusunda şah II Təhmasibi devirərək onun azyaşlı oğlu III Abbası şah elan etməklə real hakimiyyəti ələ keçirmişdi. O, 1733 – cü ildə Bağdad yaxınlığında osmanlıları məğlub etdi. 1735 – ci ilin martında Nadirin Gəncə yaxınlığındakı düşərgəsində Rusiya səfiri Sergey Qolitsınla müqavilə imzalandı. Bu müqaviləyə əsasən Bakı və Dərbənddən rus qoşunları çıxarıldı. 1735 – ci ilin 8 iyununda Eçmiədzin yaxınlığındakı döyüşdə osmanlılar məğlub oldu və Azərbaycanı tərk etdilər. Bu prosesin Z.Bünyadov və Y. Yusifovun redaktorluğu ilə 1994 – cü ildə nəşr olunmuş "Azərbaycan tarixi" kitabında şərhi rus və sovet taixşünaslığından fərqlənməyərək demək olar ki, onun təkrarıdır. Kitabda

bu barədə belə yazılmışdı: "1735 – ci ilin sonunda türk qoşunu büsbütün Ön Qafqazdan qovuldu. Lakin bu, heç də yerli xalq kütlələrinin azadlığa çıxması deyildi. Türk qoşununun Ön Qafqazdan qovulması ilə Azərbaycan xalqının Iran müstəbidliyinə qarşı azadlıq mübarizəsinin yeni dövrü başladı. Azərbaycanda Iran hakimiyyətinin bərpa olunması xalqı yenidən Iran zülmünə düçar etdi" (s.513) Fikrimizcə Nadir şahın mərkəzləşmiş dövləti möhkəmləndirmək istiqamətindəki fəaliyyətini bu cür qiymətləndirmək obyektivlikdən tamam uzaqdır və məsələyə bu cür yanaşılması səhvdir.

Nadir xan 1736 – cı ilin fevralında Muğan qurultayında özünü şah elan etdi. Nadirin şah seçilməsini qanunuz sayan Qacar Ziyadoğlular soyundan olan Qarabağ – Gəncə bəylərbəyləri ona qarşı çıxdılar. Onlar iki yüz ilə yaxın irsən Xram çayının üstündəki "Sınıq körpü" ("Qırmızı körpü") - dən Xudafərin körpüsünə kimi uzanan torpaqları, Gəncə şəhəri də daxil olmaqla idarə edirdilər. Nadir Ziyadoğlullarına qarşı açıq cəza tədbiri həyata keçirməkdən çəkinsə də, onların gücünü, gəlir və qazanc mənbələrini sarsıtmağa çalışdı. O, Qazax və Borçalı əhalisini Gürcüstan valisinin tabeliyinə verdi. Qarabağ – Gəncə bəylərbəylərinin arxası olan Cavanşir, Otuziki, Kəbirli mahallarının əhalisini Xorasana sürgün etdi. Qarabağın xristian (Vərəndə, Crabert, Gülüstan, Dizak və Xaçın) məliklərini bəylərbəylik tabeliyindən çıxarıb birbaşa şah idarəçiliynə qatdı. Tarixçi Mizə Adıgözəl bəy bu münasibətlə yazırdı: " Beləliklə, Gəncə xanlarının ixtiyarları tamamilə əllərindən çıxdı. Səlahiyyətləri alındığından, qol qanadları sındı və çox pərişan oldular." (38)

XVIII əsrin axırlarında Ağa Məhəmməd şah Qacarın Qarabağa və Gürcüstana hərbi yürüşlərinin əsas məqsədi Qacarlar tayfasından olan Gəncə xanlarının itirdikləri bu əraziləri geri qaytarmaqdan ibarət olduğundan Qacarı işğalçı adlandırmaq tarixi saxtalaşdırmaqdan başqa bir şey deyil.

Nadir şah hakimiyyəti ələ aldıqdan sonra mərkəzləşmiş dövləti möhkəmləndirmiş, onun sərhədlərini genişləndirmişdir. O, 1737 - 1739 - cu illərdə Əfqanıstana yürüş etmiş, Hindistanda Dehlini tutmuş, 1742 - ci ildə Buxara və Xarəzmi ələ keçirmişdi.

Müharibələr, daxili çəkişmələr və üsyanlar Nadir şaha qarşı sui – qəsdə gətirib çıxardı və o, 1747 - ci il mayın 9 - da öz sarayında öldürüldü.

Nadir şah haqqında Kembric Universitetinin professoru Loupensi Lokkartın 1938 – ci ildə yazdığı "Nadir şah. Ilkin mənbələr əsasında tənqidi tədqiqat" kitabı 2005 – ci ildə N. Gözəlova təraifndən rus dilinə tərcümə edilərək nəşr olunmuşdur. Əsərin N. Əbdülrəhmanlı tərəfindən azərbaycan dilinə tərcümə edilərək "525-ci qəzetin" 2005 – ci ilin aprel – may aylarının şənbə saylarında verilməsi oxucuların Nadir şah şəxsiyyəti haqqında dolğun məlumat əldə etməsinə kömək etmişdir.

Nadir şahın öldürülməsi ilə onun nəhəng imperiyası dağılmağa başladı. Əfqanıstanda müstəqil dövlət təşəkkül tapdı. Digər ərazilərdə, o cümlədən Azərbaycanda müstəqil xanlıqlar meydana çıxdı.

Nadir şahın ölümü ilə ali hakimiyyət uğrunda mübarizə gücləndi. XVIII əsrin ikinci yarsında Iran taxt - tacı uğrunda iyirmiyə yaxın sərkərdə mübarizə aparırdı. Hakimiyyət on dəfə əldən – ələ keçdi. Dövlətin paytaxı altı dəfə dəyişmiş, Isfahandan Qəzvinə, sonra isə Məşhədə, Şiraza, yenidən Isfahana, nəhayət Tehrana köçürülmüşdü. Mərkəşləşmiş dövlətin parçalanması ilə demək olar ki, müştərək tarixin də parçalanmasının, saxtalaşdırılmasının, bu günkü bəzi ziddiyyətlərin əsası qoyuldu.

## 2. Mərkəzləşmiş dövlətin xanlıqlara parçalanması və bəzi ziddiyyətlərin başlanğıcının qoyulması

Müştərək tarixin obyektiv öyrənilməmiş səhifələrindən biri də Nadir şahın ölümündən sonra mərkəzləşmiş dövlətin xanlıqlara parçalanması, Qacarların mərkəzləşmiş dövləti yenidən bərpa etmək cəhdləri və bu məqsədlə bir sıra ərazilərə, o cümlədən Qarabağa və Gürcüstana yürüşləri və s. məsələlərdir. Azərbaycan tarixşünaslığında bu məsələyə aid bir sıra kitablar nəşr olunsa da problemin obyektiv tədqiqi aktual olaraq qalır.

Çar Rusiyası və Sovet hakimiyyəti illərində olduğu kimi Ağa Məhəmməd Qacara və onun qardaşı nəvəsi vəliəhd Abbas Mizəyə qarşı düşmən münasibətin bu gün eynilə təkrarlanması, onların müasir dövrdə də işğalçı adlandırılması tarixi saxtakarlıqdan başqa bir şey deyildir. Tarixi ədaləti bərpa etmək üçün bir çox suallara oöyektiv cavablar verilməsinə ehtiyac var: Qacarlar kimdir? Nəyə görə Ağa Məhəmməd Şah Qacar digər xanlıqlar üzərinə deyil məhz Qarabağ xanlığının və Gürcüstanın üzərinə hücuma keçmişdir? Doğurdamı Qacarlar Azərbaycana düşmən və yadelli idilər? Gəncə xanı Cavad xanı xalqın qəhrəman oğlu hesab etmək, lakin onun müttəfiqi və qan qohumları olan Ağa Məhəmməd Qacarı, Abbas Mirzəni işğalçı adlandırmaq nə dərəcədə düzdür?

Çox təəssüf ki, uzun müddət bu suallar tarnixçiləri maraqlandırmamış və ya bu məsələlərlə maraqlanmaq onlara qadağan edilmişdir. Bu suallara obyektiv cavablar vermək üçün faktlara müracət edək.

Xanlıqlaın əsasını Nadir şahın əmisi oğlu, əfşar tayfasından olan Fətəli xan qoymuşdu. O, bununla kifayətlənməyərək mərkəzləşdirilmiş dövləti bərpa etmək istəyirdi. Nəticədə Urmiya, Təbriz, Xoy, Qaradağ,

Marağa və Sərab xanlıqlarını öz ətrafında birləşdirdi. Bundan sonra o, Gürcüstana hücum edərək II Iraklini məğlub etdi.

Ali hakimiyyət uğrunda mübarizə aparan Iranın qərb və cənubunda məskunlaşmış zənd tayfasının başçısı Kərim xan Zənd də ali hakimiyyət uğrunda mübarizəyə başladı. O, Məhəmmədhəsən xan Qacar və Urmiyalı Fətəli xanla mübarizədə hakimiyyəti ələ ala bildi. Kərim xan Zənd (1750 - 1779) şah titulu qəbul etmədi, vəkil adı ilə ölkənin idarəsinə başladı. Onun 1779 – cu ildə ölüməsi həm sülalə daxilində, həm də qacarlarla hakimiyyət uğrunda mübarizəni qızışdıdı. Kərim xan Zənddən sonra Əbülfət və Məhəmməd Əli (birgə) (1779), Sadiq (Şirazda) (1779 - 1781), Əlimurad (Isfahanda) (1779 - 1785), Cəfər (1785 - 1789), Lütfəli (1789 – 1794) hakimiyyətdə olmuşlar.

Nəhayət Iran taxt – tacı uğrunda gedən mübarizə Qacarların qələbəsi ilə nəticələndi. Bu işdə Məhəmmədhəsən xan Qacarın oğlu Ağa Məhəmməd xan Qacarın böyük əməyi olmuşdur. O, 1792 – ci ildə ildə Lütfəli xanı məğlub edərək Şirazı tutduqdan sonra Iranın hakiminə çevrildi.

1795 – ci ildə Ağa Məhəmməd xan Qacar özünü şah elan etdi. O, Isfahan, Yəzd, Girman və Şrazı tutduqdan sonra əsas məqsədi cənubi Qafqazı mərkəzi hakimiyyətə tabe etməklə parçalanmış dövləti bərpa etmək idi. Yalnız onun hakimiyyətə gəlməsi ilə Iranın cənubi Qafqazın siyasi həyatında rolu möhkəmləndi. Bəs müştərək tarixdə böyük rol oynamış, 1795- 1925 – ci illərdə Iran taxt – tacına sahib olmuş Qacarlar kim idi?

Qacarlar sülaləsinin şəcərə cədbəli aşağıdakı kimi olmuşdur:

Fətəli xan (1721 – 1750), Məhəmməd Həsən xan (1750 – 1770), Hüseynqulu xan (1779) – Mazandaranda tayfa başçıları, Ağa Məhəmməd (1779 – 1797), Fətəli şah ( 1791 – 1834), Məhəmməd şah (1834 – 1848), Nəsrəddin şah (1848 – 1896), Müzəffərəddin şah ( 1896 – 1907), Məhəmməd Əli şah ( 1907 – 1909), Əhməd şah ( 1909 – 1925). 1925 – ci ildə Qacarların hakimiyyəti Rza şah Pəhləvilər tərəfindən devrilmişdir.

Tarixi mənbələrdə qeyd olunur ki, Şah Ismayıl atasının vəfalı dostlarından sayılan Hüseyn bəy lələ, Xadim bəy Xəlifətül – Xüləfa, Rüstəm bəy Qaramanlu, Dədə bəy Talış, Ilyas bəy Uyğuroğlu, Qara Piri bəyə Qacar adlı 7 nəfərin köməyilə böyük müvəffəqiyyətlər qazanmışdır. Buradan belə nəticə çıxarmaq olar ki, Qacarlar Səfəvi dövlətinin yaranmasında fəal iştirak etmiş ən etibarlı tayfalardan biri olmuşdur.

Qacarların soy kökü haqqında Rəşid bəy Ismayılovun "Azərbaycan tarixi" kitabında belə yazılmışdı: "Təqribən yeddi yüz sənə bundan əqdəm Iran səltənəti moğolların əlində olan vaxt, qəsb etdikləri taxt və hakimiyyəti saxlamaq qəsdilə Türkstandan iki yüz min ailə Ağ hun tayfasına mənsub olan "Qayi" türklərini Irana köçürmüşdür.

"Qayi" türklərinin "Qacar", "Əfşar", "Ustad Callı", "Padar" və "Çobanı" qəbilələri Iranın müqəddəratında pek böyük nüfuza malik olaraq, mühüm rollar oynamışlar...

Cəlayir türklərinin nəslinə mənsub Qacar türklərini Əmir Teymur Qarabağ, Gəncə və Irəvan vilayətinə köçürdüb, burada yurdlaşmağa bunlara müsaidə etmişdi. Sonra Qacarlar Azərbaycanın sair nöqtələrinə dəxi dağılıb, " Qacar" və "Qacarlı" adlı köylər abad etmişlər.

Hülaku silsiləsinə mənsub Arqun xanın müəllimi olan Xorasan və Astarabad hakimi Sirtaq Nuyan xanın oğlunun adı "Qacar" imiş. Qacarın adı ilə kendi qəbiləsi dəxi adlanmışdır."

Qacarların Iran və Azərbaycanın tarixində oynadığı rol haqqında müəllif daha sonra yazır: "Ağa Məhəmməd xan hal – hazırda Iranda səltənət edən Qacar silsiləsinin ilk tacidarı və müəssisi idi. Dağıstan ləzgiləri Gəncə, Erivan və Qarabağ əhalisini indiyədək "Qacar" deyə adlandırırlar. Qacarlar ən əvvəl Gəncənin yaxınlığında olan Şimku yurdunda sakin olublar. Burada Qacarların "Mehdibəyli" adlanan yurdlarının xarabası və əkdikləri çinar ağacları indiyədək qalmışdır.

Şah Abbas Qarabağdan bir kaç bin Qacar türklərindən köçürdüb, Mazandaranda və Astarabadda sakin etdi. Ağa Məhəmməd xan Astarabadda sakin olan Qacarlara mənsubdur."(39)

N. A. Kuznetsovanın kitabında isə bu məsələ belə şərh olunur: "I Şah Abbas XVII əsrin başlanğıcında qızılbaşların gücünü azaltmaq məqsədilə qacarları üç hissəyə bölüb onların birini Xorasanda, başqasını Astarabadda (Qorqan çayı üzərində), üçüncü hissəsini isə Qarabağda, Gürcüstanla sərhəd rayonlarında yerləşdirmişdi. Iranın siyasi həyatında bu qoldan Qorqan qacarları daha fəal mübarizə aparırdılar. Məhəmməd Həsən xan Qacar bu qoldandır." (40)

Bütün bunlar sübut edir ki, qacarlar tayfası və onların nümayəndəsi olan şahlar Azərbaycan üçün yadelli və işğalçı olmamışdır. Onların əsas məqsədləri parçalanmış mərkəzləşmiş dövləti bərpa etməkdən ibarət idi. Bunun üçün onlar cənubi Qafqaz ərazisini öz əsarəti altına salmaq istəyən Rusiyaya qarşı və mərkəzi hakimiyyətə tabe olmaq istəməyən, bunun üçün də özünə kənardan mütəffiq axtaran xanlara qarşı mübarizə aparmışlar.

Səfəvilər dövründə Qarabağ, Gəncə və Astarabad Qacarlar tayfasından olan əmirlər tərəfindən idarə olunması, 1579 – cu ildə Şirvanı Osmanlıların yeni hücumlarından qorumaq üçün Peykər xan Ziyadoğlu Qacar bura bəylərbəyi təyin edilməsi və s. faktlar göstərir ki, Ağa Məhəmməd Şah Qacarın cənubi Qafqaza hücumunu sovet tarixşünaslığında qeyd olunduğu kimi "yadelli qoşunların işğalçı yürüşü" kimi qiymətləndirmək kökündən səhvdir. Çünki hər şeydən əvvəl Qacarlar yadelli deyil bu torpağın, bu vətənin övladları idilər. Bundan başqa bu hücumlarda əsas məqsəd hansısa yad, xarici torpaqları işğal

etmək yox, əvvəllər mərkəzləşmiş dövlətin hakimiyyəti altında olmuş, lakin sonradan xanlıqlara parçalanmış əraziləri yenidən mərkəzləşmiş hakimiyyətə tabe etməkdən ibarət idi.

Mərkəzləşmiş dövlət parçalandıqdan sonra Azərbaycan ərazisində 19 xanlıq əmələ gəlmişdir. Bunlar aşağıdakılardır:

Xoy (XVIII əsrin ortaları – sonları), Maku (XVIII əsrin ortaları – 1922), Qaradağ (XVIII əsrin 40 – cı illəri – XIX əsrin əvvəlləri), Təbriz (XVIII əsrin 40 – cı illəri – 80 – ci illər), Marağa (XVIII əsrin 40 – cı illəri – XIX əsrin 20 – ci illəri)), Ərdəbil (XVIII əsrin 40 – cı illəri – XIX əsrin əvvəlləri), Sərab (XVIII əsrin 40 – cı illəri – XIX əsri əvvəlləri), Gəncə (XVIII əsrin 40 –cı illəri – 1804 – cü il), Qarabağ (XVIII əsrin 40 –cı illəri – 1822 – ci il), Şəki (XVIII əsrin 40 –cı illəri – 1819 – cu il), Şamaxı (XVIII əsrin 40 – cı illəri – 1820 – ci il),Quba (XVIII əsrin 40 –cı illəri – 1806 – cı il), Dərbənd (XVIII əsrin 40 –cı illəri – 1806 – cı il), Bakı (XVIII əsrin 40 –cı illəri – 1806 – cı il), Cavad (XVIII əsrin 40 – cı illəri – 1768 – ci il), Salyan (XVIII əsrin 40 – cı illəri – 1757 – ci il), Talış (XVIII əsrin 40 –cı illəri – 1820 – ci il), Naxçıvan (XVIII əsrin 40 – cı illəri – 1828 – ci il), Irəvan (XVIII əsrin 40 –cı illəri – 1827 – ci il)




Xanlıqlardan başqa müstəqil Qutqaşen, Qəbələ, Ərəş, Ilisu, Qazax – Şəmsəddin Sultanlıqları və Qarabağ xanlığının ərazisində beş məliklik var idi. Mərkəzləşmiş dövlətin parçalanması nəticəsində yaranmış xanlıqların mənşəyinin və məqsədlərinin obyektiv tədqiqi hazırki elmi ədəbiyyatda mövcud olan bir sıra yanlışlıqların aradan qaldırılmasına kömək göstərə bilər.

Azərbaycan xanlıqlarını Ağa Məhəmməd Şah Qacara münasibətinə görə üç qrupa bölmək olar. Birinci qrupa onun tərəfini saxlayanlar: gəncəli Cavad xan, şəkili Məhəmmədhəsən xan və qubalı Şeyxəli xan daxil idi. Ikinci qrupu Ağa Məhəmməd şaha düşmən münasibət bəsləyən Qarabağ, Şamaxı və Talış xanlıqları təmsil edirdi.

Bakı xanı Hüsenqulu xan isə Ağa Məhəmməd şahın tərəfdarları ilə düşmənləri arasında tərəddüd edirdi. Xanlıqların bu cür qruplaşması təsadüfü olmayıb xanların siyasi məqsədlərini ifadə edirdi. Gəncəli Cavad xan Ağa Məhəmməd şahın köməyilə Ibrahim xanın təzyiqindən xilas olacağına və Gəncə xanlığının əraziləri olmuş Qarabağ, Qazax – Şəmsəddin və Borçalı ərazilərinin geri qaytaracağına ümid edirdi. Şeyxəli xan isə Şirvanda hakimiyyətə nail olacağına ümid bəsləyirdi. Bakı xanının mövqeyi isə Şeyxəli xanın onun torpaqlarına qarşı iddiası ilə bağlı idi.

Ağa Məhəmməd Qacar 1795 – ci ildə Naxçıvan xanlığını, həmin ildə 35 günlük mühasirədən sonra Irəvan qalasını tutdu. Buna qədər Naxçıvan və Irəvan xanlıqları müxtəlif ara müharibələr meydanına çevrilmişdi. Qarabağ, Xoy xanlıqları və Gürcüstan Naxçıvanı öz təsir dairəsinə salmaq uğrunda mübarizə aparırdı. Irəvan xanlığına qarşı Kartli Kaxetiya çarı II Irakli böyük təhlükə yaradırdı və hətta 1780 – ci ildə Hüseynəli xan II Irakliyə ildə 3000 tümən bac verməyə razı olmuşdu. 1789 – cu ildə Bəyazid paşası Irəvana hücum etmişdi. 1790 – cı ildə Irəvan və Naxçıvan qüvvələri Xoy xanlığına hücum etmiş, daha sonra isə Xoy və Naxçıvan qüvvələri Irəvanı tutub 1790 – cı ilin avqustuna kimi orada qalmışdılar. Ağa Məhəmməd Qacarın bu ərazini tutması ilə bu cür ara müharibələrinə bir müddət son qoyuldu.

Lakin xanlıqların Qacara münasibəti sabit olmayıb, hadisələrin gedişində köklü dəyişikliyə məruz qalmışdır. Özünün müstəqilliyni qoruyub saxlamaq naminə Irana düşmən olan xarici dövlətlərin yardımına bel bağlayan bəzi xanlar və ya onların varisləri, sonradan işğalçı rus qoşunlarına qarşı mübarizədə Iranın mütəfiqinə çevrildilər. Bu proseslə yaxından tanış olmaq üçün Azərbaycanda ən güclü xanlıqlardan biri olan Quba xanlığının apardığı siyasətə qısa bir nəzər salmaq vacibdir.

Cənubda mərkəzləşmiş dövlətin bərpası prosesi ilə yanaşı, şimalda da xanlıqları bir mərkəzdə birləşdirilməsi prosesi gedirdi ki, Qubalı Fətəli xan ilk vaxtlar bu işdə təşəbbüsü ələ almışdı.

Azərbaycan tarixinin öyrənilməmiş səhifələrindən biri də Quba ətrafında Azərbaycanda mərkələşmiş dövlətin yaranması cəhdləridir. Bu problemin obyektiv tətdiqi əvvəlki illərdə olduğu kimi bu gün də çox zəruri və aktualdır.

XVIII əsrin əvvəllərində Səfəvi hakimiyyətinin zəifləməsi ilə digər ərazilərdə olduğu kimi, Qubada da üsyan başlamışdı. Üsyana Qubanın Müşkür mahalının Dədəli kəndindən olan Hacı Davud başçılıq edirdi.

Onun məqsədi Şəki, Şirvan və Qubada Şah hakimiyyətini ləğv edib, Şirvan dövlətini bərpa etmək idi.

Rusiya ilə Türkiyə arasında 1724 - cü ildə bağlanmış Istambul müqaviləsinə görə Quba əyaləti Rusiyanın tərkibinə daxil edilmiş, Hüseynəli xan ora hakim təyin olunmuşdu. 1735 - ci il Gəncə müqaviləsi ilə həmin torpaqlar Irana qaytarılmışdı. Bundan az sonra Hüseynəli xan XVIII yüzilliyin 40 - cı illərində müstəqil Quba xanlığını yaratdığını elan etmişdi. Onun hüdudları Azərbaycanın şimal – şərqi, Dərbənd xanlığı, Kürün aşağı axarında olan torpaqları, Şəki, Şamaxı, Bakı xanlıqlarını əhatə edirdi. Mərkəzi Quba şəhəri idi.

Quba xanlığı öz müstəqilliyini elan etdikdən sonra ərazilərini genişləndirməyə başladı və Quba xanının qoşunları 1757- ci ildə Salyanı tutdu.

Hüseynəli xanın oğlu Fətəli xanın dövründə (1758 - 1789) Azərbaycan ərazisinin Quba xanlığının ətrafında birləşdirilməsi siyasəti həyata keçirilmişdi.

Əvvəlcə, Samur çayının sağ sahilindəki torpaqlar–Müşkür, Niyazabad, Şabran və başqa ərazilər, sonra isə 1759–cu ildə Dərbənd xanlığı, 1767–ci ildə Bakı xanlığı, 1768–ci ildə Şamaxı və Cavad xanlıqları Quba xanlığına tabe edildi. Cavad xanlığının tutulması ilə Muğan ərazisi Quba xanlığına birləşdirildi.

Quba xanlığının mərkəzləşmiş dövlət kimi güclənməsi ona ərazi cəhətdən yaxın olan Qarabağ, Şəki, Gəncə xanlıqlarını və Dağıstan hakimlərini narahat etməyə bilməzdi. Onlar Fətəli xanın hakimiyyəti altına düşmək istəmir, ona qarşı müxtəlif planlar hazırlayırdılar.

1774 - cü ildə Xudat yaxınlığındakı Gavduşan çölündə Qarabağ, Şəki xanlıqları və Dağıstan hakimlərinin birləşmiş qüvvələri ilə Quba xanlığı arasında böyük döyüş oldu. Birləşmiş qüvvələr Qubanı və Şamaxını tutdular. Bu zaman Fətəli xan Salyana çəkildiyindən Dərbəndin müdafiəsinə həyat yoldaşı Tuti Bikə rəhbərlik edirdi.

Belə bir çətin vəziyyətdən çıxmaq üçün Fətəli xan diplomatik gedişlər edərək rus qoşunları ilə Quba xanlığı üzərinə hücuma keçmiş qüvvələr arasında mövcud olan düşmənçilikdən məharətlə istifadə etdi. Bu zaman rus qoşunları general I. F. de Medemin komandanlığı ilə akademik S. M. Qmelini öldürmüş Qaytak ismisini (Dağıstan hakimlərindən biri) cəzalandırmaq üçün Dağıstanın cənubuna hücuma keçmişdir. Belə bir məqamdan istifadə edərək 1775 - ci ilin mart ayında Fətəli xan Qubanı azad etdi. O, yaxşı başa düşürdü ki, Azərbaycanda mərkəzləşmiş dövlət yaradılmasına mərkəzləşmiş hakimiyyəti bərpa etməyə çalışan Qacarlar imkan verməyəcəklər. Buna görə də öz müstəqillyni qorumaq üçün ona güclü mütəfiq lazım idi və bu da ona ərazi cəhətdən yaxın olan Rusiya ola bilərdi. Fətəli xan Rusiyanın şimali Qafqaz və Azərbaycanda işğalçı məqsədlərini yaxşı bilirdi və müxtəlif

diplomatik manevrlər etməklə Qubanın müstəqilliyini qorumağa çalışırdı. Fətəli xan öz məqsədinə çatmaq üçün Rusiya ilə Iran arasında olan ziddiyyətlərdən də istifadə edirdi.

Fətəli xan 1775 - ci ilin yazında Dərbənd hakimi Mirzəbəy Bayat (Fərhadbəyli) başda olmaqla rus sarayına elçilər göndərərək Quba xanlığının müstəqilliyini saxlamaq şərti ilə Rusiyanın himayəsi altına keçməsi təklifini irəli sürdü. Elçilər iyulun 6 – da Moskvaya gedib Fətəli xanın məktubunu rus çarisasına təqdim etdilər. Fətəli xan Quba xanlığının statusunu Gürcüstan və Krımla eyniləşdirməyə çalışırdı. Lakin II Yekaterina Quba xanlığının müstəqilliyni qəbul etməkdən imtina etdi.

1782 - ci ildə Quba xanlığı ilə Rusiya arasında ticarət müqaviləsi imzalandı. Fətəli xan 1780 - 1781- cü illərdə Qarabağ xanlığını da öz hakimiyyəti altına salmaq uğrunda mübarizəyə başladı, lakin həmin əraziləri tuta bilmədi. Bundan sonra Fətəli xan cənub istiqamətində yürüş etdi və 1784 - cü ilin avqustunda Ərdəbil və Meşkin ərazilərini tutdu. Bundan sonra Quba xanlığının güclənməsi artıq Rusiyanı da narahat etməyə başladı. Çar Rusiyası Fətəli xandan tutduğu yeni əraziləri tərk etməyi tələb etdi. Bu tələb yerinə yetirildi.

1787- ci ilin yanvarında Fətəli xan ona qarşı çıxan Ibrahim xana qalib gəldi. Lakin Qarabağ xanlığının ərazisinə girib irəliləyə bilmədi. Bundan sonra ikinci dəfə eyni şərtlərlə Rusiyaının himayəsinə keçmək üçün müraciət etdi. Rusiya Türkiyə ilə müharibə apardığından (1787-1791) bu dəfə də təklifi qəbul etmədi. Həmin il Fətəli xanla Gürcü çarı II Irakli arasında cənub istiqamətində yürüş etmək haqqında 1788 - ci ildə əldə edilmiş razılığın həyata keçməsinə Fətəli xanın 1789 - cu ildə qəfil ölümü imkan vermədi.

Abasqulu Ağa Bakıxanov onun ölümü haqqında yazır: "...Bütün istiqlal və ehtişam vasitəsinə malik olan Fətəli xan Azərbaycan və bəlkə də, bütün Iran işlərini nizama qoymaq xəyali ilə Gürcüstan valisi Irakli xanla görüşüb məsləhətləşmək binasını qoydu... Fətəli xan cah və cəlalla Nuxu şəhərinə getdi. Bir neçə gün qonaqlıq və şadlıqla keçirib Gəncəyə yola düşdü. Cavad xan ibn Şahverdi xan Ziyadoğlu Qacar ölkənin bütün əyanı ilə bərabər Kür çayının kənarında onu pişvaz edib qalanın qapılarını üzünə açdı. Fətəli xan da Cavad xanın əlindən çıxmış Şəmsəddinli mahalını Gürcüstan valisindən alıb ona qaytardı.

Xülası, yüksək mərtəbəli iki vali Şəmkir yaxınlığında bir–birilə görüşdülər... Geri qayıtdığı zaman Fətəli xan şiddətli bir qızdırmaya tutuldu. Xəstəliyi gündən – günə şiddətləndi. Buna görə sürətlə Şirvana, buradan da Bakıya, bacısının yanına getdi. Hicri 1203 (1789)- cü ilin mart ayının 22- də, 53 yaşında vəfat etdi." (41)

Ehtimal olunur ki, Fətəli xan Gəncədə onun şərəfinə verilmiş ziyafətlərin birində gec təsir edən zəhərlə zəhərləmişdir.

Fətəli xanın ölmü ilə vəziyyət dəyişdi, Quba xanlığının tərkibinə daxil edilmiş xanlıqlar ondan ayrılmağa başladılar.Fətəli xandan sonra hakimiyyətə gələn oğlu Əhməd xanın qısa xanlıq dövründə yalnız Dərbənd xanlığı onun tabeliyində qalmaqda idi. Dərbənd xanlığı 1796 - cı ildə ruslar tərəfindən işğal edildikdən sonra xanlıq Fətəli xanın qızı Pəricahan Bikə tərəfindən idarə olunmuşdur.

1791 – ci ildən Qubada hakimiyyətə gəlmiş Şeyxəli xan əvvəlki siyasəti kökündən dəyişərək Ağa Məhəmməd şah Qacarla dostluq əlaqələri yaratmış, onun müttəfiqinə çevrilmişdi.

Rus qoşunları 1806-cı ildə Quba xanlığını işğal edib, xanlığı ləğv etdi. Lakin buna baxmayaraq, Qubalı Şeyxəli xan uzun müddət işğalçılara qarşı mübarizəni qətiyyətlə davam etdirdi.

Quba xanlığının tarixinin bu qısa təhlili göstərir ki, Iranda bərpa olunmuş mərkəzləşmiş hakimiyyətə əvvəllər öz şəxsi xanlıq mənafeyinə görə münasibəti müsbət olmayan xanların əksəriyyəti rus təhlükəsini hiss etdikcə və çar qoşunlarının vəhşiliklərini gördükcə son pənah yeri kimi yenə də Iranı görür və ondan kömək umurdular.

Qacarın Qarabağ və Tiflis üzərinə hücumu uzun zaman elmi ədəbiyyatda yadelli işğalçının hücumu kimi qiymətləndirilmiş, Səməd Vurğunun "Vaqif" dramı ilə bu fikir daha da möhkəmləndirilmişdir. Təəccüblüsü budur ki, bütün bu kitab və məqalələr kommunist rejiminin tələblərinə uyğun, kommunist partiyasının göstərişlərinə əsasən yazılmasına baxmayaraq müasir dövrdə həmin səhvlər təkrarlanmaqdadır.

Bəs nəyə görə tarixi ədəbiyyatda Qacarın mərkəzləşmiş dövlətin bərpası üçün etdiyi yürüşlərin əsil mahiyyəti gizlədilmiş və bu gün də tarixi həqiqət bərpa olunmur? Bu hücumun Iranın Azərbaycana qarşı təcavüzü kimi təqdim olunması müasir dövrdə iki dövlət arasında münasibətlərin inkişafına mənfi təsir göstərir.

Sual oluna bilər ki, doğrudan da Qacarın məqsədi Azərbaycana qarşı təcavüz idisə bu hücum nəyə görə bütün xanlıqlara qarşı deyil, yalnız bir neçə xanlığa qarşı çevrilmişdi. Məsələnin mahiyyəti ilə yaxından tanış olduqda bunun səbəbəlrini üzə çıxarmaq mümkündür. Bunun əsas səbəbi xanlıqların bir hissəsi Qacarı özünə müttəfiq hesab edirdisə, digərləri isə müstəqil siyasət yeridərək Qacarın mərkəzləşmiş hakimiyyətinə tabe olmaq istəmir, əlacsızlıqdan Rusiya ilə yaxınlaşmağa üstünlük verirdilər. Qarabağ xanlığına qarşı hücumun mahiyyətində isə mərkəzləşmiş dövləti bərpa etmək, əvvəllər Gəncə xanlığının tabeçiliyndə olmuş torpaqlarda Cavad Xan Ziyadoğlu Qacarın hüquqlarının bərpası dur累du.

Rusiya ilə Gəncə xanlığı arasında baş vermiş müharibə I Rus – Iran müharibəsi ərəfəsi cənub Qafqazda baş vermiş ən qanlı hərbi əməliyyat hesab olunur. Iki erməni təxribatçısının məlumatına əsasən general - mayor Lazarev Sisyanova yazırdı: " … Gəncə erməniləri rus ordusunun

Gəncəyə gəlməsini səbirsizliklə gözləyirlər. Çünki müsəlman dininin bütün qanunları onları sıxışdırmaqla hədələyir." Bu cür qəsdən uydurulmuş yalanlarla ruslar öz işğalçı siyasətlərinə haqq qazandırmağa və yerli əhalini əsarət altına almaq üçün ideoloji baza yaratmağa çalışırdılar.

Rus qoşunlarının Gəncəni işğal etməsi planlarını düzgün başa düşmək üçün Rusiyanın strateji cəhətdən əlverişli ərazi olan cənubi Qafqaza, o cümlədən Azərbaycana qarşı əvvəlki illərdə yeritdiyi işğalçı siyasətə qısa bir nəzər salınmmasına ehtiyac var.

Rusların Azərbaycana ilk gəlişi təxminən IX yüzilliyin sonlarına təsadüf edir. Həmin dövrdə ruslar gəmilərlə Volqa çayı və Xəzər dənizi vastəsilə Azərbaycanna gəlirdilər. 909 – cu ildə onlar 16 gəmi ilə Xəzərə daxil olmuş və dənizin cənub sahillərini qarət etməyə başlamışlar. Bir qədər sonra daha artıq canlı qüvvə ilə onlar həmin ərazilərə basqın edərək Sarı adasını(Sara) və sahil məntəqələrini qarət edərək yandırmışlar. Lakin tezliklə Şirvanşahlar tərəfindən darmadağın edilərək geri qayıtmağa məcbur olmuşlar.

914 – cü ildə rusların Xəzərin Azərbaycan sahillərinə hər birində 100 döyüşçü olan 500 gəmi ilə daha bir yürüşü olmuşdu. 50 min nəfərlik rus ordusu Pirallahı, Sahilan (Şəhilan), Zirə (Qumzirə), Kiçik Zirə, Böyük Zirə, Zənbilə (Duvannı), Xirə, Sarı adalarında mövqe tutaraq sahil məntəqələrinin əhalisini qarət etmişlər.

944 – cü ildə ruslar "Arranın baş şəhəri" olan Bərdəni ələ keçirmək üçün yeni yürüşə başladılar. Onlar Kür çayı vasitəsilə Mübarəki adlanan yerdə mövqe tutaraq Bərdəyə hücum etdilər. Salarilər dövlətinin tərkibində olan Bərdə hakimi 50 mindən artıq işğalçı qoşununa müqavimət göstərə bilmədiyinə görə Bərdə ruslar tərəfindən zəbt olundu. Tarixi mənbələrdə göstərilir ki, ruslar burada 20.000 nəfərə qədər adam öldürmüş və şəhəri tamamilə dağıtmışlar. Bir qədər sonra Salari qoşunları Bərdəni mühasirəyə alaraq şəhəri ruslardan təmizləmişlər. Yolxucu xəstəliklərdən qırılmağa başlayan ruslar təcili surətdə Azərbaycanı tərk etmişlər.

987 – ci ildə ruslar Dərbəndə, 1030 – cu ildə isə 38 gəmi ilə Kürlə Arazın qovuşduğu ərazilərə hücum etmişlər.

1032 – 1033 – cu illərdə ruslar Şamaxını tutaraq talan etmiş və 10.000 nəfərə qədər əhalini qılıncdan keçirmişlər.

Sonralar əsasən I Pyotrun hakimiyyət illərində rusların Azərbaycana yeni yürüşləri baş vermişdi. 1722 – ci il iyulun 18 - də 274 kiçik gəmi ilə onlar Xəzər dənizinə çıxmışlar. I Pyotrun özü də donanmanın tərkibndə olmuşdu. Dərbənd hakimi Imamqulu bəy qalanı döyüşsüz təslim etdiyinə görə rus çarı ona general – mayor rütbəsi, xan titulu vermişdi.

Iyunun 18 – dən 26 – sına qədər gedən gərgin döyüşlərdən sonra Bakı ruslar tərəfindən işğal olundu. Sentyabrın 3 – də I Pyotr Peterburqda Bakının alınmasını təntənə ilə bayram etdi.

1796 – ci ildə V. Zubovun komandanlığı ilə ruslar yenidən Dərbənd və Gəncəyə hücum etdilər. Onlar Dərbəndi, Qubanı tutduqdan sonra iyunun 13 – də Bakını yenidən işğal etdilər.

1796 – cı ilin noyabrında II Yekatrinanın ölümündən sonra hakimiyyətə gəlmiş I Pavel rus qoşunlarını Qafqazdan geri çağırdı. Zubov istefaya göndərildi, onun yerini yenidən qraf Qudoviç tutdu.

I Pavelin xeyli ərazi işğal etmiş rus qoşunlarını geri çağırmasının səbəbi bir tərəfdən böyük xərclər (1.700 min rubl), digər tərəfdən Avropada vəziyyətin mürəkkəbliyilə izah edilir. Burada yerli xalqların işğalçı rus qoşunlarına münasibəti, hakimiyyətdən devrilmiş xanların fəaliyyəti, Iranda Ağa Məhəmməd şahın güclənməsi də öz təsirini göstərmişdi.

Rus qoşunları dekabr ayından Azərbaycandan çıxarılmağa başlandı və bu 1797 – ci ilin yazınadək davam etdi. "Qızılayaq yaranal" (ayağının biri qızıl protez idi) Zubovun müsəlman əhaliyə qarşı ayrı – seçkilik, ermənilərə arxalanmaqla güclü xristian dövləti yaratmaq planı da rus qoşunlarına yerli əhalinin nifrəti artırmış və onların Azərbaycandan çıxarılmasını sürətləndirmişdi.

I Pavel 1801 – ci ilin yanvarında Gürcüstan çarlığının rusiyaya birləşdirilməsi haqqında manifest verdi. O sui – qəsd nəticəsində öldürüldükdən sonra atasının yerinə hakimiyyətə gəlmiş I Aleksandırın (1801 – 1825) dövründə ruslar cənubi Qafqazla bağlı işğalçılıq planlarını yenidən həyata keçirməyə başladı. P. D. Sisianovun Qafqaza baş komandan göndərilməsi ilə bu iş daha da sürətləndi.

1802 – ci ildən Qafqazdakı rus qoşunlarının baş komandanı P. Sisianovun Gəncə üzərinə hücum ərəfəsi Cavad xana göndərdiyi məktublar rus imperiyasının işğalçı, müstəmləkə siyasətinin bariz nümunələridir. Bu məktublar "Qafqaz arxeologiya komissiyası aktları"nın 1868 – ci ildə Tiflisdə nəşr olunmuş ikinci cildində nəşr olunmuşdur. Bu cür kitablar çar Rusiyasının xarici siyasətinə haq qazandırmaq məqsədilə nəşr olunduğuna görə buradakı məlumatlara tənqidi yanaşılmasına ehtiyac var. Lakin məktubların orjinalı ilə tanış olmaq imkanımız olmadığına görə bu kitaba istinad etmək məcburiyyətindəyik. Məktublar o dövrə məxsus müxtəlif təriflərlə, xoş sözlərlə dolu cümlələrlə tərtib olunmasına baxmayraq bu sənədlərdə çar Rusiyasının işğalçı siyasətini açıq aydın görmək olur.

P. Sisianovun Cavad xana yeddi məktub göndərmişdir. Birinci məktub Tiflisdə 25 fevral 1803 – cü ildə yazılmışdı. Məktubda deyilir:

"Hörmətli məmurunuz Gürgün bəylə göndərdiyiniz məktubu aldım. Orada Sizin dinc, müttəfiq və dostcasına qonşuluq əlaqələri

saxlamaq meylinizi gördüm. Bu sözləri sidq – ürəklə yazıldığını qəbul edərək Sizin şəxsi rifahınız üçün qəlbən sevinir və yenilməz qalacaq bu rifahınız münasibətilə Sizi təbrik edirəm. Zira Sizi və sizin xalqı... lütfükar rus imperatoru öz himayəsinə götürür. Sizin etimadınızın qarşılıqlı keçəcəyinə təbəəliyinizin Gürcüstanla əlaqəli bütün işlərində şahid olacaqsınız. Gürcüstanda, eləcə də sərhəd qoşunları ilə bağlı hər hansı bir məsələ Sizin rəyinizlə, yalnız Sizin icazəniz... alınandan sonra qəti və qanuni qaydada yoluna qoyulacaqdır. Çünki əlahəzrət hökümdarım məndən bunu tələb edir. Lakin Sizin şərafətli etimadınızın... ən gözəl zəmanəti o olardı ki, xahişimizi nəzərə alaraq yüksək mənsəbli böyük oğlunuz Uğurlu ağanı əmanət kimi Tiflisə göndərəydiz. O, burada ləyaqətinə və mənsəbinə müvafiq etiram və hörmət sahibi olacaqdır. Bu təmənnam yerinə yetirilsə, onu Gəncə ilə Gürcüstan arasında heç bir ayrı – seçkiliyin olmayacağı barədə xeyirxah vədinizin əməli timsalı kimi qəbul edəcəyəm. Bundan əlavə, Sizin ucalığınıza bəslədiyim dostcasına münasibətimin kiçik rəmzi kimi mehriban Gürgün bəylə hər biri on arşınlıq məxmər və atlas hədiyyə göndərir və həmişə qulluğunuzda hazır olduğumu bildirirəm."

Şamxorda yazılmış 29 noyabr 1803 – cü il tarixli ikinci məktubda birinci məktubdakı diplomatik etiket qaydalarına uyğun işlədilmiş xoş sözlər yoxdur. Bunun əvəzinə ultimatum və hədələrlə dolu ciümlələr var ki, bu da rus qoşununu əsil məqsədlərinin işğalçılıq olduğunu sübut edir. Məktubda deyilir: "Gəncə torpağına qədəm basıb bu gəlişimin səbəblərini Sizə bildirirəm. Birincisi və başlıcası: Gəncə və onun ətrafı şahzadə Tamaranın hakimiyyəti dövründə Gürcüstana mənsub idi, sonra Gürcüstan çarlarının zəifliyi üzündən ondan ayrılıb. Ümumrusiya imperiyası isə indi Gürcüstanı özünün hər şeyə qabil himayəsi altına aldığından onun parçalanmasına biganə qala bilməz. Allahın gücü və qüdrəti sayəsində yaranmış rus imperiyası heç vəclə Gürcüstanın ayrılmaz bir parçası olan Gəncəni yadların əlində qoymaz.

Ikincisi: Gürcüstana gələrkən yazdığım məktubuma (həmin məktubda oğlunuzu əmanət kimi verməyi təklif etmişdim) yolladığınız cavabda yazırsınız ki, Iran padşahından ehtiyat edirsiniz. Lakin unudursunuz ki, altı il bundan əvvəl Siz Rusiyanın tabeliyindəydiniz və Gəncə qalasında şöhrətli Ümumrusiya ordusu dururdu.

Üçüncüsü: Adamlarınızın qarət etdikləri Tiflis tacirləri Sizin uca həşəmətiniz tərəfindən razı salınmamışdır.

Həmin üç səbəbə görə də mən öz ordumla gəlmişəm ki, şəhərinizi Avropa adəti üzrə tutum. Basqına, insan qanı tökməyə başlamazdan əvvəl etiqadıma və məzhəbimə görə təklif etməliyəm ki, şəhəri dava – dalaşsız təhvil verəsiniz. Sizdən ikicə söz tələb edirəm. Birin seçin: "hə", yaxud "yox". Yəni təslim olursuz, ya yox? Yəqin məlumdur ki, belə pis havada ordu götürüb buralara gəlmişiksə, deməli, innən belə heç bir müqavilə

bağlanıla bilməz. Buna görə də Sizin təslim olmağınızı qabaqcadan müəyyən etmişəm və yalnız onda mənim lütfükar padşahımın sonsuz şəfqət və mərhəmətini görəcəksiz.

Yox, imtina etsəniz, bəxtinizdən küsün. Vaxtilə Izmayıl, Varşava və bir çox digər şəhərlərin aqibəti belə olmuşdu. Sabah günortayadək cavab almasam, od – alov yağacaq. Gəncəyə qılınc və atəş gətirmişəm. Onda görəcəksiniz ki, sözümün üstündə necə dura bilirəm."

Sisianovun məktubuna cavab olaraq Cavad xan 1803 – cü il 29 noyabrda ona aşağıdakı məktubu göndərmişdir: "Məktubunu aldım. Yazırsan ki, şahzadə Tamaranın dövründə Gəncə Gürcüstandan asılı olmuşdur… Bu rəvayətə heç kim inanmaz. Lakin əcdadlarımız Abbasqulu xan və başqaları Gürcüstanı idarə edirdilər. Əgər inanmırsansa, yerli qocalardan soruş. Hələ indiyədək Gürcüstanda onun məscid və dükanları qalır, bir çox gürcüdə əmrləri mühafizə edilir. Iraklinin və atamızın dövründə Gəncə və Gürcüstanın sərhədləri dəqiqləşdirilib. Bununla belə, əgər desəm ki, ata – babalarım Gürcüstanda vali olublar, heç kim buna yaxşı baxmaz və heç kəs də Gürcüstanı mənə qaytarmaz.

Bir də yazırsan ki, altı il bundan əvvəl Gəncə qalasını rus padşahına vermisən. Bu doğrudur. Onda sizin padşah mənə fərman göndərmişdi və mən onun təklifini qəbul etdim. Əgər indi belə bir fərman varsa, mənə göstər. Palşahın iradəsini bilsəm, götür – qoy edərəm.

Bir də yazırsan ki, guya əvvəllər mən Gürcüstan tabeliyində olmuşam. Padşahın fərmanı indi də əlimdədir. Bax, gör, orada mən necə adlanıram: Gəncə bəylərbəyi, yaxud Gürcüstan vassalı? Buradan aydın olur ki, sözlərin tam yalandır.

Bundan başqa, Gəncəni sənin padşahına verəndə Iran şahı Xorasanda idi və əlim ona çatmadığı üçün mən də böyük müstəbid kimi rus padşahına tabe olmağı lazım bildim. Indi isə Allaha şükür, Iran şahı yaxınlıqdadır, onun göndərdiyi baş komandan artıq burdadır. Əsgərlər də gəlirlər…

Müharibə etmək niyyətindəsənsə, mən hazır! Əgər öz toplarınla öyünürsənsə, mənimkilər ondan heç də geri qalmır, sizdə top lüləsinin uzunluğu bir arşındırsa, bizdə 3 – 4 arşındır, uğur isə allahın əlindədir. Haradan bilirsən ki, döyüşçüləriniz Iran əsgərlərindən qoçaqdırlar? Siz yalnız öz savaşınızı görmüsüz, iranlıların hünərindən isə xəbərsizsiz. Mənə müharibəyə hazır olmağı təklif edirsən? Sən Şəmşəddilə girən gündən müharibəyə hazıram. Savaşmaq istəyirsənsə, savaşaq. Hədələyirsən ki, təklifini qəbul etməsəm, bəlaya düçar olaram. Əslində bədbəxtlik səni Peterburqdan izləyə – izləyə bura çəkib gətirib. Bunu zaman, bir də savaş göstərəcək".

Cavad xanın cavabından bir gün sonra, yəni 30 noyabr 1803 – cü il tarixdə Sisianov işğal etdiyi Şamxor ərazisindən Gəncə ermənilərinə

müraciət qəbul etdi. Müraciətdə deyilirdi: "Qalib Ümumrusiya ordusu ilə Gəncə torpağına daxil olarkən, hamınızı lütfükar rus hökümdarının adından əmin edirəm ki, Ümumrusiya taxt – tacının müdafiəsi üçün qalxan hər kəs özünün və əmlakının təhlükəsizliyinə tam təminat alacaq, müsəlmanların soyğunçuluğundan, hər cür təqib və sıxışdırmalardan canınız qurtaracaq, sizə Gürcüstanın hər hansı bir guşəsində rus dövlətinin sakini kimi asudə yaşamaq hüquq veriləcəkdir".

Bu müraciətdən sonra Sisianov Cavad xana daha beş, 9, 11, 26, 28 və 29 dekabr 1803 – cü il tarixli məktublar ünvanlanmışdı və hər növbəti məktubda yekəxanalıq, hədə – qorxu, diplomatik qaydalara uyğun olmayan təhqiramiz fikirlər daha kəskin şəkildə irəli sürülürdü.

9 dekabr 1803 – cü il tarixli məktubda deyilirdi: "Həşəmətli Ümumrusiya ordusunun generalı, Gürcüstan, Həştərxan və Qafqazın baş komandanı, Xəzər donanmasının rəisi, bir çox ordenləri olan knyaz Sisyanov, Avropa adəti üzrə Siz zati – alidən, Gəncə xanı Cavad xandan bir daha soruşur: qalanı rus ordusu rəisinin ixtiyarına təslim edirsiniz, ya yox? Cavab sabah səhər tezdən təcili gəlməlidir və qasid öz əmin – amanlığı naminə əlində ağ yaylıq tutmalıdır".

Bu məktubdan iki gün sonra, yəni 11 dekabrda göndərilmiş məktubda Gəncənin təslim edilməsi tələbi daha sərt qoyulmuşdu: "Knyaz Sisianov əlahəzrət Cavad xana bildirir ki, onun məktubunu alıb, ona heç bir qeyd – şərt qoymur, lakin səmimi – qəlbdən məsləhət görür, sabah lütfükar padşahın təntənəli günüdür və zati – ali həmin gün şəhərin açarını öz oğlu Hüseynqulu ağa ilə mütləq göndərsin. Şəhərin rus ordusu rəisinə təslim edilməsi əlaməti kimi Hüseynqulu ağa əmanət saxlanmalıdır. Onda Cavad xan Gəncəli mərhəmətli padşahımızın xoşbəxtlik və firavanlıq səltənətinə düşəcəkdir. Yox, əgər bu tələb sabah naharadək yerinə yetirilməsə, savaş qızışacaq. Bunu görmək nə qədər ağır da olsa, rus ordusunun rəisi ulu Allaha and içir ki, qan su yerinə axacaqdır."

26 dekabr1803 – cü il tarixli məktubda deyilir: " Zati – ali Cavab xan Gəncəlidən aldığım məktubda o, qazaxlı Məhmədi çaydan bəri taya keçməyini xahiş edir. Qazaxda nə çoxdu Məhməd. Ona məhz hansı Məhmədin lazım olması bilinmir. Bununla belə, rus ordusu generalının ona olan tələbi məlumdur. Məktubun içində həmin tələbə cavab hökmən olmalıydı. Dünyada kim eşidib ki, rus qoşunu qalaya gəlsin, lakin onu ələ keçirmədən çıxıb getsin? Təslim olanları bağışlayıram. Lovğaları isə qanlarına qəltan edəcəyəm. Allah göstərəcək ki, Gəncə kimin əlində qalacaq".

28 dekbr 1803 – cü il tarixli məktub: "… Mən öz etiqadıma görə Asiya məğrurluğuna nifrət edirəm. Sel kimi axacaq insan qanı vicdanımı ağrıtmasın deyə, Sizə təkidlə bildirirəm: Avropa adətləri mühasirədə olanları barışmağa çağırmağa imkan verir. Müəyyən vaxt ayrılır ki, onlar

ağıllarını başlarına yığsınlar, qasidlər şərtləri tərəflərə yetirirlər. Onlar ya qəbul, ya da rədd olunur. Həmin vaxt keçəndən sonra ya savaş başlanır, ya da müəyyən şərtlərlə şəhər təslim edilir. Biz dörd qalanı belə almışıq. Allah görür ki, qan – qadaya mənmi baisəm, yoxsa sən? Bu məktubuma elə bu gün cavab verilməlidir".

Hədə ilə dolu bu məktuba Cavad xan həmin gün aşağıdakı cavabı vermişdi: "Nə hədlə belə danışırsan, mən ki, sənə tabe deyiləm. "Elə bu gün cavab ver!" Bu, nə deməkdir? Heç nökərlə də belə rəftar etməzlər, həddini bil. Məktubu haçan istəsəm, onda yollayaram. Bu bir! O ki, qaldı şəhərin təhvil verilməsinə, xam xəyaldan əl çək, Gəncəyə yalız meyidimin üstündən keçə bilərsən. Bildin? Mən öləndən sonra. Özgə cür yox!"

Cavab məktubundan sonra Sisianovun Cavad xana sonuncu, 29 dekabr 1803 – cü il tarixli məktubu unvanlamışdı: "Qalanı xoşluqla vermək meylinizin olmadığını görüb axırıncı dəfə təslim şərtlərini Sizə göndərməyi özümə borc bilirəm… Məktubuma təcili cavab istəməyim isə heç də o demək deyildir ki, mən düşmənimi nökər, qul hesab edirəm. Bu, ona görədir ki, insanlar arasındakı qarşılıqlı hörmətə riayət olunmalıdır: yəni mən Sizin məktubunuza həmin gün cavab verirəmsə, əvəzində Siz də belə hərəkət etməlisiniz. Buna görə də ümidvaram ki… sabah günortadan qabaq məktubumun cavabını ala biləcəyəm."

Məktubda daha sonra təslim şərtləri irəli sürülür: "Gəncə şəhərinin təslimi aşağıdakı maddəlrə görə qəbul edilə bilər:

1.Cavad xan Gəncəli tabeliyindəki bütün əhali ilə birgə Ümumrusiya padşahının təbəəliyinə and içir;

2. Qala tamamilə təmizlənir və ora rus qoşununun topları, hərbi sursatı yerləşdirilir;

3. Cavad xan Gəncəli Rusiya imperiyasının tabeliyində olaraq əvvəlki ixtiyarla öz ərazisini idarə edir və Rusiyaya ildə 20 min manat xərac verir. Bu maddələri imzalayan zaman 1804 – cü ildə həmin məbləği təcili ödəyir;

4. Qaladakı və Şəmşəddil yolundakı ordunu ərzaqla təmin edir;

5. Şəmşəddilin və onun əyalətinin əhalisini sıxışdırmaq olmaz, çünki onlar artıq Gürcüstan hökümətinin idarəsinə keçirlər;

Yuxarıdakılara sədaqətlə əməl etmək üçün Cavad xan Gəncəli öz oğlu Hüseynqulu ağanı Gürcüstanın baş idarəedicisinin yanında həmişəlik qalmaq üçün əmanət verir".

Bu cür təhqiramiz şərtləri vətənpərvər və igid Cavad xanın qəbul etməsi mümkün deyildi. Ona görə də o, rusların bu şərtlərini rədd edərək, öz doğma torpağını yadelli işğalçılardan müdafiəyə hazırlaşmağa başladı. 1804 - cü il yanvar ayının 3- ü, orucluq bayramı günü qəhrəman Gəncə əhalisi öz igid sərkərdələri Cavad xanın başçılığı ilə, təkbaşına rus imperiyasının işğalçı ordusuna qarşı mübarizəyə başladı. Digər xanlar

daxili çəkişmələr və düşmənçilik nəticəsində Cavad xanın köməyəinə gəlmədilər. Onlar öz ərazilərində oturuaraq gözləməyi qərara aldılar və bununla da Gəncənin işğalına və özlərinin sonrakı faciələrinə şərait yaratdılar.

Qüvvələr nisbəti qeyri bərabər olmasına baxmayaraq gəncəlilər qəhramanlıqla müdafiə olunurdular. Çar qoşunu sayca Cavad xanın qoşunundan 10 dəfə çox idi. 20 minlik rus qoşununa qarşı 2 min gəncəli qəhrəmanlıqla vuruşurdu. Cavad xan, Tağı və Həsən adlı iki oğlu, Mahmud və Bağır adlı iki qardaşı və 2 minə qədər əsgər Gəncənin müdafiəsi uğrunda döyüşlərdə qəhrəmanlıqla həlak oldular. (42) Tarixçi Rəşid bəy Ismayılov gəncəlilərin qəhrəmanlığı barədə yazırdı: "...Gəncəlilər həqiqətən şir kimi müqavimət göstərir, rusların üzərinə dolu kimi güllə, daş və ox yağdırırdılar. Əsgərləri görmək qəsdilə gəncəlilər yapıncıları neftlə isladıb onlara qarşı atırdılar. Topların sədası, güllələrin vıyıltısı, qalanın içindən çıxan ah – nalə ərşə dayanmış, ətrafa dəhşətli vahimə salmışdı... Qala bürclərindən birində Cavad xan topun üzərinə qalxaraq əlində siyrmə qılınc rusların hücumunu fövqəladə dərəcədə mətanətlə dəf edirdi."

Cavad xanın qəhrəmanlığını ruslar özləri də etiraf edirdilər. Məsələn, rus qoşunlarının baş komandanı markiz Pauliççi Abbas Mirzəyə 20 fevral 1812 – ci il tarixli məktubunda yazırdı: "Mərhum Cavad xanın qohum – əqrəbasına rast gəldim. Öz vətəninə layiqincə xidmət edən adamları sevdiyim üçün Cavad xana haqq qazandırıram. O, şəhəri müdafiə edərək əlində silah həlak olmuşdur. Mənim Cavad xana olan dərin hisslərimi və xüsusi hörmətimi nəzərə alaraq onun nəslindən olanların hamısına azadlıq verdim ki, Irana köçsünlər."(43)

Çar höküməti döyüş bitən günü, 1804 – cü il yanvarın 3 – də Imperatorluq zərbxanasında Gəncənin alınmasında iştiraka görə döş medalı təsis edildi. Minillik tarixi olan Gəncənin adı dəyişdirilərək, ona I Aleksandrın arvadı Yelzavetanın şərəfinə Yelzavetopol adı verildi. Yeni qaydaya görə Gəncə sözünü dilinə gətirən hər bir kəs bir qızıl cərimə ödəməli idi. Gəncə qırğınıdan məmun qalan I Aleksandırın Sisianova 5 fevral 1804 – cü ildə göndərdiyi məktubda deyilirdi: "...Asiya qürur qarşısnda güzəştə getmək pis olardı və belə bir örnək o ölkənin başqa hakimlərini də dikbaşlığa gətirərək... sizə tapşırılan planın yerinə yetirilməsində sonralar çətinlik doğura bilərdi".

Cavad xanın böyük oğlu Uğurlu xan 1804 – cü ilin yayında Gəncəbasarda işğalçılara qarşı üsyan qaldırsa da məğlub olub Irana getməyə məcbur oldu. O, 1826 – cı ildə Abbas Mirzənin və yerli əhalinin köməkliyi ilə yenidən Gəncəyə qayıtsa da 40 gündən sonra yenidən şəhəri tərk etməli oldu. 1826 – cı il sentyabrın 13 – də baş vermiş Gəncə döyüşündə əsir düşən Uğurlu xan bir müddət ruslar tərəfindən

Stavropolda sürgündə saxlanıldı. Yalnız Türkmənçay müqaviləsindən sonra o, Irana qayıda bildi.

Gəncədə həlak olanların sayı barədə digər məlumatda deyilir: "1804 – cü ildə ruslar Gəncəni işğal etdikdən sonra əhalinin sayı hədsiz dərəcədə azalmışdı. 3700 nəfər qalanı müdafiə edərkən həlak olmuş, minlərlə gəncəli, o cümlədən xanın qohumlarından 200 ailə şəhəri tərk edərək əsasən Irana köçmüşdü. Əgər 1802 – ci ildə şəhərin əhalisinin sayı 25700 nəfər idisə, işğaldan sonra bu rəqəm 5460 nəfərə enmişdi."(44)

Gəncədə həlak olanların sayı barədə müxtəlfi məlumatları dəqiqləşdirərək belə nəticəyə gəlmək olar ki, Cavad xanın 2 min döyüşçü ilə yanaşı şəhərin müdafiəsində onlara kömək etmiş 1700 nəfər şəhər əhalisi bu döyüşlərdə qəhrəmanlıqla həlak olmuşlar.

Sisianov Gəncə ilə yanaşı Car – Balakən ərazisini də işğal etməyə çalışırdı. Onun 1803 – cü il 31 mart tarixli (Car camaatının silah gücü ilə çökdürülməsindən bir gün sonra) "Bütün Car camaatına" əmri verilmişdi ki, bu sənəd də rusların işğalçı siyasətinin ifşa edilməsi baxımından çox əhəmiyyətlidir. Sənəddə deyilir: "Dinsiz alçaqlar! Mən sizi çox dilə tutdum, siz isə dağıstanlıları çağırdınız, sonra da ürəklənib elə bir şey yazdınız ki, ləyanətimə toxunur. Siz doğru deyirsiniz, mən gürcüyəm, amma nə ağızla bunu yazmağa cəsarət edirsiniz? Mən Rusiyada doğulmuş, orada böyümüşəm, ruhum da rus ruhudur. Gözləyin qoy gəlib ora çıxım, onda evlərinizi deyil, sizin özünüzü oda yaxacaq, cocuq və qadınlarınızın içalatını çəkib çıxardacağam."(45)

1803 – cü il martın 29 – da Car ərazisi işğal olundu. Lakin əhali müqaviməti davam etdirirdi. Nəhayət 1804 – cü ilin yanvarında general Qulyakovun başçılığı ilə rus qoşunları Car – Balakən əhalisinin müqavimətini qıraraq bu əraziləri viran qoydular.

Gürcüstan, Car – Balakən və Gəncənin işğalı, rusların get – gedə Azərbaycanın içərilərinə doğru irəlləməsi Iranı təcili tədbirlər görməyə məcbur edirdi. I Rus – Iran müharibəsi ərəfəsi vəziyyət get – gedə daha da gərginləşirdi. Rus və sovet tarixşünaslığının əksinə olaraq obyektiv faktlar göstərir ki, ruslar Azərbaycan xanlıqlarının ərazilərini asanlıqla deyil xeyli itkilər verməklə işğal edirdilər. Onlar Cavadxan Gəncəli, Mustafa xan, Davud xan, Səlim xan kimi sərkərdələrin cənazələri üstündən keçərək bu torpaqları ələ keçirirdilər.

## 3. I və II Rusiya – Iran müharibələri. Gülüstan və Türkmənçay müqavilələri. 12 Azərbaycan xanlığının Rusiyanın əsarəti altına düşməsi.

I (1804 – 1813) və II (1826 – 1828) Rusiya – Iran müharibələri çar Rusiyasının işğalçı siyasətinin nəticəsində baş vermişdi. Lakin rus və sovet tarixşünaslığında bu iki müharibənin tarixi saxtalaşdırılaraq

müharibənin başlaması üçün məsuliyyətin Iranın üstünə qoyulmasına cəhdlər edilmişdir.

Tarixdə hansısa ölkəyə qarşı müharibəyə başlamaq, ondan təzminat almaq üçün saxta iddiaların irəli sürülməsinə aid çoxlu faktlar mövcuddur. Kuzabeli – sözünün mənası "müharibəni birinci başlamağı əsas götürərək ona qarşı iddia irəli sürülməsi" deməkdir. Hələlik beynəlxalq sənədlərdə hansısa ölkənin birinci müharibəyə başlamasını əsas götürərək ona qarşı iddia irəli sürülməsinin, yəni Kuzabelinin dəqiq tərifi verilməmişdir. Bu termin əsasən hər hansı ölkəyə müharibəni birinci başladığını bəhanə edərək ona qarşı təzmanat irəli sürülməsinə imkan verən addım mənasında işlədilir.

I və II Rus – Iran müharibələrində işğalçı tərəfin çar Rusiyası olmasına, müharibəni həmin dövlətin başlamasına və cənubi Qafqazda böyük ərazilər işğal etməsinə baxmayaraq Iranda vətənpərvər qüvvələrin istəyini bəhanə edərək onu Kuzabelidə ittiham etmişdir. Rusiya bundan sui - istifadə edərək Türkmənçay müqaviləsinə təzminat haqqında maddə də salmış və müharibə xərclərini Irandan almışdır.

Müasir dövrdə Azərbaycan Respublikasında I və II Rus – Iran müharibələrinə münasibətin əsasən sovet tarixşünaslığında olduğu kimi qalması təəssüf doğurmaya bilməz. Fikrimizcə sovet dövründə bu məsələlərə baxışda burxılmış səhvlərin bu gün də təkrar olunması tarixin yenidən saxtalaşdırılmasından başqa bir şey deyildir. Deyilənləri sübut etmək üçün sovet və müstəqillik dörlərində nəşr olunmuş "Azərbaycan tarixi" kitablarında I və II Rusiya – Iran müharibələrinə münasibəti müqayisə edək.

Akademik I. A. Hüseynov, M. A. Dadaşzadə, Ə. S. Sumbatzadə və başqalarının redaktorluğu ilə 1963 – cü ildə nəşr olunmuş 3 – cildli "Azərbaycan" tarixi kitabının 2- ci cildində yazılmışdı:"1826 – cı il iyulun 16 - da 60 minlik Iran qoşunu Abbas Mirzənin komandanlığı altında, müharibə elan etmədən Arazı keçərək Azərbaycanın şimal hissəsinə soxuldu. Düşmən qoşunları Zaqafqaziya əhalisini – azərbaycanlılar, ermənilər və gürcüləri məhv edir, soyur və onlara əzab verirdilər."(38); "Şah ordusunun Zaqafqaziyaya hücumundan istifadə edərək varlanmağa çalışan bir sıra keçmiş Azərbaycan xanları Iran qoşunları ilə birlikdə hərəkət edirdilər. Onlar feodal və ruhanilərin içərisindən çıxmış bir ovuc xainlərin köməyi ilə əhalinin bir hissəsini, o cümlədən keçmiş xan nökərlərini, maafları və başqalarını aldatmış və müvəqqəti olaraq öz ardlarınca aparmağa müvəffəq olmuşdular"(s.39); "Şah qoşunları və qiyamçı dəstələr tərəfindən müvəqqəti zəbt olunmuş bütün Azərbaycan əyalətləri 1827 – ci ilin əvvəllərinə yaxın azad edildi" (s.43); "Rus dəstəsi Arazı keçərək Azərbaycanın cənub vilayətlərinə daxil olmuşdu. Əhali rus qoşunlarını sevinclə qarşılayırdı". (s.44)

Akademik Ziya Bünyadov və professor Yusif Yusifovun redaktorluğu ilə 1994 – cü ildə nəşr olunmuş "Azərbaycan tarixi" kitabında o dövr haqqında belə yazılmışdır:"Iran qoşunları vəziyyətdən istifadə edib Azərbaycanün digər torpaqlarına da hücuma keçmiş, Lənkəranı, Salyanı işğal edərək əhalinin xeyli hissəsini əsir aparmışdı. Iran qoşunları ilə Azərbaycana gəlmiş qaçqın xanlar əhalinin köməyilə Gəncə, Şamaxı, Şəki və s. şəhərləri ələ keçirib öz xanlıqlarını bərpa etmiş, rus qoşun dəstələrini geri oturtmuşdu. Azərbaycan ərazisinə girmiş şah qoşunları əhaliyə amansız divan tutur, cavan kişiləri, qız – gəlinləri əsir aparırdılar" Bu cümlələrdəki məntiqsizlik özünü açıq – aydın büruzə verir. Bir tərəfdən göstərilir ki, Iran qoşunları "əhalinin köməyi ilə" rus qoşunlarını geri oturtmuşdur. Digər tərəfdən isə göstərilir ki, "şah qoşunları əhaliyə amansız divan tutur, cavan kişiləri, qız – gəlinləri əsir aparırdılar". Kitabda daha sonra yazılan fikirlər isə tamamilə sovet tarixşünaslığındakı saxtakarlığın təkrarıdır: "1827 – ci ilin sonlarında rus qoşunları Azərbaycanın cənub torpaqlarına hücuma keçdilər… Rus qoşun dəstələrindən birinin başçısı yazırdı: "Əhali hər yerdə… qoşunlarımızı düşmən kimi deyil, öz himayəçiləri kimi qəbul edərək, qarşılamağa çıxırdı. "(s.578)

Prof. S. Əliyarlının redaktorluğu ilə 1996 – cı ildə nəşr olunmuş "Azərbaycan tarixi" kitabında I və II Rus – Iran müharibələrinə münasibət əvvəlkilərdən köklü surətdə fərqlənsə də Iranın Rusiya, Ingiltərə və Fransa ilə eyniləşdirilməsi və işğalçı adlandırılması fikirimizcə yanlışdır. Kitabda yazılır:"Azərbaycan torpaqlarının bir dövlət içərisində birləşmiş olmaması vahid xarici siyasət yeridilməsinə imkan vermirdi. Buna görə də Azərbaycan xanlıqları özlərini qoruyub saxlamaq, xanlıqlar arasındakı münasibətləri tənzim etmək üçün ölkəyə göz tikmiş müxtəlif qüvvələr ilə hesablaşmalı olurdular. Bu qüvvələr bir yandan qonşu Iran və Türkiyə, o biri yandan isə Avropa dövlətləri olan Rusiya, Ingiltərə və Fransa ilə təmsil olunurdu.

XVIII yüzilin sonu – XIX yüzilin başlanğıcında qonşu iki dövlət (Iran və Türkiyə) Azərbaycanın bağımsızlığı üçün kerçək təhlükə törətmək iqtidarında deyildilər. Bu dövlətlərin bütün XIX yüz il boyunca heç bir özgə torpaqları ələ keçirməsi təsadüf olmamışdı." (s.573); " Beynəlxalq durum Iranın Rusiya işğalına qarşı çıxması üçün şərait yaratdı. Bu savaş hər iki tərəf üçün ədalətsiz idi. Cünki özgə torpaqlarının ələ keçirilməsi uğrunda gedirdi."(s.587)

Hal – hazırda Azərbaycan Respublikası ali məktəblərində tələbələrin əsasən akademik Ziya Bünyadov və professor Yusif Yusifovun redaktorluğu ilə 1994 – cü ildə nəşr olunmuş "Azərbaycan tarixi" kitabından dərslik kimi istifadə etdiklərini nəzərə alsaq vəziyyətin təcili surətdə düzəlməsinin zəruri olduğu qənaətinə gələ bilərik.

Yuxarıda göstərilən mövcud problemin həlli üçün I və II Rusiya – Iran müharibələrinin tarixinin yenidən, obyektiv şəkildə tədqiqinə ehtiyac var. Bu müharibələrə münasibətdə əvvəllər olduğu kimi müasir dövrdə də Rusiya ilə yanaşı Iranın da işğalçı adlandırılması fikrimizcə düzgün deyildir. Abbas Mirzənin qoşunları ruslardan fərqli olaraq Azərbaycan ərazilərini düşməndən müdafiə etmək, Cavad xanın itiqamını almaq və işğal olunmuş torpaqları, o cümlədən Gəncəni işğaldan azad etmək olsa da bunun hələ də dərsliklərdə öz əksini tapmaması təəssüf doğurmaya bilməz. II Rus – Iran müharibəsi zamanı şimali Azərbaycanda "Ümummüsəlman üsyanı"nın baş verməsi və Iran qoşunlarının tərkibində Şirvan xanı Mustafa xan, Gəncə xanı Cavad xanın oğlu Uğurlu xan, Şəki xanı Səlim xanın oğlanları Hüseyn xan və Hacı xan, Talış xanı Mir Həsən xan, onun qardaşı Sarı Aslan, Irəvan xanı Hüseyn xan və digər xanların qoşunlarının ruslara qarşı qəhrəmanlıqla vuruşması məhz bu yürüşün işğalçı deyil, xilaskar mahiyyətini ortaya qoyur ki, bundan da geniş oxucu kütləsi xəbərsizdir. Bəs müharibənin əsil səbəbkarı kim olmuşdur?

Rus qoşunları Gəncəni işğal etdikdən sonra digər xanlıqların ərazilərini də işğal etməyə başladı ki, bu da Iranı narahat etməyə bilməzdi. Buna görə də Iran Rusiyadan 1804 – cü ilin mayında öz qoşunlarını işğal etdiyi ərazilərdən çıxarmağı tələb etdi. Rusiyanın bu tələbi rədd etməsi 1804 – cü ilin iyunun 10 - da iki dövlət arasında diplomatik münasibətlərin kəsilməsinə və I Rus – Iran müharibəsinin başlamasına səbəb oldu.

. Fətəli şah hələ Gəncə təhlükədə olarkən Cavad xanın köməyinə göndərmək üçün güclü silahlı bir orduya malik olmadığına görə çarəsiz qalıb ətrafdan kömək istədi. Fətəli şahın ordusu 7 aydan sonra Tehrandan Rusiya qoşunları ilə vuruşmaq üçün Azərbaycana tərəf yola düşdü. Bu orduya cəsur sərkərdə, o zaman cəmi 15 yaşı olan şahzadə Abbas Mirzə rəhbərlik edirdi.

Sovet tarixşünaslığında saxtakarlıq o həddə çatmışdır ki, o zaman yazılmış tarix kitablarında müharibə dövründə rus qoşunlarının yerli əhalidən ərzaqı pul ilə, Iran qoşunlarının isə zorla aldığı haqqında fikirlər özünə yer tapmışdır. Bu kitablarda hətta işğalçı rus ordusunun xilaskar, Iran ordusunu isə işğalçı kimi qələmə verməkdən belə çəkinməmişlər. Bu saxtakarlığı hazırda yeni nəşr olunmuş bəzi kitablardakı obyektiv faktlarla ifşa etmək mümkündür. Jan Juniorun "Unudulmuş qəhrəmanlar" kitabında Mustafa Miyanəçinin 10 minlik qoşununun hətta aclıqdan korluq çəkdiyi vaxt da yerli əhalidən ərazaqı zorla alınmasının əleyhinə olması qeyd olunmuşdur. Kitabda bu məsələ barədə belə yazılmışdır: " Mustafa xan əhalidən ərzaq və yemi zorla ala bilmirdi. Çünki onun keçdiyi məntəqələrdə hamı Iran təbəəsi idi və o öz həmvətənlərinin mülkünü müsadirə edə bilmirdi. Əgər bu işə təşəbbüs etsəydi, siyasi səhv edərdi, ona görə ki, yerli əhalini öz əleyhinə qaldırardı... Iran ordusunda

nizam – intizamın mövcud olduğunun sübutlarından biri budur ki, Mustafa xan 10 min ac əsgəri kəndin qırağında saxladı və onlar kənd əhalisinin buğdasına toxunmadılar." (46)

1804 – cü ilin iyununda Abbas Mirzənin qoşunları Irəvan xanlığı ərazisinin şərqində cəmləşdirmişdi. Irəvan qalası yaxınlığındakı döyüşdə onun qoşunları rusları məğlub etdikdən sonra onlar geri çəkilməyə məcbur oldular.

Gəncə xanlığı işğal olunduqdan sonra rusların Qarabağ xanlığına təzyiqi güclənmişdi.

Qarabağ xanlığı XVIII əsrin 40 - cı illərində yaranmış və 1822- ci ilə qədər mövcud olmuşdur. Səfəvilər dövründə isə bu ərazilər Gəncə – Qarabağ bəylərbəyinə daxil olmuşdur ki, buna da Qacarlar nəslindən olan Ziyadoğlular rəhbərlik etmişlər. Ərazisi Araz və Kür çayları arasındakı torpaqlar idi. Şəki, Gəncə, Irəvan, Naxçıvan, Qaradağ, Cavad, Şamaxı xanlıqları ilə sərhədləri vardı. Mərkəzi Bayat qalası, Şuşa şəhəri (1750 – ci il) idi. Xanları - Pənahəli (1748 – 1763), Ibrahim Xəlil (1763 – 1806), Mehdiqulu (1806 – 1822) olmuşdu.

Qarabağ xanı Ibrahim xan Qacara qarşı ruslarla yanaşı Osmanlılarla da əlaqə yaratmağa çalışırdı. O, Sultan III Səlimin (1789 – 1807) böyük vəzirlərindən birinə yazırdı:"...qızlbaşdan Ağa Məhəmməd xan ortaya çıxıb, Iran mülkünə daxil olan Iraq məmləkətini və fars şəhərlərini ələ keçiribdir. Onun indiki istəyi budur ki, Azərbaycan diyarına gedib, Araz çayını keçərək, əvvəlcədən mənim, sonra Irəvan xanı Məhəmməd xanın, daha sonra isə Gürcüstan üzərinə hücum edib öz niyyətini bu yolla həyata keçirsin. Indən belə məsləhət şövkəti əfəndinizindir. Sizdən rica budur ki, bizləri qoruyub, bizə kömək və inayətinizi əsirgəməyəsiniz. " (47)

Qarabağ xanı bu cür manevrlərlə öz müstəqilliyini qoruyub saxlamağa çalışsa da Gəncə xanlığının rus qoşunları tərəfindən işğalı və general Sisianovun rəhbərliyi ilə yerli əhaliyə qarşı törədilmiş dəhşətli cinayətlər onu təcili olaraq Rusiya ilə Kürəkçay müqaviləsi bağlamağa məcbur etdi.

1805 – ci ilin yazında Gəncə yaxınlığında düşərgə salmış Sisianov mayor Lisaneviçi Ibrahim xanın yanına göndərib ondan Rusiyanın təbəliyinə keçməyi tələb etdi. Gəncədə və Car – Balakəndə rusların etdiyi ağılasığmaz vəhşiliklər Qarabağ xanını bərk qorxutmuş və ruslarla ehtiyatlı davranmasına səbəb olmuşdu. Tarixçi Əhməd bəy Cavanşir yazır: "Bu zaman Qarabağ əyanları bir – birinə düşmən olan iki hissəyə bölünmüşdülər. Bu dəstələrdən biri rusların Zaqafqaziya işlərinə qarışmasını gözləyərək heç bir vəclə Irana tabe olmaq istəmir, digəri isə… Iran hökümdarını hər vasitə ilə razı salmağa çalışırdı. Şuşa şəhəri iranlılar üçün Zaqafqaziyanın açarı, ruslar üçün isə Iranın qapısı hesab edilirdi."(48)

Şah onun yanında olan Ibrahim xanın oğlu Əbülfət xanı atasına yardım etmək üçün beşminlik qoşunla Qarabağa göndərdi.

1805 – ci ilin yazında Sisianov Ibrahim xana məktub yazaraq Rusiya və ya Iran dövlətlərindən hansına tərəf olduğunu açıq bildirməyi tələb etdi. Yaşı səksəni haqlamış Ibrahim xan rusların Gəncədə törətdikləri vəhşilikləri bir daha gözünün qabağına gətirərək 1805 – ci il mayın 14 – də oğlanları Məmmədhəsən ağa, Mehdiqulu ağa, Xanlar ağa və digər əyanlarla Gəncənin yaxınlığında Kürəkçay sahillərində yerləşən Sisianovun düşərgəsinə gəldi. O, kürəkəni Şəki hakimi Səlim xanı da bura dəvət etdi və onlar 11 maddədən ibarət "Andlı öhdəlik" adlanan "Kürəkçay müqaviləsi"nə imza atdılar.

Bu müqavilənin 1 – ci maddəsinə görə Qarabağ xanı Rusiya çarının vassalı olmağına razılıq verir və 4 – cü maddəyə görə müstəqil xarici siyasət hüququndan çarın xeyrinə imtina edirdi. Bundan başqa 8 – ci maddəyə görə çar xəzinəsinə ildə 8000 çervon bac verməyi öhdəsinə götürürdü. Qarabağ xanı "Kürəkçay müqaviləsi"nə məcburiyyət üzündən, rus qoşunlarının törətdikləri vəhşiliklərindən ehtiyat edərək imza atsa da bu məsələnin müasir dövrdə izahında hələ də səhvlərə yol verilməsi təəssüf və təəccüb doğurur.

Son vaxtlar Azərbaycan Respublikasının bəzi tele – kanallarında Azərbaycan tarixinin XVIII – XIX əsrlər dövrünə aid verilən verlişlərdə bəzi məsələlər ya bilərəkdən, ya də bilməməzlikdən qarışdırılır və əhaliyə qeyri – obyektiv məlumatlar verilir. Məsələn, Azərbaycan xanlıqlarının tarixi və Kürəkçay müqaviləsi ilə bağlı 17 aprel 2005 – ci il tarixdə "Speys" tele – kanalı vasitəsilə nümayiş etdirilmiş verilişdə aşağıdakı bir sıra ciddi səhvlərə yol verilmişdir :

1. Azərbaycan tarixinin XVIII əsrin ortaları - XIX əsrin əvvəlləri dövrünə həmin dövrün və ondan əvvəlki dövrləri obyektiv təhlil etməklə deyil, bu günün siyasi proseslərindən doğan subyektiv baxışlardan yanaşılması bir sıra səhv tezislərin meydana gəlməsinə səbəb olmuşdur;
2. Gəncə xanlığı ilə Qarabağ xanlığı arasında ziddiyyətlərin səbəblərinin açılmaması sonrakı şərhlərdə dolaşıqlığa gətirib çıxarmışdı. Qarabağ xanlarının fəaliyyətinə müsbət yanaşıldığı halda xalqın qəhəraman oğlu Cavad xanla eyni nəsildən olan, Gəncə xanlığının itirilmiş torpaqlarını ona qaytarmaq və mərkəzləşmiş dövləti bərpa etmək məqsədilə şimali Azərbaycana qoşun yeridən Ağa Məhəmməd Qacara yadelli kimi düşmən münasibəti bəslənməsi başa düşülən deyil. Fikrimizcə bu cür mövqe Azərbaycan xalqının bütöv tarixinə hər hansı bir xanlığın mənafeyi baxımından yanaşan bəzi XVIII – XIX əsr tarixçilərinin mövqeyindən heç nə ilə fərqlənmir. Çox güman ki,

bu cür fikir irəli sürən şəxslər elə həmin tarixçilərin əsərlərinə tənqidi yanaşmadan, onların təsiri ilə bu cür fikirlər irəli sürürlər;

**3.** Azərbaycanın rus, erməni və fars işğalçılarının döyüş meydanına çevrildiyi fikrini irəli sürərkən, səhv olaraq Ağa Məhəmməd şah Qacarı, Abbas Mirzəni və digər Azərbaycan xalqının qəhrəman oğullarına sovet dövründə vurulmuş "fars işğalçısı" damğasını olduğu kimi təkrar edilməsi də fikirimizcə bu cür səhv yanaşmanın nəticəsidir;

**4.** Azərbaycan xanlarına fərqli münasibət bəslənməsi və burada "ögey" "doğmalığın" açıq aydın özünü büruzə verməsi fikrimizcə səhvdir. Bu cür münasibətin hətta hazırda Azərbaycan cəmiyyətində milli birliyə mane olan regionçuluq, yerlibazlığ hissələrindən də yarandığını etimal etmək olar;

**5.** Kürəkçay müqaviləsinin bağlanmasının əsas səbəbi kimi Rus – Gəncə müharibəsində rus qoşunlarının törətdikləri vəhşiliklərin deyil, Ibrahim xanın Rusiyaya meyl göstərməsinin olduğunu qeyd etmək kökündən səhvdir;

**6.** Ibrahim xanın oğlu Əbülfət xanın Qacarlar hakimiyyətinə meyl göstərməsinin və onların yanında olmasının onun anasının erməni olması ilə izah edilməsi fikrimizcə o vaxt gedən proseslərə hazırki siyasi proseslərin təsiri ilə bəsit yanaşmanın məhsulu kimi qəbul olunmalıdır;

**7.** Verliş boyu aparıcının sürətli, tələsə - tələsə danışması, dolaşıq cümlələr işlətməsi, hadisələr barədə çox zaman düzgün izahlar verməməsi, hadisələrə münasibət bildirərkən "mənə görə", "bizim fikrimizcə" sözlərindən istifadə etməməsi və öz fikirlərini həqiqət kimi təqdim etməsi fikrimizcə səhvdir və bu da tamaşıçılar arasında mövzu ilə bağlı anlaşılmazlıq yaradır və s.

Bu nöqsanları tənqid edən ayrıca məqalənin (49) çap olunması fikrimizcə müsbdət haldır və gələcəkdə bu cür səhvlərin aradan qaldırılmasına yaxından kömək göstərə bilər.

1805 – ci ilin iyununda Abbas Mirzə on min əsgər ilə Qarabağ üzərinə hərəkətə başladı. Cəbrayıl yaxınlığında Lisaneviçin rus qoşunlarını darmadağın etdi. Onlar iki qola ayrılaraq Şuşanın yaxınlığındakı Ağoğlan, Əsgəran və Şahbulaq qalalarını tutdular. Sisianovun qoşunları Tiflisdən hərəkətə başlayarkən Abba Mirzə də öz qoşununu Tiflis üzərinə yolladı. Zəyəm yaxınlığındakı döyüşlərdə itiki verən qoşunlar Qazax sultanlığına geri çəkildilər. Abbas Mirzə onun yanında olan gürcü çarının oğlu Aleksandr vasitəsilə qazaxlılardan onunla birlikdə Tiflisə yürüş etməyi tələb etdi. Lakin onlar rusların qorxusundan bu tələbə müsbət cavab vermədilər və bununla da Iran qoşunlarının Tiflis üzərinə yürüşü Zəyəm və Qazax döyüşləri ilə pozuldu. Abbas Mirzənin qoşunları Dilican dərəsi istiqamətində geri çəkildi.

Bu zaman Rus qoşunlarına qarşı müqavimət göstərən Şirvan xanı Mustafa xanın Lahıc yaxınlığındakı Fit dağına mövqe tutmuşdu. Lakin qüvələr nisbəti qeyri – bərabər olduğundan və kənardan kömək gəlmədiyinə görə o, 1805 – ci il dekabrın 27 – də saziş imzalamağa məcbur oldu. "Kürəkçay müqaviləsi"nin bəndləri bu sazişdə də təkrar olunur.

Şirvan xanlığı tutulduqdan sonra ruslar Bakı üzərinə yeridilər. 1806 – cı il avqustun 15 – də Bakı şəhəri dənizdən çox güclü top atəşinə məruz qaldı. Bundan sonra ruslar quruya desant çıxarsalar da Bakı əhalisinin qəhramanlıqla müdafiə olunması və Qubalı Şeyxəli xanın köməyə gəlməsi Zaslavskinin başçılığı ilə rus qoşunlarını Sarı (Sara) adasına geri çəkilməyə məcbur etdi.

1806 – cı ilin yanvarında Sisianovun dəstəsi Şamaxıdakı işləri başa vuraraq Bakıya yürüş etdi. Zaslavskinin komandan olduğu rus donanması üzvləri də sahilə çıxaraq ona qoşuldu. O, Bakının təslim edilməsi haqqında müqavilənin şərtlərini Hüseynqulu xana göndərdi. Müqavilənin şərtləri çox ağır idi. Bu sənədə görə Bakının bütün gəliri Rusiya xəzinəsinə verilməli, şəhər rusların idarəsi altına keçməli və qalada 1000 – nə yaxın rus əsgəri və topları yerləşdirilməsi nəzərdə tutulurdu. Hüseynqulu xan Sisianova bu şərtləri qəbul edəcəyini bildirdi. Qala açarlarının Sisianova təhvil verilməsi fevralın 8 – nə təyin olundu. Mərasimdə xanın xalası oğlu Ibrahim bəy tapançadan atəş açaraq Sisianovu qətlə yetirdi. Bundan sonra rus qoşunları quruda hərbi əməliyyatdan çəkinərək, qorxu içərisində gəmilərə doluşub su yolu ilə geri çəkildilər.

1806- cı ilin iyun ayında general – feldmarşal I. V. Qudoviç Qafqaza baş komandan göndərildikdən sonra Rusiya – Iran müharibəsi yeni mərhələyə qədəm qoydu. Həmin il iyunun 22 – də Dərbənd ruslar tərəfindən işğal olundu.

1806 – cı ilin yazında Abbas Mirzə 20 minlik qoşunla yenidən Qarabağ ərazisinə hücuma keçərək Şuşa qalasına yaxınlaşdı.

Bu zaman Qarabağ xanlığının özünün əsgəri qüvvəsinin zəif olması, rusların burada yalnız bir batalyon və bir neçə yüz atlı saxlaması, daxili çəkişmənin güclənməsi Abbas Mirzənin şanslarını artırırdı. Kürəkçay müqaviləsinə görə Ibrahim xanın varisi elan olunmuş Məmmədhəsən ağanın ölümü və onun yerinə Mehdiqulu ağanın (şair Xurşud Banı Natavanın atası) irəli sürilməsi daxili çəkişmələri gücləndirdi. Məmmədhəsən ağanın oğlu polkovnik Cəfərqulu ağa atasının yerinə varis olmaq istədiyindən əmsi Mehdiqulu ağanın varisliyini qəbul etimir və öz tərəfdarları ilə pozuculuq işlərini gücləndirirdi. Xanın digər oğlu Əbülfət bəy isə Abbas Mirzə ilə birlikdə ruslara qarşı vuruşmaqda idi. Belə bir vəziyyətdə Ibrahim xanın qardaşı oğlu Mirzə Əli bəy rusların Gəncədə girov saxladığı oğlu Behbud bəy və qardaşı oğlu Feyzi bəylə gizli əlaqə

yaradaraq onlarla birlikdə Abbas Mirzənin yanına qaçdılar. Tarixçi M. Xəzani bundan sonra bu prosesin gücləndiyini qeyd edərək yazırdı: "Qarabağın şöylə ümdə bəyləri dəxi Qızılbaşa gedirdilər".

Belə gərgin vəziyyətdə Ibrahim xan Cavad xanın qatili, xalq arasında "dəli mayor" adını qazanmış Lisaneviçdən ehtiyat edirdi.

Ibrahim xanın öz ailəsini Xanbağındakı evindən Şuşa qalasının iki verstliyinə göçürməsini Miraxur adlı bir gürcü və xanın digər düşmənləri Lisaneviçə xanın xəyanəti kimi çatdırdılar. "Dəli mayor" 200 rus əsgəri ilə qaladan çıxıb xanın evinə hücum etdi və təxminən 17 nəfəri yatdıqları yerdə qətlə yetirdilər. Qətlə yetirənlər arasında Ibrahim xanın özü, Tubu bəyim – şəkili Hüseyn xanın qızı, Hərəmi xan, Səltənət bəyim, Abbasqulu ağa – Fərzəni xan, Hacı Hüseynəli bəy Kəbirli, Mirzə Haqverdi Kəbirli, Qərvəndli Hümmət bəy Cavanşir, onun oğlu Həsənağa Gülməli bəy Sarıcalı Cavanşir, Mirzətağı Afşar, Əlipənah – pişxidmət, Hacı Həsən Əcəm oğlu Kəbirli, onun iki oğlu, Şellidən iki nəfər, iki nəfər Şuşalı var idi. Rus qoşunları hətta kiçik yaşlı uşaqlara da rəhm etmədilər. Xanın nəslindən olan kiçik yaşlı Nəcibə və 13 yaşlı oğlan uşağı da qəddarlıqla qətlə yetirildi. Xanın övrəti və qızını yaralı vəziyyətə qalaya gətirsələr də həyatlarını xilas etmək mümkün olmadı. Xanın evindəki əşyalar ruslar tərəfindən qarət olundu.

Faciə baş verən zaman Mehdiqulu xan öz yaxınları ilə qalada idi və hadisədən sonra xəbər tutdu. Onu sakitləşdirmək üçün Lisaneviç əhalini divanxananın qarşısına yığıb xanlığın idarəsini ona tapşırdı. Qətldən 15 gün keçməmiş general Nebolsin öz qoşunu ilə Əsgərana yaxınlaşdı və Mehdiqulu xan da öz dəstəsilə ona qoşuldu. Iyulun 15 – də Honaşen yaxınlığındakı yeddi saatlıq döyüşdə Abbas Mirzə rusların otuza qədər əsgər və zabitini məhv etdikdən sonra geri çəkilməyə məcbur oldu.

Xanlığa iddialı olan Cəfərqulu ağanın bütün səylərinə baxmayaraq 13 sentyabr 1806 – cı il taixili fərman ilə Mehdiqulu ağa Qarabağ xanı elan olundu. Bundan sonra o, qardaşı Xancan bəylə birlikdə Abbas Mirzənin yanına pənah apardılar.

1806 – cı il sentyabrın 5 – də general Bulqakovun komandanlığı ilə rus qoşunu yenidən Bakı üzərinə hücuma keçdi. O, yerli əhaliyə toxunmayacağını bildirmiş və sözünə təminat məqsədilə oğlunu Bakıya göndərmişdi. Lakin şəhər əhalisi onun sözlərinə inanmayaraq dağlara çəkilmiş, xan isə əvvəl Qubaya, oradan da Irana pənah aparmışdı. 1806 – cı il oktyabrın 3 – də Bakı ruslar tərəfindən işğal olundu və Bakı xanlığı ləğv olundu. Bundan bir qədər sonra isə Quba xanlığı işğal olundu və Şeyxəli xan dağlara çəkildi.

Bakı və Quba xanlığının işğalından sonra rus qoşunları Şəkidəki üsyanı yatırmağa göndərildi. Oktyabrın 22 – də Səlim xanın silahlı qüvvələri məğlub oldu və Şəki xanı da Irana pənah apardı.

1808 – ci ildə Harford Cons başda olmaqla Ingiltərə nümayəndə heyəti Tehrana gəldi və 1809 – cu ilin martında Ingiltərə ilə Iran arasında müqavilə imzalandı. Müqaviləyə görə Iran Ingiltərəyə düşmən olan ölkələrlə, o cümlədən Fransa və Rusiya ilə bütün əlaqələri kəsməli, Ingiltərə isə şaha ildə 120 min funt sterlinq (200 min tümən) yardım etməyi, rusiya ilə müharibə üçün silah və hərbi təlimatçılar verməyi öhdəsinə götürmüşdü.

Bu zaman hərbi əməliyyatlar davam edirdi. 1808 – ci il oktyabrın sonunda ruslar Naxçıvanı tutdu. Lakin Irəvan yaxınlığında uğursuzluğa düçar olduqdan sonra Naxçıvanı da tərk edərək geri çəkildilər. Bundan sonra Qudoviç istefaya göndərilərək onun yerinə general Tormasov baş komandan təyin olundu.

1809 – cu il avqustun ortalarında Abbas Mirzə Arazı keçərək Gəncə xanlığı ərazisində olan Ağbulağa yaxınlaşdı. Lakin Gəncəni geri ala bilməyib Irəvana çəkildi. Sentyabr ayında Lənkaranı tutsa da Qars padşahlığı vasitəsilə Gürcüstana hücum istənilən nəticəni vermədi.

1810 – cu ilin aprelində Əsgəranda sülh danışıqları başlansa da Talış xanılığı üstündə kəskin fikir ayrılığı olduğuna görə danışıqlar heç bir nəticə vermədi. Həmin ilin avqustunda Türkiyə ilə Iran arasında hərbi ittifaqın yaranması, rusların işğal etdiyi ərazilərdə müqavimət hərəkatlarının güclənməsi Abbas Mirzənin qoşunlarının imkanlarını artırırdı.

Rusların işğal etdiyi ərazilərdə yüksələn xalq hərəkatları Iran və Türkiyə dövlətlərini özlərinin təbii mütəfiqləri sayırdılar. Şəkili Səlim xan yerli bəylərə yazırdı: " Allahın rəhmi ilə… müzəffər Fars ordusu bir yandan və ildırımsaçan Türkiyə qoşunları o biri yandan oraya (Şəkiyə – Red.) varacaq və yağı cəsədlərindən ehram qurulacaqdır" bu məktubu alan bəylər 500 – ə qədər döyüşçü toplayıb ruslara qarşı güclü müqavimət göstərdilər.

1810 – 1811 – ci illərdə keçmiş Gəncə xanlığı ərazisində yaşayan ayrumlar rus zülümünə qarşı çıxış etdilər. 1400 ayrum ailəsi rus zülümündən yaxa qurtarmaq üçün Gəncəbasardan köçərək Dərələyəz yaylağına getdilər. Burada onlar Cavad xanın Irana getmiş oğlu Uğurlu xanla görüşüb onun himayəsi altında Irəvan xanlığı ərazisində yerləşdilər.

Bu zaman Səlim xanla yanaşı Qarabağ hakimi Mehdiqulu xan, Şirvan hakimi Mustafa xan və Quba hakimi Şeyxəli xan da Rusiyaya qarşı idilər. 1810 – cu ilin avqustunda xalqın köməyinə arxalanan Şeyxəli xan rus qoşunlarını Gilgil çayı üzərindəki döyüşdə əzdi və onlara köməyə gələn general Repinin qoşunlarını da geri oturtdu. Rus generalı Şeyxəli xanı tutub gətirən və öldürən adama 1500 çervon mükafat veriləcəyini elan etsə də əhali öz qəhrəman oğlunu mərdliklə müdafiə edirdi. Şirvanlı Mustfa xan da Quba üsyançılarına yaxından kömək göstərirdi. Lakin

Abba Mirzənin üsyançılara kömək edə bilməməsi oktyabrın 4-ü və 25 - də baş verən qanlı döyüşlərdə üsyançıların məğlubiyyəti ilə nəticələndi.

1812 – ci ilin yayında Napoleonun Rusiyaya hücumu Abbas Mirzənin Qafqazda fəal hərbi əməliyyatları bərpa etməsinə səbəb oldu. Iyun ayında onun qoşunları Qarabağ ərazisinə daxil olaraq Şahbulağı tutdular. Bundan sonra Gəncə, Şəki xanlığı istiqamətində də hücumlarını genişləndirdilər. Lakin bir qədər sonra geri çəkilməyə məcbur oldular. 1813 – cü il yanvarın 1 – də Lənkəran ruslar tərəfindən işğal olundu.

1812 – ci il də ruslar Napoleonu məğlub etmələrinə baxmayaraq iki cəbhədə müharibə aparmağa imkanları yox idi. Onlar bəzi uğurlar qazanmalarına baxmayaraq tezliklə sülh müqaviləsi bağlanmasında maraqlı idilər. Iran da öz qüvvələrini bərpa etmək üçün Ingiltərənin vasitəçiliyi ilə sülh danışıqlarına başlamağa razı oldu. 1813 – cü il oktyabrın 12 – də Qarabağın Gülüstan kəndində Zeyvə çayı yaxınlığında 11 maddədən ibarət müqavilə bağlandı.(50) Bu müqaviləni Iran tərəfdən şahın vəkili Mirzə Əbdülhəsən xan Şirazi, Rusiya tərəfindən isə Qafqazın yeni baş komandanı Ratişev imzaladılar. Gülüstan müqaviləsinin şərtlərinə görə Talış, Şirvan, Quba, Bakı, Gəncə, Qarabağ, Şəki xanlıqları Rusiyanın tərkibinə qatılırdı. Iran şərqi Gürcüstan, Qazax və Şəmşəddil sultanlıqlarına, həmçinin Dağıstana olan iddialarından əl çəkdiyini bildirdi. Xəzər dənizində donanma saxlamaq hüququ yalnız Rusiyaya verildi. Rus tacirləri daxili kömrük vergisindən azad edildilər. Lakin Iravan və Naxçıvan xanlıqları şahın hakimiyyəti altında qaldı.

Fransız tarixçisi Jan Junior yazır: " Çarla Fətəli şahın müharibəsinin birinci on ili dövründə hərdən iranlılar, hərdən də çar qoşunları qalib gəlirdi və o zaman 1812 – ci ilin baharında, müharibənin sonuncu dövründə Fətəli şah münasib şərtlərlə çarla sülh bağlaya bilərdi, amma bunu etmədi. Əgər o bunu etsəydi Gürcüstandan başqa heç yeri əldən verməzdi və Araz çayının şimalındakı digər Iran vilayətləri onun əlində həmişəlik qalardı."

Fransa tədqiqatçısı Henri Brou yazmışdır ki, Ingiltərə Fransanın Rusiyaya həmlə etdiyini bilməsinə baxmayaraq, bu hadisəni Fətəli şaha çatdırmadı ki, bir hazırlıq görə bilsin.Sülh bağlamaq tələbi Fıətəli şahdan deyil, çar komandanı tərəfindən edildi və o, Ingilislərin vasitəçiliyi ilə Fətəli şahdan sülh bağlamağı tələb etdi. Əgər bu doğrudursa, çar komandanı Fətəli şahdan sülh istəyirdisə, sülhün şərtləri Fətəli şah üçün münasib olmalı idi; amma bilirik ki,Gülüstan müqaviləsində öz əksini tapmış bu şərtlər Irəvan və Naxçıvandan başqa Araz çayının şimalında yerləşən bütün Iran ərazisi Fətəli şahın əlindən alınıb çara verildi.

Henri Brouna görə ingilislər bu əraziləri ruslara rüşvət verdilər ki, onlar Hindistanı işğal etmək fikrindən daşınsınlar.(51)

Fikrimizcə Gülüstan müqaviləsini sovet tarixşünaslığında Azərbaycanın Rusiya və Iran tərəfindən iki yerə bölünməsinin başlanğıcı

kimi qiymətləndirilməsi, işğalçı çar Rusiyası ilə Iranın eyniləşdirilməsi kökündən səhvdir. Əvvəllər nəşr olunmuş kitablardan fərqli olaraq 1994 – cü ildə nəşr olunmuş "Azərbaycan tarixi" kitabında "Gülüstan müqaviləsi Azərbaycanın Rusiya tərəfindən iki yerə bölünməsinin başlanğıcı oldu" (s.577) fikirini yenilik kimi qəbul etmək mümkün olsa da yeni nəşr olunan tarix kitablarında ədalətin bərpa olunduğunu demək hələ ki, mümkün deyil.

Qafqazın ruslar tərəfindən işğalı ilə barışmayan Iran bu ərazilərin Rusiyanın əsarətindən qurtarmaq üçün əlveişli şəraitin yetişməsini gözləyir və müharibəyə hazırlaşırdı. Bu işdə bağlanmış müqavilə əsasında Ingiltərə Iranaköməklik göstərir, Təbriz və digər şəhərlərdə silah zavodlarının tikilməsinə yardım edirdi. Iranla yanaşı Rusiyanın Qafqazda möhkəmləməsinin Ingiltərə və Türkiyənin də maraqlarına zidd olması bu dövlətləri yaxınlaşdırırdı. 1818 – ci ildə Iran höküməti Türkiyə ilə danışıqlara başladı və Fətəli şah öz nümayəndəsini Sultan sarayına göndərdi. Rusiyanın işğal etdiyi xanlıqların müsəlman əhalisinin yoxsul kütlələri ilə yanaşı ali zümrəsinin əksəriyyəti də rus hərbi müstəmləkəçi rejiminə düşmən münasibət bəsləyirdi ki, bu da Iranın şanslarını artırırdı.

Rusiyanın paytaxtı Peterburqda 1825 – ci ilin dekabrında baş vermiş dekabristlər üsyanı adlanan zədagan inqilabının xəbəri Irana 1826 – cı ilin əvvəllərində çatdı. Şah Rusiya ilə müharibə başlaması məqamının yetişdiyni zənn edərək hərbi əməliyyatlara hazırlaşmağa başladı. 1826 – cı ilin iyununda Iranın ali müsəlman ruhaniləri Rusiyaya qarşı "müqəddəs müharibəyə" başlamaq haqqında qərar qəbul etdilər. Iyulun 13 – də Abbas Mirzənin 60 minlik ordusu Cavad xanın oğlu Uğurlu xan, Bakılı Hüseynqulu xan, Qarabağlı Mehdiqulu xan, Şəkili Səlim xanın oğlu Hüseyn xan, Şirvanlı Mustafa xan və başqaları ilə birlikdə Arazı keçərək rus işğalçılarına qarşı müharibəyə başladılar. Əhali Abbas Mirzənin qoşunlarını və onunla gələn xanları özlərinin xilaskarı hesab edərək demək olar ki, bütün ərazilərdə onlara yardım edir, rusların əleyhinə üsyana başlayırdılar. "Ümum müsəlman üsyanının" genişlənməsi çar hökümətini təşvişə salmışdı.

Qarabağda bəylərdən ibarət silahlı dəstə ruslarla toqquşaraq, Yermolovun əlaltısı, müsəlman əhalinin dərin nifrətini qazanmış erməni R. Q. Mədatovun malikanəsini yandırdı. Şirvanda yerli əhalinin köməyi ilə Mustafa xan öz hakimiyyətini bərpa etdi. Bundan başqa Mirhəsən xan Talış, Əhməd xan Quba, Hüseyn xan Şəki əyalətində hakimiyyətlərini bərpa edə bildilər.

Lakin tezliklə Rusiyanın mərkəzindən kömək alan Yermolov qüvələr nisbətində üstünlüyü ələ aldı. Yenidən xanlıqların əraziləri işğal olunmağa başladı və xanlar Irana qayıtmağa məcbur oldular. Ruslar üsyanları qan içində boğur, ələ keçən üsyançılara qarşı ən amansız tədbirlərə əl atırdılar. Quba əyalətində 1826 – 1827 – ci illərdə həbs

edilmiş 57 nəfərdən 3 xan və 7 bəy haqqında ölüm hökmü çıxarıldı, qalanları isə uzun müddətə həbsxanalara salındılar. Müsəlman əyalətlərinin rəisi fon – Krabbe Quba, Şirvan və Bakı əyalətlərinin komendatlarına göndərdiyi 16 dekabr 1826 – cı il tarixli təlimatda həbsə alınan bütün bəyləri filiz mədənlərində ağır işlərə sürgün etməyi, onların yetkinlik yaşına çatmış kişi övladlarını isə Həştərxana hərbi – yetim şöbəsinə göndərməyi qəti surətdə tapşırmışdı. Təlimatda Rusiya hökümətinə düşmən mövqe tutan bütün bəylərin daşınmaz və daşınan əmlakı Rusiya dövlətinin xəzinəsinə verilməsi irəli sürülürdü. Buna uyğun olaraq Əhməd xanla Irana getmiş 342 kişinin, o cümlədən 81 bəy və ağanın, Bakı əyalətindən Hüseynqulu xanla getmiş 40 - dan çox bəyin, Qarabağ əyalətindən getmiş 43 bəy və ağanın bütün kəndlərini müsadirə edilməsi haqqında hököm verildi. Şirvan əyalətindən 1477 həyətdən ibarət 49 kənd, 125 meyvə və üzüm bağı müsadirə edilib çar xəzinəsinə verildi. Onlara məxsus olan 5139 baş iri buynuzlu mal, 24322 baş davar sürsat idarəsinin ixtiyarına verildi. Talış xanlığından Irana keçmiş bəylər 1550 kəndli ailəsini də özləri ilə aparmışdılar. Onlara məxsus 3301 kəndli həyəti də xəzinənin xeyrinə müsadirə olundu.

Rus qoşunları Irəvan və Naxçıvan xanlıqlarını işğal edib, 1827 – ci ilin sonlarında Araz çayını keçərək cənub torpaqlarına soxuldular. Bundan sonra hər iki tərəf danışıqlara başladılar. Danışıqların nəticəsində 1828 – ci il fevralın 10 – da Təbrizdən bir qədər cənubda yerləşən Türkmənçay kəndində 16 maddədn ibarət Rusiya – Iran müqaviləsi imzalandı.

Türkmənçay müqaviləsi ilə II Rusiya – Iran müharibəsi başa çatdı. Müqaviləyə görə çar Rusiyasının qoşunları Arazdan cənubdakı torpaqlardan çıxarıldı. Gülüstan müqaviləsindəki torpaqlara əlavə olaraq yenicə işğal olunmuş Irəvan və Naxçıvan xanlıqları Rusiyanın tərkibinə qatıldı (III maddə). Bundan başqa Iran Rusiyaya 20 milyon gümüş rubl təzminat verməli idi (II maddə). Təzminat verilənə qədər zəbt edilmiş cənub vilayətləri Rusiyanın himayəsində qalacaqdı. Xəzər dənizində yalnız Rusiya hərbi donanma saxlamaq hüquq təsdiq edildi (VIII maddə). X maddə ticarət konsulluğunun açılmasından, XI maddə qarşılıqlı olaraq müharibə ilə dayandırılmış işlərin bərpasından bəhs edirdi. XII, XIV, XI maddələr iki ölkə arasında əhalinin hərəkəti və başqa məsələlərə toxunur. XV maddə ermənilərin Irandan cənubi Qafqaza köçürülməsi ilə bağl idi. (52)

Iran qoşunlarının komandanı Abbas Mirzə haqqında sovet tarixşünaslığında olan düşmən, saxta fikirlər şüurlarda hələ də qalsa da son illər nəşr olunmuş bəzi kitablar bu çatışmazlıqları müəyyən qədər aradan qaldırılmasına kömək edir. Fikrimizcə 15 yaşından Iran ordusuna rəhbərlik edərək 12 ildən artıq işğalçı çar qoşunlarına qarşı qəhrəmanlıqla döyüşmüş, cəsur sərkədə Abbas Mirzəni bir şəxsiyyət kimi 13 yaşından

qızılbaşlara rəhbərlik edərək Səfəvi kimi qüdrətli bir dövlətin əsasını qoymuş I Şah Ismayılla müqayisə etmək olar. Hər bir azərbaycanlı I Şah Ismayılla fəxr etdiyi kimi, vətəni yadelli işğalçılardan azad etmək uğrunda qəhrəmanlıqla vuruşmuş Abbas Mirzə kimi şəxsiyyətlərlə də fəxr etməli, bu şəxsiyyətləri xatırlayarkən qürur hissi duymalıdır.

Nasir Nəcminin "Abbas Mirzə" (yaxud "Qacar sülaləsinin qəhrəman, vətənərvər oğlu və onun başçılıq etdiyi Iran - Rusiya müharibələri", (Tehran hicri 1326-cı il, miladi 1910) kitabının 1993 – cü ildə azərbaycan dilinə tərcümə olunmuşdur. Kitabın əvvəlində deyilir: "Nasir Nəcmi tarixi sənədləri diqqətlə öyrənmək nəticəsində çar Rusiyasının, eləcə də Ingiltərə və Fransanın Yaxın və Orta Şərqdə XIX əsrin əvvəllərində apardıqları işğalçı siyasətinin başlıca cəhətlərini oxucuya çatdırır. Qafqazda çarın göstərişlərini yerinə yetirərək Azərbaycan xanlıqlarını bir – birinin ardınca istila və Rusiyaya ilhaq edən generalların – Sisianovun (milliyyətcə gürcüdür), Qudoviçin, Yermolovun, Mədətovun (ermənidir), Paskeviçin apardığı işğalçı və soyğunçu müharibələr kitabda geniş əksini tapır. Kitabın əsas məziyyəti ondadır ki, Abbas Mirzə istər birinci (1804 – 1813), istərsə ikinci (1826 – 1828) Rus – Iran müharibələrində öz doğma torpaqlarını amansız düşməndən cəsarətlə müdafiə etməsini, yeni tipli nizami ordu yarada bilmək bacarığını inandırıcı dəlillərlə göstərir... Əsər heç şübhəsiz, XIX əsrin əvvəllərində Zaqafqaziyada baş verən siyasi, hərbi hadisələri daha düzgün anlamaqda oxucularımıza kömək göstərəcəkdir."

Kitabda Abbas Mirzənin qəhrəmanlığı haqqında müəllif yazır: "Iran əsgərləri ölkəyə tarixi şan – şöhrət qazandıran görünməmiş qəhrəmanlıq, cəsarət göstərmiş, bu müddət ərzində,Qacar sülaləsinin qoxmaz, igid oğlu Abbas Mirzənin başçılığı altında bütün çətinliklərə dözərək, çarın gündən – günə artan qoşunlarına qarşı müqavimət göstərmiş, hətta bu müharibələrdəki bəzi döyüşlərdə heyrətləndirici naliyyətlər əldə etmiş və düşmən qüvvələrinə güclü zərbələr endirmişlər.

Abbas Mirzə vətənin istiqlaliyyətini və bütövlüyünü hədələmək məqsədilə aparılan döyüşlərdə tərifəlayiq qəhrəmanlıqlar göstərmişdir"(53)

Jan Juniorun 2004 – cü ildə Azərbaycan dilində nəşr olunmuş "Unudulmuş qəhrəmanlar" kitabı XIX əsrin əvvələrində Iran və cənubi Qafqazda baş vermiş hadisələrin obyektiv öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Iran Islam Respublikasının Azərbaycan Respublikasındakı sabiq səfiri Əhəd Qəzayi kitaba yazdığı ön sözdə Abbas Mirzə haqqında demişdir: "Böyük ruh gücünə malik olan bir qoşun toplamış və bu qoşuna rəhbərlik edən qədim Təbrizin becərdiyi və Azərbaycanın qeyrətli oğlu Abbas Mirzə idi. Abbas Mirzə Iranın vəliəhdi olmaqla yanaşı həm də döyüşə rəhbərlik edirdi… Istər Abbas Mirzə, istərsə onun başqa sərkərdələrinin qəhrəmanlıqları tarixin səhifələrində

həkk olunmuşdur və insan bunları oxuduqca qızılbaşları, Şah Ismayılı xatirələrdə canlandırır və görür ki, bu torpağın necə oğulları varmış".

Abbas Mirzə ağıllı, cəsarətli sərkərdə olmaqla yanaşı, həm də dövrünün qabaqcıl ziyalılarından idi. O, fransız dilini gözəl bildiyindən dünyanın müxtəlif ərazilərində, o cümlədən Avropada baş verən hadisələr haqqında dərin biliyə malik idi. Onun elmi, mədəni, iqtisadi və hərbi sahələrdə apardığı islahatlar Iranın inkişafına yaxından kömək etmişdir. Irana ilk mətbəəni gətirən də o olmuşdu. Abbas Mirzə Avropa dillərindən fars dilinə kitab tərcümə edən birinci şəxsdir. O ilk dəfə olaraq Jan – Jak Rusonun Fransa inqilabında mühüm rolu olmuş "Kontra – sosial" əsərini fransız dilindən tərcümə etmişdir. Fətəli şahın mətbəədə yalnız dini kitablar çap edilməsi ilə bağlı gösərişi olmasına baxmayaraq, onun səyi ilə bir neçə tarixi kitab da çap olunmuşdur. Abbas Mirzə həmçinin fransız mənbələri əsasında Rusiyanın tarix və coğrafiyasını da dərindən öyrənmişdi. O, I Pyoturun dövründən XIX əsrin əvvəllərinə kimi Rusiyanın daxili və xarici siyasətini bütün incəliklərinə qədər öyrənmiş və təhlillər aparmışdı ki, bu da sonrakı çətin proseslərdən baş çıxarmaqda ona yaxından köməklik etmişdi.

Abbas Mirzənin Fransanın Irandakı səfiri Joberə dedikləri fikirlər onun dövrünün qabaqcıl ziyalısı olmasını bir daha sübut edir. O demişdi: "Böyük Pyotr Rusiyada hakimiyyət taxtından düşüb sənət öyrənmək üçün Avropaya getdi. Mən də əgər bacarsaydım səltənət taxtından düşər və Avropaya gedərdim ki, orada yeni elmləri və sənətkarlığı öyrənəm, Irana qayıdam və öyrəndiklərimi burada tətbiq edəm. Lakin atam mənə elə bir vəzifə tapşırıb ki, onu tərk edə bilmərəm və öhdəmə qoyulan iş başa çatanacan gərək burada qalam. Lakin mən öz əvəzimə elm və sənət öyrənmək üçün başqalarını Avropaya göndərəcəyəm." (54)

Jober Abbas Mirzə haqqında Parisdə çıxan "Klub" qəzetində bir neçə məqalə dərc etdirərək onu oxuculara dövrünün qabaqcıl şəxsiyyəti kimi təqdim etmiş, onun müsbət cəhətləri ilə yanaşı, çatışmazlıqlarını da göstərmişdi.

XIX əsrin əvvəllərində baş vermiş I və II Rus – Iran müharibələri zamanı Rusiyanın işğalçı siyasətinin həyata keçirilməsində ordu ilə yanaşı diplomatlar da yaxından iştirak etmişlər ki, bunlardan da biri A. S. Qirboyedov idi. O, "Türkmənçay" müqaviləsinin hazırlanmasında, təsdiqində və həyata keçirilməsində mühüm rol oynamışdır. Tanınmış rus yazıçısı və diplomatı olan bu şəxs cənubi Qafqazın Rusiya tərəfindən işğalında, etmənilərin Azərbaycan ərazisinə köçürülməsində aparıcı rol oynamaqla yerli müsəlman əhalisinin nifrətini qazanmış və nəticədə öz cinayətkar əməllərinin qurbanı olmuşdur.

Qribayedov 1828 – ci ilin avqustunda özünün yol xatirələrində "bədbəxt həmvətənlərinin, yəni ermənilərin yolunda başını qoymağa hazır olduğunu" yazmışdı. Tiflisdəki mənzili erməni bazarında yerləşən, erməni

general Mədətovla dostluq edən Qirbayedov ömrünün son iki ilində 30 – dan artıq erməni ilə yaxın təmasda olmuş, müsəlman əhaliyə qarşı müxtəlif planlar hazırlamışdı.

Bəzi rus diplomatları "Türkmənçay" müqaviləsindən sonra Irandan müharibə xərclərinin alınmasını prioritet məsələ hesab etsələr də, Qirbayedov onlardan fərqli olaraq ermənilərin işğal olunmuş Azərbaycan torpaqlarında yerləşdirilməsini daha vacib hesab edirdi. Erməniləri Iranla həmsərhəd əyalətlərə köçürülməklə Rusiya bu ərazilərdə özünə etibarlı canlı dayaqlar yaratmaq və etibar etmədiyi müsəlman əhalisinin yaşadığı Naxçıvan, Irəvan və Qarabağda etnik vəziyyəti kökündən dəyişmək istəyirdi.

1828 – ci ildə çar qoşunları Təbrizi işğal etdikdən sonra məhz Qirboyedovun təşəbbüsü ilə "Tutulmuş əyalətin idarə edilməsi haqqında əsasnamə" tərtib edilmişdir.

A. S. Qirboyedov təkcə cənubi Qafqazda və Iranda deyil, Yaxın və Orta şərqdə Rusiyanın mövqelərinin möhkəmlətmək üçün dəridən qabıqdan çıxırdı. Onun tərtib etdiyi "Təlimat layihəsi" də bu məqsədlərə xidmət edirdi. A. S. Qirboyedov Cənubi Qafqazın zəngin yeraltı və yerüstü sərvətlərini Rusiya müstəmləkiçilərinin malı etmək məqsədilə 1827 – ci ildə Tiflisdə Rusiya – Zaqafqaziya kompaniyası yaradılması haqqında təkliflər vermiş və bu işə Rusiyanın tanınmış iş adamlarını, sahibkarları cəlb etmişdir. Gələcəkdə tanınmış gürcü və erməni iş adamlarının da bura cəlb olunması nəzərdə tutulmuşdur. Bu layihədə yerli müsəlman iş adamlarının nəzərə alınmaması onun həmin əhaliyə qarşı düşmən mövqeyindən irəli gəlirdi.

Rusiya Iranla Türkiyə arasında olan ziddiyyətləri qızışdıraraq bundan öz mənafeyi üçün istifadə etməyə çalışır, iki müsəlman dövləti bir – birinə qarşı qoymaqla hər ikisini zəiflətmək və işğalçı niyyətlərini reallaşdırmaq istəyirdi. Bu təcavüzkar siyasətin də həyata keçirilməsinin əsas ideoloqlarında biri A. S. Qirboyedov idi. 1828 – ci ilin yazında başlamış Rusiya – Türkiyə müharibəsində çar ordusunun qələbəsini təmin etmək üçün "Türkmənçay" müqaviləsinin şərtlərinin yerinə yetirilməsi mühüm əhəmiyyət kəsb edirdi. Bu zaman Iran ərazisində olan 25 minlik rus ordusudan Türkiyəyə qarşı istifadə etmək üçün A. S. Qirboyedov öz fəaliyyətini daha da genişləndirirdi.

Rusiyanın əksinə olaraq Ingiltərə isə Iranla Türkiyə arasında ziddiyyətlərin aradan qaldırılmasına çalışır və bu dövlətlərin gücündən Rusiyaya qarşı istifadə etməyi planlaşdırırdı.

Tükmənçay sazişi bağlandıqdan sonra I Nikolayın göstərişi ilə Senat 1828 – ci il aprelin 25 - də Tehranda "səlahiyyətli nazir", Təbrizdə baş konsulluq açılması barədə qərar verdi. Elə həmin vaxt A. S. Qirboyedovun Irana səlahiyyətli səfir təyin edilməsi çarın və Rusiyanın yüksək diplomatik dairələrinin bu şəxsə necə yüksək etimad göstərdiklərinin sübut edir. O, özündən əvvəl və özündən sonra Iranda səfir olmuş bütün rus diplomatlarından yeli əhaliyə düşmən münasibəti və ermənipərəsliyi ilə

fərqlənmişdi. Lakin rus və sovet tarixşünaslığında, həmçinin müasir rus tarixşünaslığında akademik M. Neçkinanın belə bir yanlış fikri müdafiə olunur ki, guya A. S. Qirboyedov dekabristlərin tərəfdarı olduğu üçün çar onu Peterburqdan uzaqlaşdırmaq üçün bu vəzifəyə təyin etmişdir. Lakin faktlar bu fikirləri təkzib edir. Onun Irana səfir təyin edilməsinin əsas səbəbi çara sədqətlə qulluq etməsi və işğalçılıq siyasətinin həyata keçirilməsində bir diplomat kimi canfəşanlıq göstərməsi idi.

A. S. Qirboyedova öz ölkəsində müsbət yanaşılması həm bir diplomat kimi çar Rusiyası hüdudlarının genişləndirilməsi prosesindəki rolu, həm də yazıçı olması ilə əlaqədardır. Indinin özündə də çox az rus ziyalısı tapılar ki, Rusiyanın tarixən yeritdiyi işğaçı siyasətə mənfi münasibət bəsləsin. Deməli Qirboyedova Rusiya vətəndaşlarının gözü ilə deyil, işğala məruz qalmış, təcavüz nəticəsində faciələrə düçar olmuş xalqların gözü ilə baxmaq daha düzgün olardı.

Səfir təyin olunan kimi A. S. Qirboyedov səlahiyyətlərindən sui – istifadə etmək, özünü mütləq hakimi kimi aparmağa başlamışdı ki, bu da onun və köməkçilərinin faciəsi ilə nəticələnmişdi. "Səlahiyyətli nazir" təyin olunan kimi o, 40 nəfərlə əvvəl Təbrizə Azərbaycan hakimi Abbas Mirzənin sarayına, daha sonra isə Tehrana yollandı. Onun bilavasitə göstərişilə "böyük elçiliyin əməkdaşları" Türkmənçay müqaviləsinin 13 və 15 - ci maddələrinə istinad edərək xristian əsrləri qurtarmaq, erməniləri yubanmadan işğal olunmuş Azərbaycan torpaqlarına köçürmək bəhanəsilə Iran vətəndaşlarının daxili işlərinə qarışır, istədikləri evə girərək vəhşiliklər edirdilər. Qəzvin şəhərində ruslar bir seyidin evinə soxularaq, onun islam dinini qəbul etmiş milliyyətcə alman olan kəbinli arvadını zorla özləri ilə aparmaq istəmişlər. Qadının kəskin etirazından və əhalinin qəzəbindən çəkinərək sonradan onu öz evinə buraxmağa məcbur olmuşlar.

A. S. Qirboyedov ermənipərəst siyasət yeritməklə yerli müsəlman əhaliyə həm maddi, həm də mənəvi zərbələr vurmuşdur. Orta Şərqdə çox zəngin kitabxana sayılan, Şah Ismayılın oğlu Şah Təhmasibin və xüsusilə nəvəsi Şah Abbasın qayğısı ilə qədim dövrün bütün qiymətli əlyazmalarının toplandığı Ərdəbil Darülirşad ("Haqq evi"), Şeyx Səfiəddin kitabxanası Qribayedovun başçılığı ilə qarət edilərək, üzünü çıxarmaq bəhanəsi ilə Rusiyaya göndərilmişdir. Burada toplanmış əlyazmaların bir hissəsi parqament üzərində, digərləri kağız üzərində münatür boya sənətinin inciləri olan şəkillərlə bəzənmiş nadir sənət əsərləri idi. Tiflisdə Abbasqulu Ağa Bakıxanov çox böyük dəyəri olan 166 əlyazmanın ilk kataloqunu hazırladıqdan sonra bu sənət inciləri Peterburqa göndərilmiş və indi də orada saxlanılmaqdadır. Bundan başqa qənimət kimi Peterburqa göndərilən əşyalar içərisində Abbas Mirzənin taxtı, Iranlı ustaların əli ilə tökülmüş 7 top və Abbas Mirzənin döyüş şücaətlərini təsvir edən iki rəngkarlıq əsəri də var idi.

1829 – cu il yanvarın 12- də Tehrana yetişən A. S. Qirboyedov və köməkçiləri burada da özlərini ləyaqətsiz aparmış, diplomatik normaları

kobud surətdə pozmuşlar. Onlar kazaklarla birlikdə sərxoş vəziyyətdə bazar və küçələrdə hay – küyü salır, "xristian əsiri" axtarmaq bəhanəsi ilə evlərə soxulurdular. Bundan başqa Qirbayedovun şaha qarşı saymazayana, dikbaş davranması, şah hərəmxanasının başçısı erməni Mirzə Yaqubu (Markaryanı) öz himayəsinə götürməsi, baş vəzir Allahyar xanın evindən iki erməni qadınını sorğu aparmaq adı ilə səfirliyə gətirərək hətta şahın da xahişini rədd edərək geri qaytarmaması və digər hərəkətlər şəhər əhalisinin hiddətinə səbəb olmuşdur. Bütün bunlar onun faciəsi ilə nəticələnmişdir.

Tehranın ruhani başçısının çağrışı ilə yüz mindən artıq əhali Qirbayodov və onun dəstəsinin gizləndiyi səfirlik binası qarşısına toplaşdı. Qibayedovun əmri ilə gözətçilər dinc əhaliyə atəş açdı və bunun nəticəsində çoxlu sayda insan yaralanandı. Rusların atəşi ilə 14 yaşlı bir uşağın ölümü isə əhalinin səbr kasasını daşdırdı. Onlar binaya daxil olaraq Qribayedovu və 53 nəfər səfarətxan sakinini (onların 15 nəfəri erməni idi) öldürdülər. Qirbayedovun və digər iki rusun cəsədi üç gün paytaxt küçələrində atlara bağlyayaraq sürüdüldü və yalnız dördücü günü bir neçə erməni şəhərin kənarına tulanmış cəsədləri götürdülər.

Beləliklə Rusiyaın cənubi Qafqazda, o cümlədən Azərbaycanda təcavüzkar siyasətin ideolqu olan A. S. Qirboyedov öz cinayətkar əməllərinin qurbanı oldu. Azərbaycan xalqına qarşı müxtəlif dövrlərdə cinayətlər etmiş şəxslər gec – tez öz layiqli cəzalarını alırlar. XIX əsrin əvvəllərində Qribayedovun, XX əsrin axırlarında Polyaniçkonun, Strovoytova və başqalarının faciəsi çoxları üçün ibrət dərsi olmalıdır.(55)

## Çar Rusiyası zülmünə qarşı üsyanlar

Çar Rusiyasının ağır ictimai və müstəmləkə zülmü, komendant üsul-idarəsi, məmurların vəzifədən sui - istifadə etməsi XIX əsrin birinci yarsında Azərbaycanın bir çox ərazilərində üsyanların baş verməsinə səbəb oldu. Bunlardan 1830 – cu ilin mayında Güney Dağstan müridlərinin başçısı Şeyx Şabanın üsyana çağrışı ilə başlamış Car – Balakən üsyanını, 1831 – ci ilin martın 5 – də başlamış Mirhəsən xanın başçılıq etdiyi Talış üsyanını və 1837- ci il Quba üsyanını göstərmək olar. Bu üsyanlar içərisində ən güclüsü Quba üsyanı olmuşdu.

Həmin ildə Rusiyanın Varşavadakı atlı alayı üçün Quba əyalətindən atlı əsgərlər toplaması haqqında baş komandanın əmri qubalıların səbr kasasını daşdırdı. Başqa əyalətlərdə bir atlının təchizatı yerli əhalinin hesabına 130 - 150 manata başa gəlirdisə, Quba əhalisindən bunun üçün 350 manat tələb olunurdu. Bundan başqa XIX əsrin 30 - cu illərin əvvəllərindən əyaləti idarə edən komendant, polkovnik Gimbutun özbaşınalığı əhalini hiddətləndirmişdi. Dağlıq Yuxarıbaş mahalı süvari göndərməkdən imtina etdilər. 1837 – ci ilin avqustunda üsyan başladı və tezliklə bütün əyaləti bürüdü. Üsyançılar dağlıların azadlıq hərəkatının başçısı Şeyx Şamil ilə də

əlaqə yaratmış və ona məktubla müraciət etmişlər. Şeyx Şamil də Qubalılara cavab göndərərək rus qoşunlarına qarşı döyüşlərə onları ruhlandırmışdı.

Üsyançılar Quba əhalisinin çar ordusuna süvarilər verməkdən azad edilməsini, dövlət vergilərini azaldılmasını, komendant Gimbutun vəzifədən götürülməsini və iki mahal naibinin vəzifədən kənar edilərək əyalətdən sürgün olunmasını tələb edirdilər. Üsyanın genişlənməsindən qoxuya düşən hakimiyyət orqanları Gimbutu və iki mahal naibinin vəzifədən azad edib əyalətdən uzaqlaşdırdılar. Lakin üsyançıların əsas tələbi yerinə yetirilmədiyinə görə mübarizə daha da şiddətləndi. Üsyanın ikinci mərhələsi avqust ayında üç dağ mahalında başladı. Kəndli Yarəlinin başçılıq etdiyi üsyançılar 50 nəfərlik qoşun dəstəsini əsir alaraq tərkisilah etdilər. Avqustun 22 - də üsyançılar Xudat məntəqəsini tutdular. Üsyan əyalətin 14 mahalından Buduq mahalı istisna olmaqla 13 - nə yayılmışdı. Üsyanın başçısı Xuluq kəndxudası Hacı Məhəmməd idi. Kəndlilər onu xan elan etmişdilər. Avqustun 30 - da üsyançıların 12 minlik ordusu Quba qalasını mühasirəyə aldı. Qalada rusların cəmi 600 nəfərdən ibarət kiçik qarnizonu olmasına baxmayraq nədənsə üsyançılar qalaya hücum etmək üçün bu əlverişli məqamdan istifadə etməyərək bir müddət gözləməyə üstünlük verdilər. Sentyabrın dördündən beşinə keçən gecə hər biri dörd min nəfərdən ibarət iki dəstə qalaya hücuma keçdi. Üçüncü dəstəyə düşmənə arxadan zərbə endirmək tapşırığı almış Hacı Məhəmmədin yaxın köməkçisi Yarəli başçılıq edirdi. Şəhər əhalisinin köməkliyi ilə Yarəli şəhərə daxil oldu. Lakin güclü müqavimətə rast gələn üsyançılar şəhəri tərk etməyə məcbur oldular. Çar Dağıstan feodalı Məmməd Mirzənin qardaşı Harun bəyin başçılıq etdiyi silahlı dəstəni və Şirvan komendantının təşəbbüsü ilə 1000 nəfərlik milis dəstəsini üsyançılara qarşı göndərdi. Onlar Quba əyalətinə gələrək yerli əhalini qarət etməyə başladılar. Bu xəbər üsyançılar arasında ruh düşkünlüyünə səbəb oldu. Sentyabrın 11- də Hacı Məmməd üsyançıları evlərinə buraxdı, özü isə Dağıstana getdi. Yarəli isə dağlara çəkildi.

Quba üsyanı digər kəndli üsyanları kimi kortəbii, dağınıq, qeyri–mütəşəkkil və məhdud xarakter daşıdığına görə məğlub oldu. Buna baxmayaraq bu üsyanın sonrakı proseslərin gedişinə mühüm təsir göstərdi. Üsyan 1840 - cı ildə Zaqafqaziyada inzibati - məhkəmə islahatı keçirilməsi üçün əsas səbəblərdən biri oldu.(56)

Sovet dövründə Azərbaycan məktəblərində Rus – Iran müharibələrinin səbəbləri və bu müharibədə iştirak edən tərəflərin məqsədləri şagird və tələbələrə tamamilə yanlış izah olunurdu. Hətta daim belə bir fikir təbliğ olunurdu ki, "Rusiyanın məqsədi bu ərazidə yaşayan əhaliyə firavanlıq gətirmək, onların xahişi ilə bu əraziləri Rusiyayaya birləşməsinə kömək göstərmək, Iranın məqsədi isə təcavüzkarlıq, işğalçılıq idi. Guya rus qoşunları müharibənin gedişində yerli əhalidən taxıl və digər ərzaq məhsullarını pulla alır, Iran əsgərləri isə bu məhsulları zor gücünə əldə edirdilər." Lakin hətta rus mənbələrinin özünün verdiyi faktlar bunun

tamamilə yanlış olduğunu sübut edir. Məsələn, rus tarixçisi Ivanenko Azərbaycanda xanlıqlar dövründə olan mütərəqqi müsəlman vergilərindən yazır. Sonra isə kinayəli bir tərzdə rus komendantları ilə xanlar arasında fərqi izah edir: " Xanlıq dövründə qadınlara bədən cəzası verilməzdi. Rus komendatları kişilərlə birlikdə qadınları da qırmancla döyürdülər".

1829 – cu ildə Cənubi Qafqazı təftiş etmək üçün göndərilən senator Meçnikov və Kutaysov yoxlamanın nəticəsini raportlarında belə şərh etmişlər: "Yüz minlərlə xalqın hüququ, namusu və mülkü komendatların kefinə tabedir. Xanlar dövründə vergi toplananda və ya başqa mükəlləfiyyətlər istəniləndə mahaldakı adət və ənənə, ictimai vəziyyət və mülahizələrə əməl olunduğu halda, komendantlar bu məsələdə kar və kordurlar" Həmin senatorlar Tiflisdən o dövrdə Rusiya imperiyasının ədliyyə naziri D. B. Daşkova göndərdikləri raportda yazırdılar: " Bu vaxta qədər topladığımız məlumatdan aydın olur ki, bilavasitə Gürcüstan ərazisində hər cür pislik, rəzalət, həddini aşaraq son dərəcəyə gəlib çatmışdır. Müsəlman vilayətlərindəki idarəyə gəlincə, burada idarə edənlərin zülmü ilə idarə olunanların məzlumluğu təsəvvür olunmaz dərəcədə faciəli şəkil almışdır. Insan ləyaqəti tapdalanmış, ədalət tamamilə unudulmuş, qanunsuzluq, cinayət, qərəzçilik, rəislərin özbaşınalığı höküm sürür".(57)

Türkmənçay müqaviləsindən sonra Rusiya imperiyası sərhədlərini genişləndirmək və möhkəmləndirmək üçün çar Rusiyası köçürmə siyasətindən istifadə etməyə başladı. Azərbaycana rus kəndliləri ilə yanaşı ermənilər və digər xristian əhali də mərhələ – mərhələ köçürülürdü. Türkmənçay müqaviləsindən sonra ilk üç ay yarım ərzində o taydan 1,2 min erməni Irəvan, Naxçıvan və ən çox Qarabağ xanlığına köçürülmüşdü.

Rus tarixçisi N. Şavrov köçürmə siyasəti haqqında yazırdı: " Biz müstəmləkəçilik fəaliyyətinə Güney Qafqazda rus əhalisini deyil, bizə yad olan xalqların… yerləşdirilməsindən başladıq… savaşdan sonra iki il içində, 1828 – ci ildən 1830 – cu ilə kimi biz Güney Qafqaza Irandan 40 mindən çox, Türkiyədən 84 mindən çox erməni köçürmüş və onları erməni əhalisinin azlıqda olduğu Yelizavetepol (Gəncə) və Irəvan quberniyalarında ən yaxşı xəzinə torpaqlarında… yerləşdirmişik…. Yelzavetopol quberniyasının dağlıq hissəsi (indiki Dağlıq Qarabağ) və Göycə gölünün sahilində həmin ermənilər yurd saldı. Qeri - rəsmi köçənlərlə birlikdə köçüb gələnlərin ümumi sayı 200 mini ötüb keçdi. Bu köçürmə nəticəsində XX yüzilliyin əvvəllərində cənubi Qafqazda yaşayan 1, 3 milyon ermənininin bir milyondan çoxu diyarın köklü sakinləri olmayıb bizim tərəfimizdən məskunlaşdırılmışdı." (58)

Rusiyadan köçürülən ruslar əsasən çardan və kilsədən narazı olan, ayrıca dini təriqdə birləşən torpaqsız kəndlilər idilər. Məsələn, Rusiyadan Azərbaycana köçürülən içərisində molokanlar adlananlar rus kəndliləri çoxluq təşkil edirdi. Onlar öz təriqətlərini süd ( rusca "moloko"- təriqət adını buradan götüurmüşdür. M.Z.) kimi təmiz şesab edərək provoslav kilsəsinə qarşı çıxırdılar. Bundan başqa onlar torpaqsız olduqlarına görə çardan da

narazı idilər. Çar bu əhalini Azərbaycana köçürməklə həm Rusiyanın daxilindəki narazılığı qismən aradan qaldırır, həm Azərbaycanda rus kəndlilərinə torpaqlar verməklə özünə dayaqlar yaradır, həm də ruslaşma siyasətini həyata keçirirdi.

XIX əsrin axırı – XX əsrin əvvəllərində Bakıda və Azərbaycanın digər ərazilərində kapitalizmin inkişafı bir çox ərazilərdən, o cümlədən Rusiyadan işsizlər ordusunun buraya axışmasına səbəb oldu. Bakını XX əsrin əvvələrində çoxmillətli şəhərə çevrildiyinə görə bəzən onu "dünya proletariatının sərgisi" də adlandırırdılar. Işsizlərin Azərbaycanın sənaye müəssisələrinə gəlməsi ilə yanaşı bu zaman rus kəndlilərinin də köçürülməsi prosesi davam edirdi.

Tarixi mənbələrdə qeyd olunur ki, "Çarizmin müstəmləkəçi köçürmə siyasəti Azərbaycan kəndlilərinin bir hissəsinin torpaqsızlaşmasına səbəb olurdu. 1911 – ci ilin yazında Muğanda, Cavad qəzasının ərazisində Rusiyadan köçürülmüş 1000 – dən artıq kəndli sakin edildi. Onlara pambıq əkmək üçün 5 min desyatin torpaq ayrılmışdı."(59)

Rus kəndlilərinin köçürülməsi Azərbaycanda yer adlarının bir çoxu dəyişdirilməsinə səbəğb oldu. Nasıllının (indiki Cəlilabad) adı dəyişdirilərək Astraxanbazar, Qalaqainin adı Petropavlovski qoyuldu. Yeni rus kəndləri Muğanda Pokrovka, Andreyevka, Arxangelovka, Avazovka, Karyagin, Puşkin, Prişib, Ismayıllıda Ivanovka, Gədəbəydə Saratovka və digər ərazilərdə bunlara oxşar çoxlu rus kəndləri yaratdılar. 1913 – cü ildə Muğanda köçürülmüş rus kəndlilərinin 40 – dan çox yaşayış məskəni salınmışdır.

Rusların Azərbaycana köçürülməsi siyasəti sovet hakimiyyəti illərində də davam etmişdir. XX əsrin 20 – ci illərində AK(b)P daxilində Moskvanın Azərbaycanın daxili işlərinə qarışmasına, Rusiyadan gətirilmiş köçkünlərin respublikada məskunlaşmasına, dövlət idarələrinin ruslaşdırılmasına və s. qarşı çıxanlar arasında hətta rəhbər kommunistlər də var idi ki, bunlardan biri də Ə. Xanbudaqov idi. M. Ə. Rəsulzadə onun fəaliyyəti haqqında belə yazmışdı: "Biz Moskvanın Azərbaycana müdaxiləsinə qarşı səslərini yüksəltmiş bulunan Xanbudaqovları unutmamalıyız".(60)

Azərbaycana Böyük Vətən müharibəsi dövründə Rusiyanın işğal təhlükəsi altında olun ərazilərindən əhali köçürülmüş və sonradan onların bir hissəsi geri qayıtmayaraq buranı özlərinə vətən seçmişlər.

Müharibədən sonra Azərbaycanın yeni yaradılan sənaye mərkəzlərinə kömək adı ilə Rusiyanın müxtəlif ərazilərində əhalinin, xüsusilə məcburi əməyə məhkum edilmiş məhbusların köçürülməsi çox böyük miqyas almışdır. Bu barədə amerika alimi Kolars yazırdı: "Azərbaycanda rus müstəmləkəçiliyi... davam edəcəkdir, ona görə ki, sənaye Bakıdan başqa yerlərə: Kirovabada - qədim Gəncəyə, Daşkəsənə, Mingəçevirə, Sumqayıta keçirilmişdir. Daşkəsənin ilk mədənçiləri Ukraynadan gəlmişdir. Sumqayıt

inşaatçıları Xarkovdan, Moskvadan, Leninqraddan və Çelyabinskdən çağırılmışlar."

Əslən azərbaycanlı, Türkiyədə yaşamış H. Baykara isə göçürülmə siyasəti barədə belə demişdir: "Rusiyadan Azərbaycana rus kəndlisini zorla köçürmək yetməyirmiş kimi, Azərbaycanda tikilən hər bir fabrikaya minlərlə rus ailələri ilə birlikdə köçürülməkdədir. Buna da Azərbaycanda sənaye yüksəlişi adı verilir." (61)

Azərbaycan Resrpublikası 18 oktyabr 1991 – ci ildə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra, 1992 – ci ildə rus qoşunları ölkə ərazisindən çıxarıldı. Hazırda Azərbaycan Respublikası yaxın qonşuları olan Iran, Türkiyə, Rusiya və Gürcüstanla səmərəli əməkdaşlıq edir. Lakin Azərbaycan ərazisinin 20 % - i erməni işğalı altında olması, istər – istəməz Azərbaycan – Rusiya münasibətlərinə də mənfi təsir göstərir. Fikirmizcə problemin tezliklə həll olunması cənubi Qafqazda südhün bərqərar olmasında yaxından köməklik göstərə bilər. Bu prosesdə Azərbaycanın haqqını müdafiə edən Islam Konfransı ölkələrinin imkanlarından da səmərəli istifadə olunmalıdır.

## Nəticə

Aparılmış araşdırmalar göstərir ki, müştərək tarixin müxtəlif dövrlərinin obyektiv tədqiqi üçün hələ çox işlər görülməlidir. Miladdan əvvəl qədim dövlətlərdən tutmuş, Sasanilər, Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər, Atabəylər, Qaraqoyunlu, Ağqoyunlu, Səvəfi və digər dölətlərin tarixinin yenidən tədqiqi müştərək tarixin bizə məlum olmayan və ya bu vaxta qədər saxtalaşdırılmış qaraqlıq səhifələrin üzərinə işıq sala bilər.

Azərbaycan xalqının mənşəyi, yəni etnogenezi ilə bağlı elmdə hələ də ziddiyyətlərin olması bir sıra məsələlərlə yanaşı həm də müştərək tarixin obyektiv tədqiqinə mane olur. Bir qrup tarixçilər Azərbaycanda türk tayfalarının yerli olmasını və sonradan bu ərazlərə gəlmiş oxşar tayfalarla qaynayıb qarışaraq Azərbaycan xalqını əmələ gətirməsini iddia edirlər. Digərləri isə iddia edirlər ki, türk tayfaları yerli olmayıb, bu ərazilərə gəlmədi. Onların bu ərazilərə gələrək yerli əhalini asimliyasiya etmək hesabına xalq formalaşmışdır.

Bu cür ziddiyyətli fikirlərlə yanaşı Azərbaycan xalqının soy kökünü yalnız bir etnosa bağlamaq cəhdləri də vəziyyəti mürəkkəbləşdirir. Etnogenez və tarix haqqında obyektiv - elmi yazılarda göstərildiyi kimi, mütləq mənada avtoxon xalq yoxdur, müasir xalqların əksəriyyətinin

əcdadları tarixin müəyyən mərhələsində müxtəlif səbəblərdən bir yerdən başqa yerə köçmüşlər. Azərbaycan xalqının etnogenezinə bu mövqedən yanaşdıqda zahirən bir – biri ilə ziddiyyət təşkil edən əks mövqeləri yaxınlaşdırmaq və ortaq məxrəcə gəlmək mümkündür. Bu da fikrimizcə xalqın mənşəyinin yalnız bir etnosa bağlamaq haqqında fikrlərlə digər etnosların da bu prosesdə iştirak etməsi haqqında fikirlər arasında olan əksliyi aradan qaldırar. Yəni Azərbaycan xalqının formalaşmasında yerli və gəlmə türk tayfalarının qaynayıb qarışması ilə yanaşı, digər yerli tayfalar olan fars dilli, qafqaz dilli və bu ərazilərə köçürülmüş ərəb dilli tayfaların da qaynayıb qarışması mühüm rol oynamışdır. Bu tarixi prosesin izlərini müasir dövrdə həm xalqın etnik təkibində, həm də əhalinin antropoloji qurluşunda açıq aydın görmək olar. Fikrimizcə Azərbaycan xalqının etnogenez məsələsinə bu konteksdən yanaşılması və xalqın formalaşmasında iştirak etmiş bütün etnoslara doğma münasibət bəslənilməsi birləşdirici xüsusiyyətləri özündə əks etdirir. Bu da müştərək tarixin obyekitiv tədqiqinə və obyektiv dərkinə müsbət təsir göstərə, kənar qüvvələrin bilərəkdən etnik millətçiliyi qızışdırmasının qarşısını ala bilər.

Bir qədər əvvəl Azərbaycan – Iran münasibətlərinə mənfi təsir gösərən amil kimi bəzi qüvvələr Təbrizdə Azərbaycan Respublikasının konsulluğunun açılmamasını önə çəkirdilər. Lakin bu problemin müvəffəqiyyələ həlli onların bu faktdan sui – istifadə cəhdlərinin qarşısını aldı. Bundan başqa bəzi ekspertlər Iranda yaşayan azərbaycanlıların dilində məktəblərin, qəzet və jurnalların olmamasını önə çəkirlər. Bu məsələ rəsmi danışıqlar predmeti olmasa da hazırda iki dövlət arasında münasibətlərin inkişafını istəmyən qüvvələrin istifadə etdiyi əsas arqumentlərdəndir. Iranda son illər azərbaycan dilində qəzet və jurnalların nəşr olunması bu arqumetlərin də aradan qalxmasına kömək göstərir. Azərbaycan dilində məktəblərin açılması məsələsini isə Iran Islam Respublikası Konstitusiyası çərçivəsində həll etmək mümkündür.

Iranda azərbaycan dilinə qadağa qoyulması fikrini əsasız sayan, 1979 – cu il Iran Islam Inqilabı nəticəsində hakimiyyətdən devrilmiş Məhəmməd Rza şahın (1942- 1979) həyat yoldaşı Fərəh xanım Pəhləvi bu məsələ barəsində belə demişdir: "Iranda azərbaycanlılar öz dillərində nəinki sərbəst şəkildə danışıblar, hətta yazıblar da! Məsələn, götürək elə bizim böyük şairimiz Şəhriyarı. Onun türk dilində poemalar yazmağına heç bir qadağa qoyulmayıb. Elə qadağa olmadığı üçün də Şəhriyarın türk dilində əsərləri çap olunub... amma məktəblərdə yalnız rəsmi dövlət dilinin tədris edilməsi artıq başqa məsələdir"( 62)

Son olaraq onu qeyd etmək lazımdır ki, müştərək tarixə aid tədqiqatları davam etdirilməsi zəruridir və hər iki dövlətin mənafeyinə uyğundur. Məhz bu sahədə tədqiqatların obyektiv şəkildə davam etdirilməsi iki dövlət arasında münasibətlərin inkişafına yardım edə və bir

sıra problemin həllinə yaxından kömək göstərə bilər. Buna görə də iki ölkə tarixçiləri arasında əlaqələrin inkişaf etdirildməsinə, təcrübə mübadiləsinin gücləndirilməsinə, elmi, mədəni əlaqələrin daha da genişləndirilməinə böyük ehtiyac var.

Istifadə edilmiş ədəbiyyat:


1. "Azərbaycan müəllimi" qəzeti, 1 mart 1989 – cu il
2. Juze P. K. Papak i papakizm. K istorii kommunistiçeskoqo dvijeniə v Azerbaydjane 1X v. - Izv. AQU. Ser. obhestvennıx nauk, 1921 № 1, s. 204 - 216.
3. Rəsulzadə M. Ə. I.V. Stalinlə ixtilal xatirələri. Bakı, 1991, s.34.
4. Rəsulzadə M. Ə. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik, 1991, s.100,108
5. Iran Islam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəminin Azərbaycan Respublikası MM çıxışı. "Azərbaycan" qəzeti, 7 avqust 2004
6. Bünyadov Z.M. " Iki əsrin hüdudunda Azərbaycanda tarix elmi: vəziyyət və perspektivlər" "Elm və həyat" jurnalı,1988 № 10, s.1.
7. Paşazadə A. Qafqazda Islam. Bakı 1991, s.157
8. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, s. 201 – 202
9. Azərbaycan tarixi üzrə qaynaqların öyrənilməsi problemləri.Bakı,1988, s.71
10. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870 – ci ilə qədər. Red. S. Əliyarlı. Bakı 1996, s. 463
11. "Azərbaycan" qəzeti, 8 avqust 2004
12. Seidov R. A. Iranskaə burjuaziə v konüe X1X – naçale XX veka, Moskva, 1964; Aqaev S. D. Iran: vneşnaə politika i problemı nezavisimosti (1925 – 1941). Moskva, 1971; Baqirov B. S. Protiv falğsifikaüii marksistsko – leninskoy filosofii v Irane (posle vtoroy mirovoy voynı) Baku, 1978; Mustafaev D. Severnıe xanstva Azerbaydjana i Rossiə. Baku, 1989; Tağıyeva Ş., Bağırov Y.Oktyabr inqilabının Iranda və Türkiyəfdə milli – azadlıq hərəkatına təsiri.Bakı, 1957; Tağıyeva Ş. X1X əsrin sonu XX əsrin əvvəllərində Iran kəndlilərinin vəziyyəti. Bakı, 1969; Əliyev F. M. Şimali Azərbaycan şəhərləri XV111 əsrin II yarsında. Bakı 1960; Əminzadə Ə.Ə. Böyük Oktyabr Sosialist Inqilabının Iranda demokratik fikrin inkişafına təsiri ( 1917 – 1925)Bakı, 1964; Həsənov N. Oyanmış Təbriz və Səttarxan. Bakı, 1986 və s.

13. Leviatov V. N. Oçerki iz istorii Azerbaydjana v XU111 veke. Baku, 1948; Iran ( Gkonomika. Istoriə. Istorioqrafiə. Literatura) Moskva, 1976; Bibloqrafiə Irana. Literatura na ruskom əzıke ( 1917 – 1965). Moskva, 1967; Stori Ç. A. Persidskaə literatura. Bibloqrafiçeskiy obzor( per. s anql.) ç. 1 – 3. Moskva, 1972; Saxarov I. V. Iran. Rekomendatelğnıy ukazatelğ literaturı. Moskva, 1978; Dğəkonov M. M. Istoriə Irana s drevneyşix vremə do konüa XU111 v. Leninqrad, 1958; Istoriə Iranskoqo qosudarstva i kulğturı. Moskva, 1971; Istoriə Irana. Moskva, 1977; Poqrebova M. N., Iran i Zakafkazğe v rannem jelkznom veke. Moskva, 1977;Krımskiy A. E., Istoriə Persii, ee literaturı i dervişskoy teosofii. T. 1-3, Moskva, 1914 – 1917; Petruşevskiy I. P. Zemledelie i aqrarnıe otnoşeniə v Irane X111 – XU vv. Leninqrad, 1960; Petruşevskiy I. P. Islam v Irane v U11 – XU vv. Leninqrad, 1966; Stroeva L. V. Qosudarstva ismailitov v Irane v X1 – X111 vv. Moskva, 1978; Denike B.P. Jivopisğ Irana. Moskva, 1938; Pesidskie minatörı X1U – XU111 vv. Moskva, 1968; Istoriə Iranskoqo qosudarstva i kulğturı. Moskva, 1971; Melikov O. S. Ustanovlenie diktaturı Rza şaxa v Irane. Moskva, 1960;Iskustiva i arxeoloqiə Irana. Moskva, 1976; Ivanova M. N. Naüionalğno – osvoboditelğnoe dvijenie v Irane. Moskva, 1961;Xanıkov N. V. Zapiski po gtnoqrafii Persii.( per. s franü.) Moskva, 1977; Oçerki novoy istorii Irana. Moskva, 1978; Kor – Oqlı X. Sovremennaə persidskaə literatura. Moskva, 1965;Braqinskiy I., Komissarov D. Persidskaə literatura. Moskva, 1963; Qribayedov A. S. Zametki o pnreselenie armən iz Perüii v naşi oblasti. Soç., v 2 – x tomax. T. 2. Moskva, 1971; Iskustiva i arxeoloqiə Irana. Moskva, 1976; Əukaçeva M. Ə. Sovremennıe proqresivnıe pogtessı Irana. Taşkent, 1978; Qadçiev V. Q. Soçinenie Ə. Reyneqsa " Istoriçeskoe, topoqrafiçeskoe i fiziçeskoe opisanie Kavkaza i vsex razliçnıx narodov na nem obitaemıx" kak istoriçeskiy istoçnik. Istoçnikovediçeskie razıskaniə 1982. Tbilisi, 1985;

14. Aqaxi A. Rasprostranenie idey marksizma – leninzma v Irane. Baku, 1961; Aqaxi A. Iz istorii obhestvennoy i filosofskoy mısli v Irane. Baku, 1971; Şəmidə Ə. Iranda fəhlə və həmkarlar hərəkatı (1941 – 1946) Bakı, 1961; Ibrahimov T. A. ( Şahin) Iran Kommunist Partiyasının yaranması. Bakı, 1963; Abdullayev Z. Z., Aqasi N. M. Müasir Iran. Bakı, 1976 Hüsenov B. Mütərəqqi fars poeziyasında sovet mövzusu.Bakı,1961; Hüsenov B. XX əsr fars şerində ənənə və

novatorluq. Bakı, 1975; Əliyev M.M. Müasir Iran ziyalılıarı.Bakı, 1979;

15. Kiənuri N. Naçalo novoqo gtapa i narodnoy revolöüii. " Problemı mira i soüializma" 1979, № 4;Kasatkin D. Uşakov V. Iran: osobennosti razvitiə revolöüionnoqo dvijeniə. " Aziə i Afrika seqodnə", 1979 № 4; Axmedzənov A. Iran: resublika, rojdeniə v oqne narodnoqo vostaniə. " Za rubejom" 1979, № 16; Zarubejnaə Aziə. Obhiy obzor. Öqo – Zapadnaə Azii. Moskva, 1979 ( seriə " Stanı i narodı")

16. Zülfüqarlı M. P. "20 yanvardan sonrakı bəzi qaranlıq məqamlar haqqında". "Ədalət" qəzeti, 05 yanvar 2005

17. Veliçko V. L. Kavkaz. Russkoe delo i mejduplemennıe voprosı. Baku, 1990; Azərbaycan tarixi üzrə qaynaqların öyrənilməsi problemləri.Bakı,1988;Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989; Axundov N. Qarabağ salnamələri. Bakı 1989; Qarabağnamələr. C.. 1-2. Bakı, 1989, 1991;Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi.Bakı 1992; Hüsen Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1992;Ismayılov R. Azərbaycan tarixi.Bakı 1993; Şükürov S. Gəncəli Cavad xaın hekayəti. Gəncə 1992; Mustafayeva N. Cənubi Azərbaycan xanlıqları. Bakı, 1995; Azərbaycan tarixi. Uzaq keçmişdən 1870–ci iləqədər.Red.S.Əliyarlı) Bakı 1996; Şükürov K. Azərbaycan tarixi.Bakı 1998; Bünyadov Z., Məmməov Q. Dəftər-i müfəssəl – i sancaq – i Naxçıvan. " Ədəbiyyat və incəsənət" qəzeti, 21 iyun, 13 sentyabr 1985 və s.

18. Raxmani A. A. "Tarix-i alam aray-i Abbasi" kak istoçnik po istorii Azerbaydjana. Baku, 1960; Papazən A. D. Persidskie, arabskie i turetskie ofiüialğnıe dokumentı Matenadrana X1U – X1X vv. I ix znaçenie soüialğno – ekonomiçeskoy jizni stran Blijnoqo Vostoka. Moskva, 1960; Muxammed Kəzim. Nameyi alam Nadiri. Moskva, 1966; Şaraf – xan ibn Şamsaddin Bidlisi. Şaraf-name. (Perevod persidskoqo əzıka E. I. Vasilevoy) t. 1-2, Moskva, 1967- 1976; Qelaşvili N. Q. Voprosı strukturu persoəzıçnıx istoriçeskix soçineniy po istorii narodov Kavkaza ( po materialam " Tarix-i Dçxan – ara" Kazi Axmeda Qaffari) Istoçnikovediçeskie razıskaniə 1985, Tbilisi 1988; Ibn əl –Əsir. Əl – kamil fi – t - tarix. ( Ərəbcədən çevirəni M. Əfəndizadə).Bakı , 1959; Behzadi I. P. Ravəndinin " Rahət üs – südur və ayət üs – süur" əsəri tarixi mənbə kimi. Bakı 1963; Fazili A. Azərbaycanın qədim tarixi müasir Iran tarixşünaslığında.B., 1970; Musəvi Q. Ə. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər ( XV1 – XV111

əsrlər). Bakı 1977; Dəlili N. Ə. Azərbaycan – Rusiya münasibətləri fars və azərbaycandilli sənədlərdəBakı, 1976; Əbu Bəkr əl – Qütbi əl – Əhəri. Tarix – e Şeyx Üvey.( Farscadan çevirən M. D. Kazımov və V. Piriyev). Bakı 1984; Əbu Əli Həsən ibn Əli xacə Nizamülmülk. Siyasətnamə( Farscadan çevirən R. Sultanov) Bakı, 1989; Zeynəddin bin Həmdullah Qəzvini. Zeyl – e tarix-e qozide.( Farscadan çevirənlər M. Kazımov və V. Piriyev) Bakı, 1990; Məmmədova Ş. K. Qazi Əhməd Quminin " Xülasət ət – təvarix" əsəri Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 1992; Fəzlullah Rəşidəddin. Cami ət təvarix. III cild, Bakı, 1957;Fəzlullah Rəşidəddin. Oğuznamə. ( fars dilindən tərcümə, ön söz və şərhlər R. Şükürovanındır). Bakı, 1992; Qızılbaşlar tarixi ( Tarix – i qezelbaşan). Fars dilindən tərcümə və şərhlər M.Ə. Məhəmmədinindir. Bakı, 1993; Nasir Nəcmi. Abbas Mirzə. X1X əsr Rusiya – Iran – Azərbaycan münasibətləri. Bakı 1993 ( fars dilindən tərcümə); Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazi. Təkmilətül – əxbar( Fars dilindən tərcümə, müqəddimə və şərhlər Ə. Rəhimlinindir). Bakı, 1996; Şərəfəddin Əli Yəzdi. Zəfərnamə.( fars dilindən tərcümə, ön söz və izahlar V. Priyevindir). Bakı 1996; Əbubəkr Tehrani. Kitabi – Diyarbəkriyyə. (fars dilindən tərcümə, ön söz və şərhlər r. Şükürova).)Bakı, 1998; Əzizov E. Z. Əbu Təmmamın qəzidələrində xürrəmilər hərəkatına dair bəzi tarixi məlumatlar haqqında.(Azərbaycan tarixi üzrə qaynaqların öyrənilməsi problemləri. Bakı, 1988; Nəfisi Səid. Babək ( farscadan tərcümə Ə. Azəri). Bakı, 1990; Əbdülrəşid əl – Bakuvi. "Abidələrin" xülasəsi və qüdrətli hökümdarların söcüzələri.( Ərəbcədən tərcümə, müqəddimə və şərhlər Z. Bünyadov); Əliyeva N. Azərbaycan Yaqut əl – Həməvinin əsərlərində. Bakı, 1999; Gəncə – Qarabağ əyalətlərinin müfəssəl dəftəri.( Ön söz, tərcümə, qeyd və şərhlər Hüsaməddin Məmmədov). Bakı 2000

19. Azərbaycan – Iran münasibətlərinə yeni baxış. "Istiqlal" 27. 05. 1998; Azərbaycan – Iran münasibətləri: Problemlər və perspektivlər. "Bu gün" 4,11.12.99; Svilizasiyaların dialoqu. Tehran - 2001. "Üç nöqtə", 10.03.2001; Iran prezidentinin Bakı səfəri. "525- ci qəzet" 20.07.04; Azərbaycan – Iran əməkdaşlığının inkişafı üçün böyük perspektivlər var. "525" 05.08.04; Azərbaycan – Iran münasibətləri. Tarixin yenidən və obyektiv tədqiqinə ehtiyac var. "Bakı xəbər" qəzeti 13.08.04; Azərbaycan Islam Konfransı Təşkilatı ölkələrilə əməkdaşlığa xüsusi önəm verməlidir. "525- ci qəzet" 19.08.04; Murtuz

Ələsgərovun elmi işi. "525- ci qəzet" 10.09.04; 2000 – ci il seçkiləri, dünya ölkələri və Azərbaycan ( ABŞ, Rusiya, Iran) "Azadlıq" qəzeti 09.02.2000; Svilizasiyaların müharibəsi. "Azadlıq" qəzeti, 23.10.01; Terror, antiterror və antihumanist nəzəriyyələr. ( Bəşəriyyət təhlükə qarşısındadır) "525- ci qəzet",18.01.02;Avropa Şurası və Azərbaycan - Iran münasibətləri. "Üç nöqtə", 6.02.2001; ABŞ – Iran münasibətləri və Azərbaycan. " 525- ci qəzet" - ci qəzet 7.06. 2003; "Beynəlxalq sionizm və Ümumdünya "Qüds günü" "525- ci qəzet" 8.07.2004; Başörtüyü problemi: tarix və müasirlik. "525- ci qəzet" 17.03.05; Bir – birinə arxa qonşular. "525- ci qəzet" 24.03.05 Rus diplomatı A.S. Qirboyedovun cinayəti və cəzası. "Ədalət" 08.04.05; "Speys"in tarixi verlişlərinin çatışmazlıqları haqqında. "Ədalət" 05.05.05; ABŞ hərbi müdaxilələrinin qısa tarixi. "Ədalət" qəzeti 23.11.06; Nüvə enerjisindən istifadəyə iki yanaşma. "Ədalət" qəzeti 24.11.06;

20. Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyevin "Röyter" agentliyinə müsahibəsi. "Azərbaycan" qəzeti, 5 oktyabr 2004.
21. " Ilham Əliyev Avroatlantika qütbünə əks mövqeyə meyllənir. Iran – Azərbaycan sənədləri ABŞ – ın əsas geopalitik layihələrinin əleyhinə yönəlib"; "Xəzərin statusu ilə bağlı Tehranda niyə razılığa gəlinmədi?"; " Ilham Əliyev Iranla sıx əməkdaşlıq edəcəyini vəd edib. Bakı Tehranla milli təhlükəsizliyin təminatı məsələsində də əməkdaşlıq etmək niyyətindədir." "Bakı xəbər" qəzeti, 28 yanvar 2005; "Tehranla hərbi əməkdaşlıq? Ölkə başçısı Iranın müdafiə sənayesi sərgisinə niyə getmişdi?"; "ABŞ sual edir: sən kimsən?"; "Ilham Əliyev mövqeyini dəqiqləşdirməldir. Vaşinqton onu Irandan hansı bəyanatla qarşıladı?", "Azadlıq" qəzeti, 28 yanvar 2005 və s.
22. "Yeni Müsavat" qəzeti, 27 yanvar 2005
23. Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı 1993
24. Ismayılov M. "Tariximiz və tədqiqatımız". " Ədəbiyyat və incəsənət" qəzeti, 15 iyul 1988
25. "Kommunist" qəzeti, 2 noyabr 1971.
26. Petruşevskiy I.P. Azerbaydjan v XU1 – XU11vv.,s.288
27. Şeyx Səfiəddin Ərdəbili " Qara məcmuə" tərtib edən doktor Hüseyn Sədiq. Tehran, 2001.
28. Gfendiev O. Azerbaydjanskoe qosudarstvo Sefevidov v XU1 veke. Baku, 1981,s. 286; Şükürov K. Azərbaycan tarixi.Bakı 1998, s.187.

29. Mahmudov Y. M. Şah Ismayılın Avropa siyasəti ( " Şah I Ismayıl Martin Sanudonun gündəliklərində" toplusundakı sənədlər üzrə) Azərbaycan tarixi üzrə qaynaqların öyrənilmə problemləri. Bakı, 1988,s.56.
30. Yenə orada,s. 65
31. Vilayəti Əli Əkbər. Şah Ismayılın səfəvi dövründə Iranın xarici əlaqələr tarixi. Bakı, 1998,s.255 - 258
32. Bax:Şükürov K. Azərbaycan tarixi.Bakı 1998, s. 193
33. Petruşevski I.P. Azerbaydjan v XU1 – XU11 vekax. Sbornik statey po istorii Azerbaydjana. Vıp. 1. Baku,s. 246.
34. Zevakin E. Persidskiy vopros v russko – evropeyskix otnoşeniəx v XU11 v. Istoriçeskie zapiski instituta Istorii AN SSSR", 1940, № 8,s.121.
35. Petruşevski I. P. Feodalğnoe obhestva irana pri poslednix Sefevidov. " Istoriçeskiy sbornik", 1933, № 2,s. 79.
36. Petruşevski I.P. Azerbaydjan v XU1 – XU11 vekax. Sbornik statey po istorii Azerbaydjana. Vıp. 1. Baku,s. 246.
37. Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı 1993,s. 242.
38. Qarabağnamələr. I - ci kitab. Bakı, 1989, s.31.
39. Ismayılov R. "Azərbaycan tarixi". Bakı 1993,s.21,73 –74
40. Kuznetüova N. A. Iran v pervoy polovine X1X veka. M., 1983, s.9
41. Bakıxanov A. Gülüstani – Irəm. Bakı,1958; Bakixanov A.K. Qölista – i Iram. Baku 1991.s.169.
42. Jan Junior "Unudulmuş qəhrəmanlar. Bakı 2004, s. 238-239
43. "Respublika" qəzeti 22 sentyabr 1990.
44. Əhmədov F. Gəncənin tarixi yaddaşı. Bakı 1998.
45. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870–ci iləqədər. Red. S. Əliyarlı). Bakı 1996, s.577-579
46. Jan Junior "Unudulmuş qəhrəmanlar. Bakı 2004, s. 193, 201
47. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870–ci iləqədər. Red. S. Əliyarlı). Bakı 1996, s.544.
48. Yenə orda, s. 589.
49. Zülfüqarlı M. P. "Speys"in tarixi verlişlərinin çatışmazlıqları haqqında. "Ədalət" qəzeti, 5 may 2005 – ci il.
50. Traktat zaklöçennıy v Qölistane, ot 12 oktəbrə 1813 q. Doqovorı Rossii s Vostokom politiçeskie i torqovıe. Sobral i izdal T. Özefoviç.SPB., 1869, s. 208-214; Azərbaycan tarixi. Uzaq keçmişdən 1870–ci iləqədər. Red. S. Əliyarlı). Bakı 1996, s.602– 607.
51. Jan Junior "Unudulmuş qəhrəmanlar. Bakı 2004, s. 232-233

52. Traktat zaklöçennıy v Turkmençae, ot 10 fevralə 1828 q. Doqovorı Rossii s Vostokom politiçeskie i torqovıe. Sobral i izdal T. Özefoviç.SPB., 1869, s. 214 – 222; Azərbaycan tarixi. Uzaq keçmişdən 1870–ci iləqədər. Red. S. Əliyarlı). Bakı 1996, s.617 – 624.

53. Nasir Nəcmi "Abbas Mirzə" (yaxud "Qacar sülaləsinin qəhrəman, vətənərvər oğlu və onun başçılıq etdiyi Iran - Rusiya müharibələri", (Tehran hicri 1326-cı il, miladi 1910) .Bakı 1993,s.3, 9.
54. Jan Junior "Unudulmuş qəhrəmanlar. Çar Rusiyası ilə müharibədə unudulmuş qəhrəmanlarımız." (azərbaycan dilinə tərcümə edənlər Əlibala Hacızadə, Şahin Fazil). Bakı 2004, s. 349.
55. Zülfüqarlı M.P. "Rus diplomatı A. Qirboyedovun cinayətləri və cazası"."Ədalət" qəzeti 08 aprel 2005-ci il.
56. Sumbatzade A. S. Kubinskoe vostanie 1837 q. Baku 1961.
57. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1992, s.27
58. Şavrov N. N. Novaə uqroza russkomu delu v Zakavkazğe.SPb.,1911,s.59 - 61.
59. Azərbaycan tarixi. 3- cilliddə, cild 2. Bakı 1963, s.739
60. Zülfüqarlı M. P. Azərbaycan tarixi.Ikinci Respublika dövrünün tarixşünaslığı (1920 – 1991 – ci illər).Bakı 2001, s. 11
61. Köçərli T. Tarixi saxtalaşdıranlar əleyhinə. Bakı 1972, s. 172 - 173.
62. Fərəh xanımla müsahibə. "525 - ci qəzet" 9 oktyabr 2004 – cü il

## GÜLÜSTAN MÜQAVİLƏSİ

Qadir Allah Naminə
İMPERATOR ƏLAHƏZRƏTLƏRİ, Bütün Rusiyanın Ən Şöhrətli və ƏZƏMƏTLİ BÖYÜK HÖKMDARI və İMPERATORU və İran Dövlətinin Sahibi, hökmdarı ƏLAHƏZRƏTLƏRİ Padşahın ÖZ təbəələrinə yüksək hökmdar məhəbbətinə görə, ONLARIN ürəklərinə zidd olan müharibənin fəlakətlərinə son qoymağı və qədimdən Bütün Rusiya İMPERİYASI və İran Dövləti arasında mövcud olmuş səbatlı sülh

və xeyirxah qonşu dostluğunu möhkəm əsas üzərində bərpa etməyi səmimi qəlbdən, qarşılıqlı surətdə arzulayaraq bu ədaləti və nicatverici iş üçün aşağıdakıları öz səlahiyyətli Müvəkkilləri təyin etməyi faydalı bilmişlər:
ƏLAHƏZRƏT Bütün Rusiya İmperatoru - ÖZ General-leytenantı, Gürcüstandakı və Qafqaz xəttindəki qoşunların Baş komandanı, Həştərxan və Qafqaz quberniyalarında, Gürcüstanda Mülki hissə, həmçinin bu ölkənin bütün sərhəd işləri üzrə Baş Müdiri, Xəzər hərbi Donanmasının Komandanı, Müqəddəs Aleksandr Nevski, birinci Müqəddəs Anna, dördüncü dərəcəli Müqəddəs Əzabkeş və Qalibiyyətli Georgi ordenləri, habelə üzərində igidliyə görə yazısı olan qızıl qılıncla təltif edilmiş zati-aliləri Nikolay Rtişşevi, Əlahəzrət İran şahı isə - özünün, Türkiyə və İngiltərə Saraylarında fövqaladə elçisi olmuş, İran Rəisləri arasında seçilmiş, öz padşahından brilyantlarla bəzədilmiş xəncər və qılıncdan, şal paltardan və brilyantlarla zinnətləndirilmiş at bəzəkləri dəstindən ibarət fərqləndirici lütf görmüş, öz Padşahının ən yaxın Məmuru, Ali İran Sarayının Gizli İşlər Müşaviri, Vəzir nəslinə mənsub olan, İran Sarayında ikinci dərəcəli Xan, Yüksəkrütbəli və Çoxhörmətli Mirzə Həsən Xanı: bu səbəbdən də BİZ, yuxarıda adları çəkilmiş səlahiyyətli Müvəkkillər Qarabağ mülkündə, Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində toplaşaraq, vəkalətnamələrimizi bir-birimizə təqdim etdikdən sonra, hər birimizə öz tərəfindən bizim BÖYÜK HÖKMDARLARIMIZ adından bərqərar edəcəyimiz sülh və dostluğa aid olan hər bir şeyi nəzərdən keçirib, bizə verilmiş hakimiyyət və Ali səlahiyyətlərə görə aşağıdakı maddələri qərara aldıq və əbədiyyət üçün təsdiq etdik.

BİRİNCİ MADDƏ

İndiyədək Rusiya İmperiyası və İran Dövləti arasında mövcud olmuş düşmənçilik və narazılığa həmin Müqavilə ilə bu gündən etibarən və gələcəkdə son qoyulur və qoy İMPERATOR ƏLAHƏZRƏTLƏRİ Bütün Rusiya hökmdarı ilə Əlahəzrət İran şahı, onların vəliəhdləri, Taxtlarının Varisləri və ONLARIN, qarşılıqlı surətdə, Ali Dövlətləri arasında əbədi sülh, dostluq və xeyirxah razılıq olsun.

İKNCİ MADDƏ

Bir halda ki, hər iki Ali Dövlət arasında ilkin əlaqələr vasitəsilə tus quo prezenten, yəni hər bir tərəfin hazırda tam malik olduğu torpaqlara, xanlıqlara, mülklərə sahib qalması əsasında sülhün bərqərar edilməsi artıq qarşılıqlı surətdə razılaşdırılmışdır, onda indiki zamandan etibarən və gələcəkdə Bütün Rusiya İmperiyası və İran Dövləti arasında sərhəd

aşağıdakı xətt olsun: Adınabazar adlanan yerdən başlayaraq, düz xətlə Muğan düzü, Araz çayındakı Yeddibulaq keçidinədək, oradan da üzü yuxarı Kəpənək çayının Arazla qovuşduğu yerə, sonra da Kəpənək çayının sağ tərəfi ilə Mehri dağları silsiləsinə və oradan da xətti Qarabağ və Naxçıvan xanlıqlarının mərzləri ilə davam etdirərərək, Alagöz dağları silsiləsi ilə Qarabağ, Naxçıvan, İrəvan xanlıqlarının və Yelizavetpol dairəsinin (keçmiş Gəncə xanlığının) bir hissəsinin mərzləri birləşən Dərələyəz mərzinədək, buradan İrəvan xanlığını Yelizavetpol dairəsindən, həmçinin Qazax və Şəmşəddin torpaqlarından ayıran mərzlə Eşşəkmeydan mərzinə, oradan da dağlar silsiləsi ilə, çayın sağ tərəfi ilə, onun axarı istiqamətində, həmzəçimən yolu ilə, Pəmbək dağları silsiləsi ilə Şuragöl mərzi ilə, dağlar silsiləsi ilə, Mastaras və Artikin arası ilə Arpaçayadək. Bununla belə, Talış mülkü müharibə vaxtı əldən-ələ keçdiyinə görə, həmin Xanlığın Zinzeley və Ərdəbil tərəfdən olan sərhədləri, daha artıq dürüstlük üçün, hər iki tərəfdən qarşılıqlı razılıqla seçilmiş Komissarlar (onlar Baş komandanlarının rəhbərliyi ilə indiyədək hər bir tərəfin həqiqi hakimiyyəti altında olmuş torpaqların, kəndlərin, dərələrin, həmçinqin çayların, dağların, göllərin, təbii mərzlərin dəqiq və təfsilatlı təsvirini verəcəklər) tərəfindən, bu Müqavilə bağlanıb təsdiq olunduqdan sonra müəyyən ediləcək, onda ( Status quo ad prezenten) əsasında Talış xanlığının sərhəd xətti elə müəyyənləşdiriləcək ki, hər bir tərəf malik olduğu torpaqların sahibi qalsın. Eləcə də, yuxarıda xatırlanmış sərhədlərdə, bu və ya başqa tərəfin xəttindən kənara nə isə çıxarsa, hər iki Ali Dövlətin Komissarlarının təhlilindən sonra hər bir tərəf status quo ad prezenten əsasında təminat verəcək.

## ÜÇÜNCÜ MADDƏ

Şah Əlahəzrətləri ƏLAHƏZRƏT bütün Rusiya İMPERATORUNA səmimi dostluq hislərinin sübutu üçün təntənəli surətdə həm öz adından, həm də İran Taxtının Ali Vəliəhdləri adından Qarabağ və indi Yelizavetpol adı altında əyalətə çevrilmiş Gəncə xanlıqları, həmçinin Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış (bu xanlığın Rusiya İmperiyasının hakimiyyəti altında olan torpaqları) xanlıqlarının, bununla bərabər Dağıstan, Gürcüstan (Şuragölə əyaləti ilə birlikdə) İmperiya, Quriya, Minqreliya və Abxaziya, eyni dərəcədə, hazırda bərqərar edilmiş sərhəd Qafqaz xətti (bu sonuncuya və Xəzər dənizinə aid olan torpaqlar və xalqlarla birlikdə) arasındakı bütün mülk və torpaqların Rusiya İmperiyasının mülkiyyətinə mənsub olduğunu qəbul edir.

## DÖRDÜNCÜ MADDƏ

ƏLAHƏZRƏT Bütün Rusiya İMPERATORU ƏLAHƏZRƏT İran Şahına ÖZ qarşılıqlı dostluq hisslərini ifadə etmək və İranda - ONA qonşu olan bu Dövlətdə, möhkəm əsas üzərində mütləqiyyət və hökmran hakimiyyət görmək arzusunu səmimi qəlbdən təsdiq etmək üçün, bununla, ÖZ adından və ÖZ Vəliəhdləri adından İran Şahı tərəfindən İran Dövlətinin Varisi təyin ediləcək Vəliəhdə, lazım gəldikdə, kömək göstərməyi vəd edir ki, heç bir xarici düşmən İran Dövlətinin işinə qarışa bilməsin və Ali Rusiya Sarayının köməyi ilə İran Sarayı möhkəmlənsin. Bununla belə, əgər İran Dövləti işləri üzrə Şah oğulları arasında münaqişələr baş verərsə, Rusiya İmperiyası hakimiyyətdə olan Şah xahiş etməyincə bunlara qarışmayacaq.

## BEŞİNCİ MADDƏ

Rus ticarət gəmilərinə əvvəlki qayda üzrə Xəzər sahilləri yaxınlığında üzmək və onları yan almaq hüququ verilir; həm də gəmi qəzası zamanı iranlılar tərəfindən dostluq köməyi edilməlidir. İran ticarət gəmilərinə də həmin bu hüquq - əvvəlki qayda üzrə Xəzər dənizində üzmək və Rusiya sahillərinə yan almaq ixtiyarı verilir, burada da gəmi qəzası zamanı, qarşılıqlı surətdə, iranlılara hər cür yardım göstərimәlidir. Hərbi gəmilərə gəldikdə isə, müharibədən əvvəl, habelə sülh vaxtı və həmişə Rusiya hərbi bayrağı Xəzər dənizində tək mövcud olmuşdur. Həmin ehtiram daxilində, əvvəlki ixtiyar indi də yalnız Rusiya Dövlətinə verilir ki, ondan başqa heç bir Dövlətin hərbi Bayrağı Xəzər dənizində ola bilməz.

## ALTINCI MADDƏ

Hər iki tərəfdən döyüşdə əsir alınmışları, Xristian dininə və s. dinlərə mənsub ələ keçirilmiş sakinləri Müqavilə bağlanıb imzalandıqdan sonra, üç ay ərzində, hər bir tərəfdən Qarakilsəyədək (burada sərhəd rəisləri əsirləri qəbul etmək üçün öz aralarında qarşılıqlı əlaqə yaradırlar) azuqə və yol xərcləri ilə təmin edilərək, buraxılsınlar. Özbaşına, yaxud qanunu pozaraq, qaçanlardan hər birinə, milliyətindən asılı olmayaraq, öz könüllü istəyinə görə öz Vətəninə qayıtmaq azadlığı verilir, qayıtmaq istəməyənlər isə məcbur edilməsin. Bununla bərabər hər iki tərəfdən qaçmışlara amnistiya, yaxud bağışlanma verilir.

## YEDDİNCİ MADDƏ

Bütün yuxarıda deyilənlərə əlavə olaraq ƏLAHƏZRƏT Bütün Rusiya İMPERATORU və Əlahəzrət İran Şahı buyururlar ki, lazım olduqda, Əlahəzrətlərin İqamətgahlarına göndərilən, ONLARIN Ali Saraylarının qarşılıqlı Nazirlər və ya Elçiləri rütbələrinə və onlara tapşırılmış işlərin

mühümlüyünə müvafiq qəbul olunsunlar; şəhərlərdə ticarətə himayəçilik üçün təyin olunmuş Müvəkkillərin və ya Konsulların on nəfərdən artıq məiyyəti olmasın, onlar vəkil edilmiş məmurlar kimi vəzifələrinə layiq hörmət və şərəfə malik olmalıdırlar, həmçinin, Əmrnaməyə əsasən, bundan sonra onları nəinki incitmək olmaz, hətta inciklik olarsa, təqdim edildikdən sonra, hər iki tərəfin təbəələrini ədalətlə mühakimə etmək, incidilmişləri mürbətlə razı salmaq gərəkdir.

SƏKKİZİNCİ MADDƏ

Əlahəzrətlərin, öz hökumətlərindən, yaxud hökumətləri tərəfindən təyin edilmiş sərhəd rəislərindən alınmış, onların həqiqətən tacirlər, Rusiya və ya İran təbəələri olduğunu təsdiq edən yazılı sənədlərə malik təbəələri arasındakı ticarət əlaqələrinə gəldikdə, saziş bağlayan hər iki Ali Dövlətə quru yolla və dənizlə sərbəst gəlməyə, orada kim nə qədər istəyirsə yaşamağa, tacirlər göndərməyə, həmçinin heç cür ləngidilmədən oradan çıxıb getməyə, Rusiya İmperiyasına mənsub olan yerlərdən İran Dövlətinə gətirilən və qarşılıqlı olaraq, İrandan ora aparılan malların satılmasına və başqa mallarla dəyişdirilməsinə icazə veriləcək. Hər iki Ali Dövlətin tacirləri arasında baş verə biləcək mübahisələrə, onların vəzifələri və s. ilə əlaqədar şikayətlərinə adi qayda üzrə baxılması Konsula, yaxud Müvəkkilə, onlar olmadıqda isə yerli Rəisə həvalə edilir. Onlar xahişlərə tam ədalətlə baxmalı, özləri haqq təminatı verməli, yaxud bunu başqa lazımi şəxslərin vasitəsilə tələb etməli və onların incidilməsinə və sıxışdırılmasına qətiyyən yol verməməlidirlər.
İrana gəlmiş, Rusiya təbəəliyindən olan tacirlər, istəsələr, oradan öz malları ilə birlikdə İranla dostluq edən başqa dövlətlərə də sərbəst gedəcəklər; bundan ötrü İran Hökuməti bu tacirlərin sərbəst keçməsi üçün onları lazımi pasportlarla təmin edəcəkdir; buna ticarət işləri ilə əlaqədar Rusiyadan Rusiya ilə dostluq edən başqa dövlətlərə getmək istəyən İran tacirləri üçün də qarşılıqlı surətdə, riayət ediləcəkdir.
İrana gəlmiş Rusiya təbələrindən kimlərinsə ölüm hadisəsi baş verərsə, onların müxəlləfatları, həmçinin başqa daşla və mülkləri, dost Dövlətin təbəələrinə məxsus olduğu üçün, ilk növbədə, saxlanılmadan və xəlvəti mənimsənilmədən, Rusiya İmperiyasında və bütün mədəni Dövlətlərdə icra edildiyi kimi, kimin hansı Dövlətə, mənsubiyyətindən asılı olmayaraq, qanuni əsasdan, qəbzlə, onların yoldaşlarına yaxud qohumlarına verilməli, həmin qohumlara öz arzuları ilə və öz xeyirləri üçün bu əmlakları istədikləri adamlara satmağa icazə verilməlidir.

DOQQUZUNCU MADDƏ

Rus tacirlərindən İran şəhərlərinə və ya limanlarına gətirdikləri mallara görə yüzə beş faizdən çox gömrük alınmasın və həmin tacirlər bu mallar ilə hara gedirlərsə getsinlər, onlardan ikinci dəfə gömrük tələb olunmasın, oradan apardıqları İran mallarına görə də eyni gömrük alınsın, bundan başqa heç bir bəhanə və uydurma ilə heç bir rüsum, vergi, gömrük tələb edilməsin. İran təbəələrinin Rusiya şəhərlərinə və limanlarına gətirdikləri və buradan ixrac etdikləri mallara görə və qarşılıqlı surətdə eyni gömrüklər, eyni əsasda bir dəfə alınsın.

ONUNCU MADDƏ

Malları Müqavilə bağlamış hər iki Dövlətin sahillərinə və ya limanlarına, yaxud da quru yolla sərhəd şəhərlərinə gətirdikdən sonra, qarşılıqlı surətdə, tacirlərə, nəzarəti altında olduqları gömrük hakimlərindən və ya iltizamçılardan icazə almadan öz mallarını satmaq, başqa malları satın, yaxud dəyişmə yolları ilə almaq azadlığı verilir ki, ticarət maneəsiz dövriyyədə olsun həmçinin satıcıdan və alıcıdan dövlət xəzinəsi üçün müntəzəm olaraq və könüllülük şərti ilə qanuni rüsumlar yığılsın.

ON BİRİNCİ MADDƏ

Bu müqavilə imzalandıqdan sonra hər iki Ali Dövlətin müvəkkilləri, qarşılıqlı surətdə və təxirə salınmadan bütün yerlərə onun haqqında lazımı xəbər və hər yerdə hərbi əməliyyatların dərhal dayandırılması barəsində əmrlər göndərsinlər.
İki bərabərhüquqlu nüsxədə (fars dilinə tərcüməsi ilə birlikdə) yazılmış və saziş bağlayan Ali tərəflərin yuxarıda göstərilmiş Müvəkkilləri tərəfindən imzalanaraq, onların möhürləri ilə təsdiq edilmiş və qarşılıqlı surətdə dəyişdirilmiş bu əbədi sülh Müqaviləsi ƏLAHƏZRƏT Bütün Rusiya İMPERATORU və Əlahəzrət İran Şahı tərəfindən bərqərar ediləcək və Əlahəzrətlərin öz əlləri ilə imzalanmış təntənəli Ratifikasiyalarla təsdiq olunacaqdır.
Bu Müqavilənin həmin təsdiq olunmuş nüsxələri bu Ali Saraylardan, qarşılıqlı surətdə göndərilməklə onların yuxarıda adları çəkilmiş Müvəkkillərinə üç ay müddətindən sonra çadırılacaq.
Müqavilə min səkkiz yüz on üçüncü il oktyabr ayının on ikinci günü. İran hesablaması ilə min ikiyüz iyirmi səkkizinci il Şəvval ayının iyirmi doqquzuncu günü Qarabağ mülkündə Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində Rus ordugahında bağlanmışdır.
İMZALAMIŞLAR:
Müvəkkil və Gürcüstanda Baş Komandan Nikolay Rtişşev
(M : Y:)
Alişöhrətli İran Dövlətindən Müvəkkil Mirzə Əbül Həsən Xan

(M : Y:)

## TÜRKMƏNÇAY MÜQAVİLƏSİ

I MADDƏ

Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri arasında, onların vərəsələri və taxt-tacın varisləri, onların dövlətləri və qarşılıqlı surətdə təbəələri arasında bundan sonra əbədi sülh, dostluq və tam razılıq olacaqdır.

II MADDƏ

Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri hörmətlə qəbul edirlər ki, razılığa gələn yüksək tərəflər arasında baş vermiş və indi xoşbəxtlikdən qurtarmış müharibə ilə Gülüstan traktatının qüvvəsi üzrə qarşılıqlı təəhhüdlər də başa çatmışdır; onlar göstərilən Gülüstan traktatını Rusiya və İran arasında yaxın və uzaq gələcəyə sülh və dostluq münasibətləri qurmalı və təsdiq etməli olan indiki şərtlər və qərarlarla əvəz etməyi zəruri hesab etdilər.

III MADDƏ

İran şahı həzrətləri öz adından və öz vərəsələri və varisləri adından Arazın o tayı və bu tayı üzrə Erivan xanlığını və Naxçıvan xanlığını Rusiya İmperiyasının tam mülkiyyətinə güzəştə gedir. Şah həzrətləri bu güzəşt nəticəsində, hazırki müqavilənin imzalanmasından sayılmaqla altı aydan gec olmayaraq, yuxarıda adları çəkilən hər iki xanların idarə edilməsinə aid olan bütün arxivləri və ictimai sənədləri Rusiya rəisliyinə verməyi vəd edir.

IV MADDƏ

Müqaviləyə qoşulan yüksək tərəflərin razılığı ilə hər iki dövlət arasında sərhədlər aşağıdakı hüdudda qərara alınır:
sərhəd xətti Türkiyə torpaqlarının ucundakı kiçik Araratın zirvəsindən aralıda düz istiqamətdə ən yaxın nöqtədən başlayaraq o dağların zirvəsindən keçir; buradan maillik üzrə Araratın cənub tərəfindən axan Aşağı Qarasu çayının yuxarılarına düşür, sonra sərhəd xətti o çayın axarı üzrə Şərur qarşısında onun Araza töküldüyü yerədək davam edir; bu məntəqədən Abbasabad qalasınadək Araz çayının yatağı üzrə gedir;

burada qalanın Arazın sağ sahilində yerləşən xarici istehkamları yanında yarım ağac, yəni 3 1 / 2 Rusiya versti enində bütün istiqamətlərdə dövrə haşiyələnəcək və o ətrafda olan torpaq sahəsi büsbütün məhz Rusiyaya məxsus olacaqdır və bu gündən sayılmaqla iki ay ərzində ən yüksək dəqiqliklə ayrılacaqdır. Sərhəd xətti o yerdən, göstərilən dövrənin şərq tərəfdən Arazın sahilinə birləşdiyi yerdən başlayaraq bir daha o çayın yatağı ilə Yeddibulaq bərəsinədək gedir; burada İran torpaqları Araz çayının yatağı üzrə üç ağaca, yəni 21 Rusiya versti uzanacaqdır: sonra sərhəd Muğan düzü vasitəsilə Bolqarçayadək, iki kiçicik Adınabazar və Sarıqamış çaylarının birləşməsində üç ağac yəni 21 rus versti aşağıda olan torpaqlara gedir; sərhəd buradan Bolqarçayın sol sahili ilə yuxarı; adları çəkilən kiçik Adınabazar və Sarıqamış çaylarının birləşməsinədək, sonra Şərqi Adınabazar çayının sağ sahili üzrə onun yuxarılarınadək davam edir, buradan isə Cikoir yüksəkliyinin zirvəsinədək elə davam edir ki, o yüksəklikdən Xəzər dənizinə tökülən bütün sular Rusiyaya məxsus olacaqdır, İran tərəfə axan bütün sular isə İrana məxsus olacaqdır. Burada iki dövlət arasındakı sərhəd dağ zirvələrilə müəyyən edilir; qərarlaşdırılmışdır ki, onların Xəzər dənizinə doğru enişi Rusiyaya məxsus olmalıdır, o biri yandakı enişi isə İrana məxsusdur. Sərhəd Cikoir yüksəkliyi zirvəsindən, Talışı Ərş dairəsindən ayıran dağlar üzrə Qəmərkühüm zirvəsinədək keçir. Suların axarını iki yerə bölən dağların başı, yuxarıda Adınabazarın yuxarı axarı və Cikoir zirvəsi arasındakı sahə haqqında deyilən kimi, burada da eləcə sərhəd hüdudunu təşkil edəcəkdir. Sonra sərhəd xətti suların axarına aid yuxarıda şərh olunan qaydalara aramsız əməl etməklə Qəmərkuhun zirvəsindən Züvand və Ərş dairələrini ayıran dağ silsiləsi üzrə Velgic dairəsinin sərhədlərinədək uzanacaqdır. Beləliklə, adı çəkilən dağın zirvəsindən əks tərəfdə yerləşən hissəsi istisna olmaqla Züvand dairəsi Rusiyaya birləşir. Hər iki dövlət arasındakı sərhəd xətti su axınının yuxarıda qeyd olunan qaydalarına daima uyğun olaraq, Velkic dairəsi sərhəddindən Kloputanın zirvəsi və Velkic dairəsindəki dağların baş silsiləsi üzrə Astara çayının şimal mənbəyinədək, buradan o çayın yatağı boyu onun Xəzər dənizinə töküldüyü yerədək davam edəcək ki, burada da Rusiya torpaqlarını İrandan ayırmalı olan sərhəd xətti qurtarır.

V MADDƏ

İran şahı həzrətləri bütün Rusiya imperatoru həzrətlərinə öz səmimi dostluğuna sübut olaraq, bu maddə ilə həm öz vərəsələri və İran taxt-tacının varisləri adından, yuxarıda göstərilən sərhəd xətti arasında və Qafqaz sıra dağları və Xəzər dənizi arasında yerləşən bütün torpaqların və bütün adaların, bununla bərabər həmin məmləkətlərdə yaşayan bütün

köçəri və başqa xalqların əbədi zamanədək Rusiya imperiyasına məxsus olduğunu təntənə ilə tanıyır.

VI MADDƏ

İran şahı həzrətləri hər iki dövlət arasında baş vermiş müharibə ilə Rusiya imperiyasına vurulmuş xeyli ziyana, həmçinin Rusiya təbəələrinin düçar olduğu qurbanlara və itkiyə hörmət əlaməti olaraq, onların əvəzini pul təzminatı ilə ödəməyi öhdəsinə götürür. Müqaviləyə qoşulan hər iki yüksək tərəf o mükafatın məbləğini on kurur tümən raicə və ya iyirmi milyon gümüş manat qərarlaşdırmışdır, onun vaxtı, ödəniş qaydası və təminatı sözbəsöz hazırkı traktata daxil edilə biləcək qüvvəyə malik olan xüsusi müqavilədə qərarlaşdırılmışdır.

VII MADDƏ

İran şahı həzrətləri öz əlahəzrət oğlu şahzadə Abbas Mirzənin öz vərəsəsi və taxt-tacın varisi təyin etmək iltifatında bulunan kimi, Bütün Rusiya imperatoru həzrətləri öz dostluq münasibətlərini və bu varislik qaydasının təsdiqinə kömək etmək arzusunu açıq-aşkar sübut etməkdən ötrü bundan sonra şahzadə Abbas Mirzə həzrətlərinin simasında İran taxt-tacının vərəsəsi və varisini, onun taxta çıxmasından sonra isə onu o dövlətin qanuni hökmdarı hesab etməyi öhdəsinə götürür.

VIII MADDƏ

Rusiyanın ticarət gəmiləri, əvvəlki qayda üzrə, Xəzər dənizində və onun sahilləri boyunca azad üzmək və bununla bərabər onlara yaxınlaşmaq hüququna malikdir; gəmi qəzası hallarında İranda onlara hər cür kömək edilməlidir. Bu üsulla İran ticarət gəmilərində də Xəzər dənizində əvvəlki qayda ilə üzmək və Rusiya sahillərinə yan almaq hüququ verilir ki, orada gəmi qəzası hallarında onlara qarşılıqlı surətdə hər cür kömək göstərilməlidir. Hərbi gəmilərə gəldikdə isə, qədimdə olduğu kimi, yalnız Rusiya hərbi bayrağı altında olan hərbi gəmilər Xəzər dənizində üzə bilərlər; bu səbəbdən də əvvvəlki müstəsna hüquq indi də onlara verilir və təsdiq edilir ki, Rusiyadan başqa heç bir dövlətin Xəzər dənizində hərbi gəmiləri ola bilməz.

IX MADDƏ

Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri hər vasitə ilə onlar arasında bu qədər xoşbəxtliklə bərpa olunmuş sülh və dostluğu bərqərar etməyi arzulayaraq, müvəqqəti tapşırıqların icrası və ya daimi

qalmaq üçün bu və ya o biri dövlətə göndərilən yüksək sarayların (hökumətlərin) səfirlərinin, nazirlərinin və işlər müvəkillərinin, onların dərəcəsinə, razılığa gələn yüksək tərəflərin şərəfinə, onları birləşdirən səmimi dostluğa və yerli adətlərə uyğun olaraq, ehtiramla və (hər birinin) ayrılıqda qəbul edilməsini qarşılıqlı surətdə rəva bilirlər. Xüsusi protokol ilə bu və ya o biri tərəfin əməl etməsi üçün bu məzmunda mərasim qərarlaşdırılacaqdır.

X MADDƏ

Bütün Rusiya həzrətləri və İran şahı həzrətləri hər iki dövlət arasında ticarət əlaqələrinin bərpa olunmasını və genişlənməsini sülhün bərqərar olmasının ən başlıca xeyirxah nəticələrindən biri saydıqları üçün, tam qarşılıqlı razılıq əsasında hökm verdilər ki, ticarətə hakimlik edilməsinə və qarşılıqlı surətdə təbəələrin təhlükəsizliyinə aid olan bütün sərəncamlar səadətlə yoluna qoyulsun və onlar onu qarşılıqlı surətdə müvəkkillər tərəfindən bağlanacaq bu sülh müqaviləsinin eyni güclü hissəsi sayılmalı olan və ona əlavə edilən ayrıca Akt ilə izah etsinlər. İran şahı həzrətləri, qabaqlar olduğu kimi, Rusiyaya ticarətin xeyrinə tələb olunan hər yerə konsullar və ticarət agentləri təyin etmək hüququ verir və öhdəsinə götürür ki, hər ikisinin məiyyəti on nəfərdən çox olmayacaq konsul və agentlərə hamilik göstərsin ki, onlar öz rütbələrinə verilmiş şan-şövkət və üstünlüklərdən istifadə etsinlər. Bütün Rusiya imperatoru həzrətləri öz tərəfindən İran şahı həzrətlərinin konsul və ya ticarət agentlərinə münasibətdə buna tam müvafiq əməl edilməsinə vəd verir. İran hökumətinin Rusiya agentinə və ya konsuluna əsaslı şikayəti olarsa, Rusiya naziri (səfiri) və ya onun şah həzrətləri sarayı yanında işlər müvəkkili, ya da onların bilavasitə rəisi öz mülahizəsinə əsasən günahkarı vəzifəsindən uzaqlaşdıra və onu müvəqqəti olaraq digər şəxsə həvalə edə bilər.

XI MADDƏ

Qarşılıqlı surətdə təbəələrin bütün tələbləri və müharibə ilə dayandırılmış başqa işlər sülh bağlandıqdan sonra ədalətlə bərpa olunacaq və həll ediləcəkdir. Qarşılıqlı surətdə təbəələrin öz aralarında bu və ya o biri hökumətin xəzinəsinə müqavilə təəhhüdləri dərhal və tamamilə təmin edilməlidir.

XII MADDƏ

Barışığa gələn yüksək tərəflər təbəələrin xeyri üçün özlərinin ümumi razılığı üzrə qarşılıqlı surətdə qərara almışdır: onlardan Arazın hər iki

tərəfində tərpənməz əmlaka malik olanlarına üç il vaxt verilməlidir ki, onlar bu müddət ərzində onu azad surətdə satsınlar və dəyişsinlər. Lakin bütün Rusiya imperatoru həzrətləri ona aid olduğuna görə, keçmiş İrəvan sərdarı Hüseyn xanı, onun qardaşı Həsən xanı və keçmiş Naxçıvan hakimi Kərim xanı bu iltifatlı sərəncamdan kənar edir.

## XIII MADDƏ

Axırıncı və ya bundan qabaqkı müharibənin gedişində əsir alınmış hər iki tərəfin bütün hərbi əsirləri, bununla bərabər hər iki hökumətin nə vaxtsa əsir düşmüş təbəələri qarşılıqlı surətdə azad edilməli və dörd ay ərzində qaytarılmalıdır; onlar həyati azuqə və digər tələbatlarla təmin edilməli və onları qəbul etmək və sonrakı yaşayış yerinə yollamağa sərəncam vermək üçün hər iki tərəfdən ayrılmış komissarlara verməkdən ötrü Abbasabada göndərilməlidirlər. Razılığa gələn yüksək tərəflər hər iki tərəfdən əsir düşmüş, lakin olduqları yerin uzaqlığına və ya başqa bir səbəbə və ya vəziyyətə görə göstərilən müddətə qaytarıla bilməyəcək bütün hərbi əsirlərə, habelə Rusiya və İran təbəələrinə də bu yolla yanaşacaqlar. Hər iki dövlət belələrinin hər bir vaxt tələb edilməsində özünə dəqiq və qeyri-məhdud hüquq verir və öhdəsinə götürür ki, onlar aşkar edildikdə və ya onlar haqqında tələblər alındıqda qarşılıqlı surətdə onları (bir-birinə) qaytarsınlar.

## XIV MADDƏ

Razılığa gələn yüksək tərəflərdən heç biri axırıncı müharibənin başlanmasınadək və ya o vaxtı digərinin təbəəliyinə keçmiş olan satqınların və fərarilərin verilmısini tələb etməyəcəkdir. İran hökuməti bu qaçqınlardan bəzilərinin və onların köhnə həmvətənlərinin və ya hakimiyyəti altında olanların arasında qərəzli əlaqələrdən qarşılıqlı surətdə baş verə biləcək zərərli nəticələrin qarşısını almaq üçün, öhdəsinə götürür ki, indi və ya sonralar Rusiya hökumətinin adbaad göstərdiyi adamların Arazla Çara çayının, Urmiya gölünün, Cakatu çayının və Qızıl Üzən çayının Xəzər dənizinə töküldüyü yer arasında yaratdığı hüduddakı öz torpaqlarında olmasını qadağan edəcəkdir. Bütün Rusiya imperatoru həzrətləri öz tərəfindən İran qaçqınlarının Qarabağ və Naxçıvan xanlıqlarında və İrəvan xanlığının Araz çayının sağ sahilində yerləşən hissəsində yurd salmasına və ya yaşamasına (hər hansı) bir qərarda icazə verməyəcəyini vəd edir. Lakin özlüyündə aydındır ki, ancaq rəsmi rütbə daşıyan və ya müəyyən ləyaqət sahibi olan adamlara: şəxsi nümunələri, nəsihət və gizli əlaqələri ilə keçmişdə onların idarəsində və ya hakimiyyəti altında olan əvvəlki həmvətənlərinə zərərli təsir göstərə bilən xan, bəy və dini rəislər və ya mollalara qarşı bu şərtin gücü var və

olacaqdır. Ümumiyyətlə, hər iki dövlətin sakinlərinə gəldikdə isə, razılığa gələn yüksək tərəflər qərara alır ki, hər iki tərəfin bir dövlətdən o birinə keçmiş və ya bundan sonra keçəcək təbəələri onların keçdiyi hökumətin icazə verdiyi hər yerdə yurd sala və yaşaya bilər.

XV MADDƏ

Şah həzrətləri öz dövlətinə sakitliyi qaytarmaq və öz təbəələrindən hazırki müqavilə ilə bu qədər xoşbəxtliklə başa çatmış müharibədə törədilmiş bədbəxtlikləri daha da artıra bilən hər şeyi kənar etmək kimi xeyirli, xilasedici niyyətlə hərəkət edərək, Azərbaycan adlanan vilayətin bütün əhalisinə və məmurlarına büsbütün və tam bağışlanma əta edir. Hansı dərəcəyə məxsus olmasından asılı olmayaraq, onlardan heç kəs öz hərəkətinə və ya müharibə ərzində və ya Rus ordusunun adı çəkilən vilayəti müvəqqəti tutduğu zaman davranışına görə təqibə, dini əqidəsinə görə təhqirə məruz qalmamalıdır. Bundan başqa o məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına və əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Tərpənməz mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında özxoşuna sərəncam üçün beş illik müddət müəyyən edilir. Lakin bu bağışlanma qeyd olunan bir illik müddət başa çatanadək məhkəmə cəzası düşən günah və ya cinayət işləmiş adamlara şamil edilmir.

XVI MADDƏ

Müvəkkillər bu sülh müqaviləsi imzalandıqdan sonra, qarşılıqlı surətdə təxirə salınmadan təcili olaraq, hərbi əməliyyatların kəsilməsi haqqında bütün yerlərə xəbər və lazımı fərman göndərməlidir. Eyni məzmunda iki nüsxədə tərtib edilmiş, hər iki tərəfin müvəkkilləri tərəfindən imzalanmış, onların gerbli möhürləri ilə təsdiq edilmiş və qarşılıqlı olaraq bir-birinə verilmiş bu sülh müqaviləsi bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri tərəfindən təsdiq və ratifaksiya edilməli və onların imzaladığı ratifikasiya mətnləri təntənəli şəkildə hər iki tərəfin müvvəkilləri tərəfincdən dörd ay ərzində və ya mümkün olduqca daha tez dəyişdirilməlidir. Fevral ayının 10-da İsanın anadan olmasının 1828-ci ilində Türkmənçay kəndində bağlanmışdır.

Əslinə qol çəkmişlər: İvan Paskoviç, A. Obrezkov.

Zülfüqarlı Məhərrəm Paşa oğlu - 19 avqust 1955 – ci ildə Azərbaycan Respublikası Ucar rayonunda anadan olub. Bakı Dövlət Universitetinin tarix fakultəsini və aspiranturasını bitirib. Tarix elmləri namizədidir. 2001 – ci ildən "Ikinci Respublikanın tarixşünaslığı (1920 – 1991- ci illər)" mövzusunda yazdığı doktorluq işi müdafiəyə hazırdır. Müxtəlif dövrlədə Azərbaycan Neft və Kimya Institutunun Sumqayıt filialında (hazırda Sumqayıt Dövlət Universiteti), Bakı Dövlət Univesitetində, Bakı Biznes Univesitetində "Azərbaycan tarixi" və "Siyasi tarix" fənlərini tədris edib. Bakı Biznes Universiteti Magistratura şöbəsinin müdiri olub. Azərbaycan MEA Tarix Institutunda elmi işçi, Sumqayıt Şəhər Icra Hakimiyyəti başçısı aparatında humanitar məsələlər üzrə şöbə müdiri vəzifələrində çalışıb.

Almaniyanın Lidviqsfaxen, Isveçin Stokolm, Rusiyanın Moskva, Samara, Bolqarıstanın Sofiya, Plovdiv, Polşanın Varşava, Lodz, Iranın Tehran, Gürcüstanın Tbilisi, Bakuryani şəhərlərində elmi – praktik konfranslarda müxtəlif məruzələr edib.

ABŞ Respublikaçılar Institutu Seçki Akademiyasının məzunudur. Son parlament seçkilərində "Ictimai Liderlər" Birliyi Seçki Qərargahına rəhbərlik edib.

Azərbaycan Avroiteqrasiya Milli Ictimai komitəsinin üzvüdür.

Müxtəlif qeyri – hökümət təşkilatları xətti ilə Respublikanın regionlarında vətəndaşlar qəarşısında "Avropa Konvensiyasında müəyyən olunmuş hüquq və azadlıqların təmini", "Azad və ədalətli seçkilər", "Yerli özünüidarənin problemləri", "Azad cəmiyyətin prinsipləri", "Insan haqları və onun təmini", "Milli azlıqların hüquqlarının müdafiəsi", "Korrupsiyaya qarşı mübarizə" və s. mövzularda mühazirələrlə çıxış edib. Onun rəhbərliyi və Açıq Cəmiyyət Institut – Yardım Fondunun köməkliyi ilə "Elmi işçilərin hüquqlarının müdafiəsi, onlara ictimai və mənəvi dəstəyin təşkili", "Bolqarıstanın ilkin seçki təcrübəsi və Azərbaycan" və " Təhsil və elm sahəsində mövcud olan korrupsiya və rüşvət hallarına qaqşı mübarizədə yeni təhsil qanunu və maarifçiliyin rolu" mövzularında layihələr həyata keçirilib.

25 kitabın, 13 metodiki işin, 33 elmi və 512 qəzet məqalələrinin müəllifidir. 3 kitabı çapa hazırdır. "525-ci qəzet", "Ədalət" və digər qəzetlərdə müntəzəm olaraq məqalələrlə çıxış edir.

Hazırda "Ictimai Problemlərin Tədqiqi Assosiyasiyası"nın sədridir.

Evlidir iki övladı var.

Babası Zülfüqar Məmmədqulu oğlu və nənəsi Nübar Sadıqova Qaradağ mahalının Əhər şəhəri yaxınlığındakı Sumbulan kəndindən təxminən 1920 – 1923 – cü illərdə Ucar rayonuna gəlmişlər.

-----------------------------------------------------------------